# CAHİL CƏMİYYƏTDƏKİ İNSAN XARAKTERLƏRİ

...Artıq sizə Allahdan bir nur (Muhəmməd) və açıq-aydın bir Kitab gəldi. Allah, Onun rizasını arayan şəxsləri bu Kitabla əmin-amanlıq yollarına yönəldir, onları Öz izni ilə zülmətlərdən nura çıxarır və düz yola yönəldir. (Maidə surəsi, 15-16)


HARUN YƏHYA
(ADNAN OKTAR)

# CAHİL CƏMİYYƏTDƏKİ İNSAN XARAKTERLƏRİ

...Artıq sizə Allahdan bir nur (Muhəmməd) və açıq-aydın bir Kitab gəldi. Allah, Onun rizasını arayan şəxsləri bu Kitabla əmin-amanlıq yollarına yönəldir, onları Öz izni ilə zülmətlərdən nura çıxarır və düz yola yönəldir. (Maidə surəsi, 15-16)

HARUN YƏHYA

(ADNAN OKTAR)

# MÜNDƏRİCAT

Ön söz

Giriş

Cahil cəmiyyətin ümumi quruluşu

Cahil cəmiyyətdəki insan xarakterləri

Cahil cəmiyyətdə peşələrin təsiriylə yaranan xarakterlər

Digər cahillik xarakterlərindən nümunələr

Niyə xoşbəxt ola bilmirlər?

Son söz:

Quran əxlaqını yaşamağa dəvət

Təkamül yalanı

# OXUCUYA

Bu kitabda və digər işlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhdarı olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısilə, Allahın varlığını inkar edən darvinizm 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu gözlər önünə gətirmək əhəmiyyətli imani bir vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Bu səbəblə, hər kitabımızda bu mövzuya xülasə də olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd edilməsi lazım olan başqa bir xüsus da bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəsə oxunan kitablar" ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salıcı yön son dərəcə güclüdür. Bu səbəblə, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin bir qaynağın mövcudluğuna şahid olacaq.

Bu əsərlərdə digər bəzilərində görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, müqəddəsata qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

# YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 60 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (səv) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Qurani-kərimin Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (səv) xatəmül-ənbiya olduğunun rəmzidir. Yazıçı bütün yayımlarında Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu surətlə, inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün işlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya-herseqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, İndoneziya, Malay, benqal, serb, bolqar, Çin, Danimarka və İsveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər xaricdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqində olar. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində

ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın görüş və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq romantik inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan götürülmüşdür. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirliliyindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı bir maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə gətirildikdə insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aparmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarışıqlıqların, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və qarışıqlıq mühiti diqqətə alındığında bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaq.

# ÖN SÖZ

Bu kitabda yaşadığınız cəmiyyət içində qarşılaşa biləcəyiniz müxtəlif insan xarakterləri təsvir edilmiş və bu xarakterlərin Quran əxlaqına uyğun olmayan istiqamətləri təsvir edilir. Ancaq, kitabı oxuyarkən bu əhəmiyyətli xüsus unudulmamalıdır: Kitabın içində verilən təriflər, təsvirlər və faktlar, əlbəttə ki, o cəmiyyətdə olan hər kəsi əhatə etmir. Hər sosial təbəqə, hər peşə qrupu, hər insan birliyi içində yaxşı niyyətli, vicdan sahibi, sağlam fikirli insanlar olacağı kimi, pis əxlaq və davranışlar göstərən insanlar da ola bilər. Bu kitabda da üstündə dayanılan xüsus, Quran əxlaqına uyğun yaşamayan insanların pis davranış və xüsusiyyətləridir. Həmçinin bu da unudulmamalıdır ki, hər insan ömrü boyu etdiyi pisliklərdən imtina etmək imkanına sahibdir. Səmimi olaraq pislikdən imtina etmək, Allaha könüldən təslim olan və Quran əxlaqını yaşamağa qərar verən bir insan, Allahın izni ilə, Rəbbimizi bağışlayıcı və əfv edici olaraq görəcək. Necə ki, bu kitabın məqsədlərindən biri də, bəhsi keçən insanların içində olduqları vəziyyətin pisliklərini fərq edib, bu rəftarlarını tərk edərək Quran əxlaqına yönəlmələrinə vəsilə olmaqdır.

# GİRİŞ

İnsana yaradılış məqsədini bildirən, doğrunu-səhvi göstərən və həyatın həqiqi yönlərini açıqlayan, yol göstəricimiz Qurani Kərimdir. Çünki Quranı insanları yaradan, onların tək hakimi və tək sahibi olan Allah endirmişdir. Buna görə də insanın bilmədiklərini öyrənməsi və içərisində olduğu cahillikdən xilas olub məlumatlana bilməsi də ancaq Quranda və Peyğəmbərimiz (s.ə.v)-in sünnəsində göstərilən din əxlaqını tam olaraq yaşamasıyla mümkündür.

Bu əhəmiyyətli həqiqəti görməzlikdən gələrək din əxlaqından uzaq yaşayan kəslər isə "cahil" bir cəmiyyət meydana gətirərlər. Lakin bu cahillik hamının bildiyi cahillik olaraq istifadə edilən mənasından tamamilə fərqlidir. Bu kəslər ədəb, mədəniyyət və ya təhsil baxımından özlərini inkişaf etdirmiş kəslər ola bilərlər. Ya da elmin bir çox sahəsində ixtisaslaşmış, yüzlərlə kitab oxumuş, saysız-hesabsız kəşflər etmiş və hətta bu qazandıqlarıyla yaşadıqları tarixə adlarını yazdırmış kəslər də ola bilərlər. Ancaq bu insanların nə mövqeləri, nə təcrübələri, nə çıxardıqları düsturlar, nə də oxuduqları kitablar içərisində olduqları cəhaləti aradan qaldırmağa kifayət edər. Çünki bəhsi keçən bu cahillik, bu kəslərin yaradanımız olan Allahı tanımamaları, Onun qüdrətini lazım olduğu kimi təqdir edə bilməmələri, Onun özlərindən nələr gözlədiyini, Allahın məmnun olacağı ümid edilən əxlaq və şəxsiyyət quruluşunun necə olmasının lazım olduğunu bilməmələrindən qaynaqlanan bir cahillikdir. Bu əsaslı cəhalət onların həyat tərzlərindən şəxsiyyət quruluşlarına qədər həyatlarının hər anında öz mənfi təsirini göstərir.

Bu cahillikdən xilas olmağın tək və qəti həlli isə, Allahın insanlara dünya və axirət həyatına aid bütün sirləri və həqiqətləri bildirdiyi və bilmədiklərini öyrətdiyi Qurana və Peyğəmbərimiz (s.ə.v)-in sünnəsinə yönəlmələridir. Əks təqdirdə isə, tək bir qaynaq, tək bir doğru və tək bir din anlayışı olmayacağı üçün, ortaya minlərlə batil inanc və xarakter çıxar. Bu fərqli xarakterləri daşıyan insanların hər birinin yaşama məqsədləri, idealları, əxlaq anlayışları, doğruları, səhvləri və həyat tərzləri də bir-birindən ayrıdır. Bu xarakterlər bir-birləriylə müqayisədə o qədər böyük ziddiyyətlərə sahibdirlər ki, bu kəslərin bir yerdə yolagedən bir şəkildə yaşaya bilmələri çox vaxt mümkün olmaz. Hər kəs öz düşüncəsinin və öz həyat tərzinin doğruluğunu müdafiə edər və başqalarınkını tənqid edər. Bir-birlərini bəyənmədikləri və bir çox məqamda yola getmədikləri üçün də çətin bir həyat yaşayarlar.

Bu insanlar üçün tək həll isə əvvəlcə də ifadə edildiyi kimi, din əxlaqının təqdim etdiyi gözəl həyatı yaşamaqdır. Çünki insanı yaradan Allah, yenə onun ən ideal həyatı yaşaya biləcəyi və hər şeydən ən çox zövqü ala biləcəyi sistemi Quranda bildirmişdir.

Məhz bu kitabın məqsədi də cahil cəmiyyətin meydana gətirdiyi həyat tərzlərindən və xarakterlərdən bəzi əsas nümunələri araşdıraraq, bu sistemin bütün formalarının qəti olaraq "çıxılmaz vəziyyətdə" olduğunu ortaya qoymaqdır. Həmçinin cahil cəmiyyəti meydana gətirən insanların yaşadıqları klassik xarakterlərlə axtardıqları dinclik və xoşbəxtliyə heç bir şəkildə çata bilmədiklərini göstərməkdir.

Bununla bərabər kitabda, Quranda bildirilən mömin xarakterinin, cahil cəmiyyətin yaratdığı minlərlə xarakterin hamısından üstün olduğu təsvir ediləcək və yenə möminin yaşadığı həyatın, cahil sistemlərdəkinin tam əksinə nə cür mükəmməl olduğu ortaya qoyulacaqdır.

# CAHİL CƏMİYYƏTİN ÜMUMİ QURULUŞU

## Cahil cəmiyyəti kimlər meydana gətirər?

Cahillik anlayışı, "cahil" sözündən törəyən və Quranda bildirilən mənasıyla Allahı lazım olduğu kimi tanımayan, Onun sonsuz gücünü və sifətlərini lazım olduğu kimi təqdir edə bilməyən, islam dinində olan doğrulardan, insanlara təqdim etdiyi üstün əxlaq və xarakter quruluşundan, mənəvi dəyərlərdən xəbərsiz olan cəmiyyətləri ifadə edər. Din əxlaqının həqiqi mənada yaşanmadığı hər birlik "cahil cəmiyyət" olaraq xarakterizə edilə bilər. Bu cür birliklər ilk baxışda bir-birlərindən tamamilə fərqli və bir-birinə zidd görünə bilər. Bu kimi kəslərin özlərinə məxsus geyim tərzləri, vərdişləri, zövqləri və danışıq üslubları ola bilər. Ancaq təməl dünyagörüşləri və inancları ortaqdır. Bu birliklərin hər biri, Allahın dinini görməzlikdən gələn və hər şeyi yaradanın Allah olduğunu anladıqları halda, Onun təyin etdiyi şəkildə yaşamayan insanlardan ibarətdir. Bu insanlar Allahın dinini unudub yerinə öz batil dinlərini yaratmışdırlar. Bu batil dinlərin təməli Allah sevgisi əvəzinə dünya sevgisi üzərində qurulmuşdur. Allahın razılığını qazanmaq əvəzinə insanların rəğbətini və təqdirlərini qazanmağa çalışırlar. Allaha şükr etmək və yalnız Ondan kömək diləmək əvəzinə, insanlara minnət hissi duyub, onlardan asılı rəftarlar göstərərlər. Yenə bütün gücün tək sahibinin Allah olduğunu unudaraq, yalnız Ondan qorxmaq əvəzinə insanlardan və onların qoyduqları qaydalardan qorxmuşdurlar.

Ancaq cahil cəmiyyət deyildikdə ağla yalnız Quran əxlaqından tamamilə xəbərsiz insanlar gəlməməlidir. Bu insanların bir qismi haqq dini çox yaxşı bildikləri halda yenə də düşdükləri bu cəhalətdən çıxa bilməzlər. Bu kəslər Allahın əmr etdiyi bəzi ibadətləri tətbiq etdikləri halda, Quran əxlaqını və mömin xarakterini yaşamağa çalışmazlar. Bunun səbəbləri isə bu kəslərin təməldə Allaha qəlbən bağlanmamaları və şüuraltında axirətə şübhə etmələridir. Dünyaya olan sevgiləri, Qurana zidd xarakterlərə yiyələnmələrinə və din əxlaqını bildikləri halda cahil cəmiyyətin cəhalətindən xilas ola bilməmələrinə səbəb olar.

Dünyanın dörd bir tərəfində bir-birindən tamamilə müstəqil və bir-birlərinə tamamilə zidd dünyagörüşlərinə sahib olan bu birliklərdə, ortaq bir həyat və bir inanc forması müşahidə edilir. Bu səbəblə də cahil cəmiyyətdə yaşanan insan xarakterlərinə toxunmadan əvvəl, bu fərqli xarakterlərin altında yatan dünyagörüşünü və ortaq batil inancları araşdırmaqda fayda vardır.

## CAHİL CƏMİYYƏTİNİN YAŞAMA MƏQSƏDİ VƏ İDEALLARI

Cahil cəmiyyətin ümumi şəkildə ortaq bir məqsədi vardır; dünya həyatından, hədsiz şəkildə maksimum dərəcədə faydalana bilmək... Dünyanın harasına gedilirsə gedilsin, bu ortaq məqsəddən azmadan, varlı-kasıb, kəndli-şəhərli, böyük-kiçik demədən cahil cəmiyyətin hər üzvünün bu ideal əsasında hərəkət etdiyi müşahidə olunur. Çünki cahilliyin yanlış inancına görə həyat ölümlə məhdudlaşır. Olduqca qısa olan və sürətlə gəlib keçən bu həyatı dünya şərtlərinə görə ən yaxşı şəkildə qiymətləndirmək isə bu insanların inanclarına ən uyğun olan davranış formasıdır.

Halbuki bu tamamilə batil bir etiqaddır. Çünki dünya həyatı bir imtahan mühiti olaraq yaradılmışdır. Allah dünya həyatını insanlara xüsusən cəlbedici gələcək şəkildə yaratmış və bir çox nemətlə bəzəmişdir. İnsanların bəziləri bu gözəllikləri Allahın bəxş etdiyini biləcək və bu müvəqqəti nemətlərdən Ona şükr etməklə istifadə edəcək, əsl məqsədi isə dünya həyatında Allahın razılığını qazanacağı işlər görərək axirəti qazanmaq olacaq. Bəzi insanlar da dünya həyatının bu saxta bəzəklərinə aldanacaq və bütün bunları verənin Allah olduğunu unudaraq axirət həyatını görməzlikdən gələcək.

Məhz cahil cəmiyyət bu ikinci alternativi seçib bütün ideallarını yalnız dünya həyatı üzərində quran kəslərdən ibarətdir. Qeyd olunan kəslərin gələcək planlarının heç birinə axirət həyatı daxil deyil. Allah onların bu seçimlərinin səbəbini isə bir ayədə belə bildirmişdir:

**Bu ona görədir ki, onlar dünya həyatını axirətdən üstün tuturlar. Həm də Allah kafirləri doğru yola yönəltmir. (Nəhl surəsi, 107)**

Ayədə də bildirildiyi kimi, dünya həyatı bu insanları aldadır və daha sevimli görünür. Allahın insanlara bir nemət və bir sınaq olaraq yaratdığı bütün imkanlar cahil insanları aldadar. Və onlar da Allaha qarşı borclu olduqları məsuliyyətləri unudaraq bu həyata aldanarlar.

Cahil insanları bu şəkildə ehtirasla əyləndirərək qəflətə aparan mövzular isə məlumdur. Yaxşı bir həyat yaşaya bilmək, varlı ola bilmək, etibar və vəzifə əldə edib cəmiyyətdə hörmətli bir yer tutmaq, yaxşı bir ailə həyatı qurub öyünə biləcək

uşaqlara sahib olmaq... Məhz cahil insanın sonsuz axirət həyatından üstün tutduğu mövzular bunlara bənzərdir.

Əlbəttə ki, bütün bunlar hər insanın dünyada sahib olmaq istəyəcəyi, haqqı olan nemətlərdir. Ancaq cahil insanın burada içərisinə düşdüyü böyük bir yanılma vardır. Bu kimi kəslər bütün bunların həqiqi sahibinin yalnız Allah olduğunu, bu nemətləri Özünə şükr edərək istifadə etmələri üçün verdiyini və əsl hədəf alınacaq həyatın axirət olduğunu unudarlar.

Cahil insanların bu həqiqətlərdən uzaq yaşamaları isə, onlara sadə və adi bir dünya meydana gətirər. Dünyadakı bir çox insan bu məlum olan bir neçə idealın arxasınca qaçır. Hər kəsdən daha üstün ola bilmək, daha çox pul qazana bilmək və dünyadan daha çox faydalana bilmək üçün çox vaxt bir çox əxlaqi və insani xüsusiyyətlərindən rahatlıqla güzəştə gedə bilərlər. Bu da onlara zənn etdikləri kimi yaxşı bir həyat deyil, əksinə çətin bir həyat gətirər. Əllərində dünya həyatında əhəmiyyətli hesab olunan nə qədər çox nemət olursa olsun, yiyələndikləri bu pis xarakterdən ötrü bu nemətlərdən ümid etdikləri zövqü ala bilməz və bunlardan öz lehlərində istifadə edə bilməzlər. İçərisinə düşdükləri mənfəət döyüşü buna mane olar. Nemətlərin yalnız özlərinə aid olmasını istəyərlər və bu mövzuda dəlicəsinə bir ehtirasa qapılarlar. Bu da onlarda əlində olana qane olmayan, hər şeydən narazı bir xarakter formalaşdırar.

Bu ehtiras və yarış içərisində dünya həyatının nemətlərindən daha da çox istifadə edə bilmək üçün qaçaqaçda olduqları vaxt, yavaş-yavaş xəstəliklərlə və yaşlılıq əlamətləriylə qarşılaşmağa başlayır və bir müddət sonra ölüm həqiqəti ilə üzləşərlər. Bu mərhələdən sonra isə dünyadakının əksinə, pul, mövqe və etibar kimi anlayışların heç bir fayda verməyəcəyi və yalnız Allahın razılığını qazanmaq üçün göstərilən səylərin qarşılıq görəcəyi axirət həyatıyla qarşılaşarlar. Ayələrdə bu həqiqətlə qarşılaşdıqlarında, həyatları boyunca Allaha yönəlməyi görməzlikdən gələnlərin əbədi peşmançılıqlarından belə bəhs edilir:

**Kafirlər mütləq müsəlman olmalarını arzulayacaqlar. Qoy onlar bir müddət yeyib-içsinlər, əylənsinlər və xam xəyallar onların başlarını qatsın. Tezliklə biləcəklər. (Hicr surəsi, 2-3)**

## CAHİL CƏMİYYƏTİN ALLAH İNANCI

Cahil cəmiyyəti meydana gətirən insanların hamısının həyat stili və dünyaya olan baxışları bir deyil. Aralarında din əxlaqını heç bilməyən insanlar olduğu kimi, din əxlaqını bilən və Allahın bir çox hökmündən xəbərdar olan insanlar da vardır. Hətta bunların böyük bir əksəriyyəti də özlərinə soruşulduğu vaxt Allaha inandıqlarını deyirlər:

**De: "Əgər bilirsinizsə, deyin görüm yer və onun üstündə olanlar kimindir?"Onlar: "Allahındır!" – deyəcəklər. De: "Bəs düşünüb ibrət almayacaqsınız?" De: "Yeddi göyün Rəbbi və əzəmətli Ərşin Rəbbi kimdir?" Onlar: "Allahdır!" – deyəcəklər. De: "Bəs qorxmursunuz?" De: "Əgər bilirsinizsə, deyin görüm hər şeyin hökmü əlində olan, himayə edən, Özünün isə himayəyə ehtiyacı olmayan kimdir?" Onlar: "Allahdır!" – deyəcəklər. De: "Bəs necə olur ki, aldanırsınız?" Xeyr, Biz onlara haqqı gətirdik. Onlar isə yalançıdırlar! (Muminun surəsi, 84-90)**

Ancaq bu kəslər dilləriylə təsdiq etdikləri bu həqiqəti ürəkləriylə rədd edərlər. Bu səbəblə də Allaha həqiqi mənada iman gətirib Onun bəyəndiyi kimi bir həyat yaşamazlar. Allahın razılığını qazanacaq işlərlə məşğul olmaq əvəzinə öz istəklərini təmin etmək məqsədiylə yaşayarlar. Ağızlarıyla iman etdiklərini demələri isə vicdanlarının açıq şəkildə bu həqiqəti görməsindən ötrüdür. Dünyada baxdıqları hər yerdə, apardıqları hər araşdırmada, tapdıqları hər yeni detalda özlərinə aid olmayan üstün bir ağılla qarşılaşarlar. Dünyadakı heç bir şeyin təsadüf əsəri ortaya çıxmış ola bilməyəcəyini, ən incə detalına qədər hər varlığı üstün bir yaradıcı olan Allahın yaratmış olduğunu başa düşərlər. Bütün hadisələrin yalnız Allahın qüdrəti və hakimiyyəti altında baş verdiyini açıq şəkildə görərlər. Bu səbəblə də vicdanən Allahın varlığını təsdiq edərlər. Amma buna baxmayaraq din əxlaqını yaşamaq istəməmələrinin səbəbi isə Quranda belə izah olunmuşdur:

**Buna qəti inandıqları halda, haqsızcasına və təşəxxüslə onları inkar etdilər. Gör fəsad törədənlərin aqibəti necə oldu! (Nəml surəsi, 14)**

Cahil cəmiyyətdəki insanların bir hissəsi də Allahı açıq şəkildə inkar etməyə cəhd edər. Onlar da içində yaşadıqları kainatdakı qüsursuz nizamın təsadüflər nəticəsində ortaya çıxa bilməyəcəyini bilirlər. Lakin bu kəslər vicdanlarını tamamilə

bağlamışlar. Bu mövzuda özləri üçün tapdıqları həll isə Allahın varlığının dəlillərini görməzlikdən gəlməyə və düşünməməyə çalışmaqdır. Onları daima doğruya yönəltməyə çalışan vicdanlarını susdura bilmək üçün də bəzi bəhanələr irəli sürərlər. Lakin bu bəhanələrinin heç bir izahı yoxdur. Bunlar yalnız inkarlarına bir bəhanə tapmağa çalışırlar.

## CAHİL CƏMİYYƏTİN ÖLÜM VƏ AXİRƏT İNANCI

Cahil cəmiyyətin böyük bir hissəsi axirətin varlığından xəbərdar olduğu halda, düşünməyərək bu həqiqətdən öz aləmlərində qaçmağa çalışırlar. Bu kəslər dünya həyatının keçiciliyini də görməzlikdən gəlirlər. Çünki cahil inancın təməli dünyadakı həyat üstündə qurulmuşdur. İnsanların bütün idealları, istəkləri yalnız dünya ilə əlaqədardır və buna bağlı olaraq razı olduqları şey də yenə dünya ilə bağlı mənfəətlərdir. Dünyaya olan bu bağlılıqlarından ötrü, buradakı həyatı sanki heç sona çatmayacaqmış kimi qiymətləndirərlər. Ayədə **"... Belə ki, ömür onlara (heç bitməyəcəkmiş kimi) uzun gəldi..." (Ənbiya surəsi, 44)** ifadəsiylə ifadə edildiyi kimi, ölümün varlığına inanmaq istəməz və dolayısilə də axirəti əsla düşünməzlər. Çünki axirəti düşünmək, dünyaya böyük bir ehtirasla bağlanmalarına izn verməyəcək.

Halbuki, **"Bu dünya həyatı əyləncə və oyundan başqa bir şey deyildir. Axirət yurdu isə əsl həyatdır. Kaş ki, biləydilər!" (Ənkəbut surəsi, 64)** ayəsi ilə Allah, dünya həyatının "**əyləncə və oyundan**" ibarət olduğunu və əsl həyatın axirət olduğunu bildirir. Belə ki, dünya həyatının bir əyləncə olduğunu cahil cəmiyyətdəki insanlar da bilirlər.

Ancaq buna baxmayaraq, ağıllı bir müqayisə edərək səmimi düşünməyə də çalışmazlar. Axirətə iman etməklə heç bir şey itirməyəcəklərini, əksinə xeyir qazanacaqlarını başa düşmək istəməzlər. Çünki axirətə iman etdiklərində, dünyadakı nemətlərdən məhrum qalmayacaqlar. Əksinə bütün bunlardan ən gözəl şəkildə istifadə edə biləcəkləri kimi, Allahın rizasını və sonsuz cənnəti qazanmağı da ümüd edə biləcəklər. Və cənnətdə, bezmək, yorulmaq, ya da dəyişməzlik kimi anlayışların yaradılmadığı, sonsuz gözəllikdəki, sonsuz fərqli nemətlər içərisində, sonsuz bir həyat yaşayacaqlar. Yəni axirəti istəyən kəslər həm dünyanı, həm də axirəti qazanmış olacaqlar. Amma yalnız dünyanı istəyənlər, axirəti qəti olaraq itirəcəklər:

**... O, dünyanı da əldən verər, axirəti də. Məhz bu, açıq-aşkar bir itkidir. (Həcc surəsi, 11)**

Belə bir müqayisə aparıldıqda isə hansının itki, hansının qazanc olduğu olduqca açıq şəkildə görünəcək. Amma cahil cəmiyyətin insanları lazım olduğu kimi düşünmədikləri üçün bu həqiqətləri qavramaqda çətinlik çəkərlər. Çünki onların səthi baxış bucağına görə dünya hal-hazırda əllərinin altındadır, axirətə isə qəti bir inancla inanmadıqları üçün tərəddüd edirlər. Allah Quranda cahilliyin bu tərəddüdünə belə cavab verildiyini bildirir:

**Sizə verilən hər bir şey dünya həyatının keçici zövqüdür. Allahın yanında olanlar isə daha xeyirli və daha sürəklidir.... (Şura surəsi, 36)**

**...Onlar dünya həyatı ilə sevinirlər. Halbuki dünya həyatı axirətlə müqayisədə keçici bir zövqdür. (Rad surəsi, 26)**

Ancaq cahil cəmiyyətin insanları sırf dünyaya olan bağlılıqlarından imtina etməmələri üçün ayələrdə izah olunan bu həqiqəti düşünmək istəməzlər. Əksinə özlərini aldada bilmək və vicdanlarını rahatlaşdıra bilmək üçün səhv məntiqlər irəli sürərlər. Tarix boyu hər peyğəmbər göndərildiyi birliyə axirət həyatının, cənnətin və cəhənnəmin varlığını bildirərək hələ vaxt varkən onları xəbərdar etmişdir. Ancaq bu insanların çoxu, elçilərin xəbərdarlıqlarına qulaq verməmiş və ayələrdə bildirildiyi kimi, **"Çürümüş sümükləri kim dirildə bilər?" (Yasin surəsi, 79), "Biz torpağın içində yox olandan sonra yenidənmi yaradılacağıq?" (Səcdə surəsi, 10)** ya da **"... biz ölüb torpaq və sür-sümük olduqdan sonra dirildiləcəyik?"Bu dirilmə həm bizə, həm də əvvəllər atalarımıza vəd olunmuşdu. Bu, keçmişdəkilərin əfsanələrindən başqa bir şey deyil". (Muminun surəsi, 82-83)** şəklində reaksiyalar verərək axirətin varlığını rədd etmişdirlər. Allah onların bu inkarlarına belə cavab vermişdir:

**De ki : "Onları ilk dəfə yoxdan yaradan dirildəcəkdir. O, hər yaratmağı biləndir". (Yasin surəsi, 79)**

**Göyləri və yeri yaradan onların eynisini yenidən xəlq etmək qüdrətinə malik olmazmı?! Şübhəsiz ki, O, Yaradandır, Biləndir. Bir şeyi yaratmaq istədikdə ona təkcə: "Ol!" deyər, o da olar.(Yasin surəsi, 81-82)**

Göründüyü kimi, cahil cəmiyyətin insanları inansalar da, inanmasalar da cənnət və cəhənnəmin varlığı inkar edilə bilməz bir həqiqətdir. İnanmamaqda öz özlərini ciddi mənada aldadırlar. Bu açıq həqiqətlə qarşılaşdıqlarında isə, artıq hər şeyin fərqindədirlər:

**Kafirlər Odun qarşısına gətiriləcəkləri gün onlara: "Məgər bu, həqiqət deyilmi?" – deyiləcəkdir. Onlar: "Bəli, Rəbbimizə and olsun ki, həqiqətdir!" – deyəcəklər. Allah da: "İnkar etdiyinizə görə dadın əzabı!" – deyəcəkdir. (Əhqaf surəsi, 34)**

# CAHİL CƏMİYYƏTDƏ İNSAN XARAKTERLƏRİ

Cahil cəmiyyət fərdlərinin Quran əxlaqından uzaq bir həyat tərzi yaşadıqları, onları həyatlarının hər mərhələsində böyük yanılmalara və çətinliklərə aparar. Bu yanılmalardan ən əhəmiyyətlisini isə, şübhəsiz ki, özləri yaşayarlar. Tərs məntiqləri və Qurana uyğun olmayan qiymətləndirmələrindən ötrü bu cəmiyyətdə yaranan xarakterlərin heç biri dincliyə və xoşbəxtliyə nail ola bilməz.

Cahil insanların hələ uşaqlıq illərindən etibarən özlərinə model olaraq seçdikləri kəslər mütləq vardır. Böyüyəndə həmişə onlar kimi olmağı hədəfləyər, onların rəftarlarını və həyat tərzlərini təqlid etməyi qarşılarına məqsəd qoyarlar. Bu, bəzən anaları ataları, bacıları, ya da böyük qardaşları, bəzən də yaxın ətraflarından tanıdıqları bir yaxınları, qonşuları və ya televiziya kanalından görüb bəyəndikləri biri ola bilər. Həsəd apardıqları bu şəxsiyyət, insanın yaşadığı mühitə, həyat şərtlərinə, məhəlləyə və mədəniyyət səviyyəsinə görə fərqliliklər göstərər. Bəziləri ən mükəmməl həyat formasının üsyankar və məsuliyyətsiz bir xarakterlə əldə ediləcəyinə inandıqları halda, bəziləri də yenə ətrafından aldığı təlqinlərlə ən etibarlı xarakterin ancaq qürurlu və soyuqqanlı bir xarakter göstərilərək əldə edilə biləcəyinə inanır.

Amma həsəd apardıqları bu modelə çatdıqlarında hadisənin heç də kənardan göründüyü kimi olmadığını başa düşərlər. Bundan sonra da bütün həyatlarını həqiqi mənada ruhlarını qaneedən bir həyatı axtarmaqla keçirərlər. Amma bu axtarışın sonu gəlməz. Yaşları irəliləyib, həyat şərtləri və ətrafları dəyişdikcə, həsəd apardıqları şəxsiyyətlər də dəyişər. Dəbdə olan hər stildən, ortaya atılan hər yeni cərəyandan təsirlənər və axtardıqları dincliyi, ehtimal ki, bu xarakterlərdən tapa biləcəklərini ümid edərək bunları da bir-bir sınayarlar. Cahil insanların yaşadığı bu şəxsiyyət axtarışı ölümlərinə qədər davam edir. Amma əsla rahat olduqları və yaradılışlarına uyğun olan xarakteri və həyat tərzini tapa bilməzlər. Çünki sınadıqları hər sistem, yenə ancaq cahil inancın bir məhsuludur.

Bəziləri də müəyyən bir yaşdan sonra, müəyyən bir xarakteri qoruyub saxlayarlar. Amma bu, onların axtardıqları modeli tapıb xoşbəxt bir həyat yaşamalarından qaynaqlanmaz. Əksinə problemin cahillik sistemi içərisində həllsiz olduğunu başa düşüb, vəziyyətlərini qəbul etmələrindən qaynaqlanır.

Məhz sonrakı səhifələrdə cahil cəmiyyətlərdə hakim olan bu xarakterlər ümumi mənada təsnif edilərək tanıdılmağa çalışılacaq və bu kəslərin necə çətin bir həyat yaşadıqları ortaya qoyulacaq. Bu əhəmiyyətli həqiqət vurğulanacaq, bir tərəfdən də çıxılmaz vəziyyətdə olan cahil xarakterləriylə mömin xarakteri arasındakı böyük fərq görüləcək. Beləcə cahil sistemi yaşayan insanlar hər nə yolu sınayarlarsa sınasınlar böyük bir "ziyan" içərisində olduqları və bu ziyandan xilas olmalarının tək həllinin mömin əxlaqını yaşamaq olduğu bir daha xatırladılacaqdır.

Ancaq bundan əvvəl əhəmiyyətli bir məqamı xatırlatmaqda fayda vardır: Burada göstərilən insan xarakterləri cahil cəmiyyətlərin ümumi vəziyyətini təmsil edir. Əlbəttə ki, cəmiyyətdə müxtəlif səbəblərdən ötrü bu ümumiləşdirmələrə uyğun olmayan istisna kəsləri də vardır. Belə kəslər müəyyən şərtlər altında olaraq, o şərtlərin tələb etdiyi xarakter quruluşunun heç bir xüsusiyyətini daşımaya bilər. Bu səbəblə də cahil insanların hamısının bu izah edilən xarakterləri mənimsədiyini deyə bilmərik. Burada əsl diqqət çəkilmək istənilən şey də fərdlər deyil, cəmiyyətdəki bütün insanlara hakim olan və cahil sisteminin yanlışığını ifadə edən xarakter quruluşlarıdır.

## CAHİL CƏMİYYƏTDƏ QADIN XARAKTERLƏRİ

Cahil cəmiyyətdə adı qoyulmayan, amma səssizcə bütün insanları istiqamətləndirən bir güc vardır. Bu kimi cəmiyyətlərdə yaşayan insanların bir çoxu doğulduğu andan etibarən özünü bu istiqamətləndiricilərə təslim edər və bütün həyatını onun müəyyənləşdirdiyi şərtlər əsasında tənzimləyər. Bu güc cahil insanlara elə bir şəkildə hakimdir ki, çox vaxt insanlar öz istəkləri və ümidlərinə zidd olduğu halda, yenə də onun qaydalarından kənara çıxmaz və hər nə olursa olsun, ona qarşı sədaqət göstərərlər.

Bəs cahil insanları bu cür möhkəm əlaqələrlə özünə bağlayan və qeyd-şərtsiz istiqamətləndirən bu güc nədir?

Bu, əvvəldə də ifadə edildiyi kimi, adı qoyulmamış, amma cahil insanların öz aralarında **"ənənə"** şəklində ifadə etdikləri batil qaydalar toplusudur. Bu qaydaları kimin müəyyənləşdirdiyi, bunların doğru ya da etibarlı olub-olmadığı isə məlum deyil. Heç kim asanlıqla bu qaydaları sorğulamağa və ya dəyişdirməyə cəsarət edə bilməz. Belə bir işə cəhd edənə də yaxşı gözlə baxılmaz və çox vaxt da qaydaları tapdaladığı, rejimi pozduğu düşünülən kəslərə qarşı bir rəftar alınır.

Güclü şəkildə mənimsədikləri və sıx bir əlaqə ilə bağlandıqları bu qaydaların səhv ola biləcəyi özlərinə izah edilmək istəndiyində isə bütün bunların özlərinə əvvəlki nəsillərdən miras qaldığı, bu səbəbdən də imtina edilməz olduğu cavabını verirlər. Nəyi nə üçün etdiklərinin hesabını aparmaq onlara görə lazımsız bir cəhddir, çünki onlar əvvəlkilərdən elə görüblər. Cahil cəmiyyətin bu səhv dünyagörüşünü ifadə edən ayələrdən biri də belədir:

**Onlara: "Allahın nazil etdiyinə tabe olun!" – deyildikdə, onlar: "Xeyr, biz atalarımızın tutduğu yolu tutacağıq!" – deyirlər. Bəs ataları bir şey anlamayıb doğru yola yönəlməyiblərsə necə? (Bəqərə surəsi, 170)**

Cahiliyyə cəmiyyətində hər insanın yaşamalı olduğu xarakter və həyat tərzi bu batil və qəlibləşmiş ənənələr istiqamətində əvvəlcədən müəyyənləşdirilmişdir. Məsələn, uşaq daha yetkin bir xarakterə sahib olsa da, uşaq kimi davranmalıdır. Özündən gözlənilən rəftarlar, danışıqlar, gündəlik həyat tərzi məlumdur. Bunların əksi olan bir davranış isə qəribə qarşılanar.

**"Qadın xarakteri"** də eyni şəkildə qadınlar üçün cəmiyyət tərəfindən seçilib bəyənilən xüsusiyyətlərdən ibarətdir. Cahil cəmiyyətin qadınları bu şəxsiyyəti qəbul etmiş və bu əsas xarakter içərisində alt kateqoriyalı xarakterlər yaratmaqdan kənara çıxa bilməmişlər. Halbuki cahilliyin təyin etdiyi qadın xarakteri başdan-ayağa təhriflərlə doludur.

Bu təhriflərdən ən əhəmiyyətlisi də, şübhəsiz ki, qadının bədən cəhətdən kişidən zəif olmasından ötrü, xarakter olaraq da zəif olmasının lazım olduğu formasındakı inanclardır. Qız uşaqlarını daha çox kiçik yaşlardan etibarən bu təlqinlə böyüdərlər. Cahil cəmiyyətin özlərinə uyğun gördüyü xarakteri sorğusuz-sualsız qəbul edən qadınlar da bu təlqinin təsiriylə zəif bir şəxsiyyətə yiyələnərlər. Özlərini əsla bir kişi kimi güclü və dözümlü ola bilməyəcəklərinə inandırıblar. Qadınların böyük bir hissəsi heç vaxt sığınılan, qoruyan, müdafiə edən mövqeyində olmağı düşünməmiş, uşaqlıqdan etibarən daima müdafiə olunan, qorunan və baxılan bir şəxsiyyət göstəriblər. Bu zəif xarakterin gətirdiyi romantiklik, ağlama, küsmə kimi Quran əxlaqından uzaq rəftarların tətbiqini normal qarşılayıblar. Bu xarakter cahil cəmiyyətdə olduqca normal qarşılanan bir xarakter halına gəlmişdir. Bəzi qadınlar özlərinə uyğun görülən bu modeli, bu şəxsiyyətin pis tərəflərini və öz həyatlarına

gətirdiyi ziyanları heç nəzərə almadan və dolayısilə özlərini daha da inkişaf etdirmə tələbi hiss etmədən mənimsəyiblər.

Cahil cəmiyyətin bu mürəkkəb sistemiylə yanaşı Quranda təsvir edilən yol isə ən sadə, ən asan və ən mükəmməldir. Mömin olan bir kimsə üçün qadın, ya da kişi xarakteri kimi bir ayrı-seçkiliyin aparılmasından söhbət gedə bilməz. Bu səbəblə də qadın, qadın şəxsiyyətindən əvvəl müsəlman şəxsiyyətini daşıyar. Xarakterini cinsiyyətinə görə deyil, Quranda Allahın bildirdiyi əxlaqa görə seçir. Quranda tək bir mömin xarakteri təsvir edilir. Qadın ya da kişi hər insan Allahın əmr etdiyi bu əxlaq və şəxsiyyəti yaşamaqla məsuldur. Bu şüurla yaşayan mömin bir qadın da güclü, sabit və üstün bir xarakterə sahib olar.

Mömin qadının bu xarakteri ilə, cahil ənənələrin təsirində yaranan "qadın xarakterləri" müqayisə etdikdə, Quranda təsvir edilən əxlaqla formalaşan bu üstün şəxsiyyətin fərqi açıq şəkildə ortaya çıxar.

## Cahillikdə evdar qadın xarakteri

Cahiliyyə cəmiyyətinin atalarından miras aldığı və dəqiqliklə tətbiq etdikləri xarakterlərin əvvəlində "evdar qadın xarakteri" gəlir. Bu xarakter demək olar ki, cəmiyyətin bütün üzvləri tərəfindən çox yaxşı bilinir və hansı mədəniyyətə daxil olursa olsun dünyanın dörd bir tərəfindəki qadınların böyük əksəriyyəti tərəfindən tətbiq olunur.

Bu xarakter demək olar ki, hər qız uşağının, uşaqlıq illərindən etibarən meyl etdiyi və bir gün mütləq yaşamaq istədiyi bir modeldir. Bu mövzuda onlara nümunə olan ən yaxın insan da analarıdır. Analarını və ətraflarındakı digər qadınları müşahidə etmələri nəticəsində, yetkin bir qadının necə bir şəxsiyyətə sahib olacağını, həyatını hansı ideallar əsasında quracağı, ya da günlərini necə keçirəcəyi mövzusunda uşaqların ağıllarında yavaş-yavaş bir model formalaşmağa başlayır. Yaxşı bir ailə həyatı qurmaq, gözəl bir ev sahibi olub, sağlam uşaqlar dünyaya gətirmək, bir tərəfdən qohum və yoldaş ziyarətləri, qadınlar arasında keçirilən çay yığıncaqları bir tərəfdən də uşaqların böyüdülməsi, alış-veriş, ev təmizliyi  və bənzər işlər bu modelin əsas xarakter quruluşunu meydana gətirər. Əlbəttə ki, bir insanın yaxşı bir ailə həyatına sahib olması bir gözəllik və nemətdir, möminlər də bu nemətə sahib olmaq istəyərlər. Ancaq burada səhv olan Allahın bildirdiyi əxlaqı və davranışı mənimsəmədən, böyük bir dünyəvi ehtirasla bunlara sahib olma arzusudur.

Dünyaya dair hələ də az bir şey bilən uşaqlar bütün bu cəhdlərin bir qadın üçün mümkün ola biləcək ən ideal həyatı meydana gətirdiyini zənn edərlər. Və heç bir sorğu suala tutmadan gələcəkdə mütləq bu həyatı yaşamağa qərar verirlər. Necə ki, bu qərarlarını həyata keçirirlər.

Bir insanın evi ilə maraqlanması, əlbəttə ki, pis ya da qınanılacaq bir davranış deyil. Ancaq insanın, bütün həyatını dörd divar içində yaşaması və ideallarının, zövqlərinin, vərdişlərinin, problemlərinin və dünyagörüşünün də yenə eyni dörd divar arasına sıxışması və həyatının Quranda bildirilən əsl məqsədini unutması səhvdir. Necə ki, bu kəslər yaşadıqları məkanla birlikdə düşüncələrini də məhdudlaşdırar və kiçik bir dünyada yaşamağa başlayarlar. Kiçik hədəfləri, kiçik məqsədləri, kiçik ümidləri, kiçik hesabları olur. Quranda təsvir edilən, Allaha qarşı qulluq vəzifəsini ən yaxşı şəkildə yerinə yetirən, Allahın razı qalacağı ümid olunan rəftar və davranışların mümkün qədər ən çoxunu tətbiq etməyi hədəfləyən, daima Allaha yönələn, axirət yurdunu xatırlayan möminlərdən tamamilə uzaq bir xarakterə sahib olurlar.

Cahil cəmiyyətdəki evdar qadın modelində, ən əhəmiyyətli mövzular: Özləri, ailələri, uşaqları və gələcək planlarıdır. Orta səviyyəli bir ailədə bu planlar kira pulunu ödəməkdən xilas olub ev sahibi olmaq, işıq və su pulunu ya da uşaqlarının məktəb xərclərini ödəyə bilmək, hətta bəlkə də bir gün bir avtomobil sahibi olmaq, ya da evin əşyalarını yeniləmək ola bilər. Ancaq daha yaxşı şərtlərdə yaşayan bir ev qadınının idealları da ən azı bunlar qədər məhduddur. Bu kəslərin planları da yenə eyni şəkildə evləri, ailələri, ya da uşaqları əsasında qurulmuşdur. Dostları arasında evinin gözəlliyiylə, uşaqlarının hansı kolleclərdə oxumalarıyla, ya da yoldaşlarının özlərinə aldığı avtomobillə göstəriş etmək, bu kəslərin həyatlarına məna verən ən əhəmiyyətli məsələlərdir. Təkrar ifadə etmək lazımdır ki, burada sayılanların hamısı, əlbəttə ki, lazımi işlərdir, ancaq cahil qadınların səhvi, sadalanan bu bir neçə kiçik zövqdən başqa yüksək bir ideal əldə etməmələridir. Yoxsa yaşadıqları bu həyatı yüksək bir ruh və böyük ideallar üzərinə qursalar, hətta eyni şərtlərdə olsalar belə bu xarakterdə sıxışıb qalmazlar. Bunun ən gözəl nümunələrini mömin qadınlarda görmək mümkündür.

Allaha iman edən bir insanın həm qadının, həm də kişinin dünyagörüşü geniş olub, idealları da böyükdür. Mömin xarakterini daşıyan bir qadın yalnız evinin, ailəsinin ya da qohumlarının deyil, bütün dünyanın məsuliyyətini boynuna götürmüşdür. Lazım gəldikdə o da dörd divar arasında otura bilər, ev işi görüb dost yığıncaqları təşkil edə bilər, amma düşüncələrini, hədəflərini və ya məsuliyyətlərini

əsla bu məkanla məhdudlaşdırmır. Sadə hədəflərin arxasınca qaçan kiçik bir insan olmağı qətiyyən özünə yaraşdırmaz və qəbul etməz. Oturduğu yerdən bütün dünyanın problemlərinə çıxış yolları axtarar, fikirlər inkişaf etdirər, kilidlənən nöqtələrin açılmasını təmin edər və ən əhəmiyyətlisi də bütün bunlardan davamlı nəticələr əldə edər.

Cəmiyyətin özü üçün təyin etdiyi modeldə ilişib qalan və bundan kənara çıxmağı hədəfləməyən cahil evdar qadın isə həyatını özü üçün çəkilən sərhədlər daxilində keçirər. Bunun ən əhəmiyyətli səbəblərindən biri dünyanın yaşanacaq tək yer olduğunu zənn etmesi, axirətin və Allaha hesab verəcəyi günün yaxınlaşmaqda olduğunu görməzlikdən gəlməsidir. Əlbəttə ki, ölümdən sonrasını düşünməyən bir insanın bütün həyatı da bu qısa dünya həyatına istiqamətli mənfəətlər əldə etmə səyi içində keçər. Və belə bir insan ətrafındakı kəslərin təyin etdiyi qaydaların kənarına çıxmadan yaşamağa çalışar. Allahın rizasını deyil, ətrafındakı yüzlərlə insanın rizasını axtarar. Məhz bunun nəticəsi də, cahilliyin ibtidai həyat tərzidir. Bu həyat tərzinin əsas prinsipləri isə müəyyən şeylərdən ibarətdir.

## Nə üçün evdar qadın olmağa etina edirlər?

Evdar qadın deyiləndə hər kəsin gözündə müəyyən bir insan tipi canlanır. Səhərlər erkəndən yuxudan oyanıb, ərini və uşağını yola salan, evi səliqə-sahmana salıb, təmizləyən, paltar yuyan, sonar da axşama hansı yeməyi bişirəcəyi düşünən və gününün çoxunu da mətbəxdə yemək bişirərək keçirən bir qadın. Məhz klassik olaraq hər kəsin evdar qadın dedikdə ağlına gələn xüsusiyyətlər bunlardır. Bir qadının bütün bunları etməsində heç bir qəbahət yoxdur, təbii olaraq bir çox mömin qadın da həyatının müəyyən vaxtlarında bu işləri görür. Ancaq eyni işləri görən mömin bir qadınla, cahil əxlaqı içində olan bir qadını fərqləndirən şey, bu işləri görərkən əxlaqları, düşüncələri və niyyətləridir. Mömin qadın əri və uşaqları üçün yemək bişirərkən də, evini təmizləyərkən də yalnız Allahın rizasına ümid edərək və Allahın rəhmətini istəyərək bunları edər. Və heç vaxt fikri, düşüncəsi, hadisələri qiymətləndirmə tərzi yalnız bu işlərlə məhdudlaşmış bir dünyadan ibarət deyil.

Bir çox insan üçün evdar bir qadından gözlənilən işlər, həm yorucu həm də darıxdırıcı işlərdir. Ancaq buna baxmayaraq cahil cəmiyyətlərdə yaşayan və işləyən qadınların çox böyük bir hissəsi bir gün eyni şərtlərdə ola bilməyin xəyallarını qurarlar. Yaxşı, bəs insana axirətdə fayda verməyəcək bu həyat tərzini bəzi kəslərə

bu cür cazibədar göstərən şey nədir? Yalnız ənənə olduğu üçünmü buna heyranlıq duyulur? Yoxsa həyatlarına həyatlarına bir yenilik gətirmək üçünmü?

Bu variantların hamısı doğru ola bilər. Ancaq bu həyatın cazibədar görülməsinin səbəbləri bunlarla da məhdudlaşmır. Bu səbəblər insanlara, şərtlərə görə dəyişərək, birlikdə əsasən çox insan üçün bir neçə ortaq başlıq altında cəmləşər.

Bunların ən əhəmiyyətlilərindən biri, gənc qızların bir çoxunun evliliklə birlikdə şəxsi azadlıq əldə edəcəklərinə inanmalarıdır. İllərlə ailələrinin nəzarətində və onların qoymuş olduğu qaydalar əsasında yaşayan gənclər bu vəziyyətin dəyişməsinin ən qısa və ən asan yolunun evlilik olduğunu düşünürlər. Bu səbəblə də çox vaxt münasib gördükləri ilk insanla evlənərlər. Yoxsa cahil qadınlar bir tərəfdən heyranlıq duymaqla yanaşı, digər tərəfdən də evliliyin gətirəcəyi çətin şərtlərin fərqindədirlər. Amma yalnız özlərinin söz sahibi olub, qoyduqları qaydalarla istədikləri kimi yaşayacaqları bir həyatın həsrəti bu çətinliklərə məhəl qoymamalarına səbəb olar. Ancaq evliliklə birlikdə qadınların boynuna daha əvvəl bəlkə də heç maraqlanmadıqları mövzularda həm maddi, həm də mənəvi baxımdan bir çox məsuliyyət yüklənir. Həmçinin daima öz qoyduqları qaydalarla yaşamaları, ya da azad hərəkət etmələri kimi bir vəziyyət də mümkün ola bilməz. Çünki cahillik sistemində əsasən evə hakim olan tərəf kişidir və qadının bütün həyatını öz qaydaları və öz inancları istiqamətində istiqamətləndirər. Bu səbəbdən də dəyişən elə də bir şey olmaz. Ailələrinin yerini artıq yoldaşları almışdır.

Bəzi kəslərin evdar qadın olmağa həvəslənməsinin altında yatan başqa bir əhəmiyyətli səbəb də evliliyin təmin edəcəyi düşünülən maddi imkanlardır. Xüsusilə də maddi vəziyyəti yaxşı olmayan bəzi ailələrin qızları üçün evlilik, həyatlarını gedişatını dəyişdirə bilmək üçün ən əhəmiyyətli fürsət kimi qiymətləndirilir. Belə ki, çox vaxt gənc qızlar ailələri tərəfindən "məntiq evliliyi" qurmaları mövzusunda xəbərdar olunur və buna təşviq edilirlər. Bu vəziyyətdə gənc qızın evlilikdə meyar qəbul etməsi lazım olan tək şey pul və zənginlik olar. Əxlaqından, rəftarından və ya xarakterindən xoşlandıqları bir insanla evlənməkdənsə, özlərinə yaxşı bir gələcək təmin edə biləcək, ya da heç olmasa ailələrinin içərisində olduğu şərtlərdən daha yaxşı bir həyat təqdim edə biləcək birini seçəcəklər. Bunun müqabilində onlar da lazım gəlsə həyatlarının sonuna qədər erkən qalxıb yemək bişirmək, paltar yumaq, ev təmizləmək kimi işləri görməyi gözə ala bilərlər.

Göründüyü kimi cahil qadınların əksəriyyətinin yaşdıqları çətinliklərə baxmayaraq, "evdar qadın" modelini seçmələrinin altında yatan əsl səbəblər bu cür mənfəətlərdir. Bu səhv zehniyətə sahib olan qadınlar, həm ailələrinin təzyiqindən xilas olacaq, həm həyat şəraitlərini yaxşılaşdıraraq özlərinə yaxşı bir gələcək təmin edə biləcək, həm də bu şəraitlərindən ötrü ailələrini və qohumlarını da xeyir verə biləcəklər. Ancaq ilk günlərdə üstün gələn bu mənfəətlərdən ötrü cazibədar görünən evdar qadınlıq, Allah rizası güdülmədən və qarşıdakı adamın əxlaqına əhəmiyyət verilmədən seçən bir əlaqə olmasından ötrü, bir müddət sonra öz yerini, sabit, çətin bir həyata və peşmançılığa verər.

## Cahillikdə evdar qadın şəxsiyyəti

Böyüdülmə tərzlərinə, yaşadıqları mühitə, əxlaq xüsusiyyətlərinə və sahib olduqları imkanlara görə fərqlənməklə yanaşı, yenə də cahillikdəki evdar qadınların xarakter quruluşlarını ümumi bir bənd altında toplamaq mümkündür.

Cahil qadınlar cəmiyyətin özlərinə təlqin etdiyi xarakterin təsiri altındadırlar. Uşaqlıqlarından etibarən bəlkə də minlərlə evdar qadın görmüş və onların bütün rəftarlarını və reaksiyalarını istər-istəməz şüuraltında saxlamışdırlar. Özləri eyni şəraitlə üz-üzə gəldiklərində isə, bu təcrübələrini fərqində olmadan həyata keçirir və bir mənada da şəxsiyyətlərinə istiqamət verməsinə izn verirlər. Bu səbəblə də cahil evdar qadın xarakterlərinin böyük əksəriyyəti ortaq bir xarakter göstərər. Hamısı da əvvəlki müşahidələrini və təcrübələrini həyatlarına tətbiq edərlər. Hətta universitetdə oxuyan, çoxlu aktiv dostları olan və klassik gənc qız xarakteri daşıyan bir adam belə evləndiyi gündən etibarən tam fərqli bir xarakterə bürünər. Belə ki, qısa bir müddət əvvəl olduqca aktiv, dünya görüşlü bir adam olduğu halda, birdən-birə "evinin qadını" olduğuna görə qürurlanaraq, köhnə dostları tərəfindən tanınmayacaq bir şəxsiyyətə bürünər.

Onlara bu şəxsiyyəti qazandıran əsl amil isə cahilliyin evlilik sistemindəki pozuqluqlardır. Bu, ev qadınlarının şəxsiyyətini nəzərdən keçirərkən nəzərə alınması lazım olan çox əhəmiyyətli bir mövzudur. Sonrakı səhifələrdə ətraflı şəkildə öyrənəcəyimiz bu şəxsiyyətin formalaşmasında, yaşanılan evliliyin bir "cahillik evliliyi" və qarşı tərəfin də yenə cahil cəmiyyətin bir üzvü olmasının böyük təsiri vardır.

Bütün bunların təsiriylə, ortaya cahil sistemin bütün səhvlərini üzərində daşıyan bir şəxsiyyət çıxar. Ancaq bunu da əlavə etmək lazımdır ki, cahil cəmiyyət bu səhvlərə əhəmiyyət verməz və bunları mənfi xarakter xüsusiyyətləri kimi qiymətləndirməz. Əksinə bunların bir çoxunun normal rəftarlar olduğunu düşünürlər. Çünki bu xarakterləri, bu kəslər üçün onsuz da yaşadıqları cəmiyyət seçir və öz münasib gördükləri modeli bəyənmələri və bunda heç bir yanlışlıq görməmələri də çox təbiidir.

## *Emosional olmaları*

Cahil qadınların normal hesab etdikləri xüsusiyyətlərdən biri də Quran əxlaqına tamamilə zidd olan emosianallıqdır. Emosionallığın qadını tamamlayan və hətta ona əhəmiyyətli dərəcədə yenilik qazandıran bir xarakter olduğuna inanarlar. Cahil cəmiyyətin qadından gözlədiyi xarakter də onsuz da bunu tələb edir. Onlara görə qadın həmişə sığınan, qorunan və zəif olan mövqedə olmalıdır. Bu səbəblə də bir qisim evdar qadınlar bu təlqinlərin də təsiriylə hər dəfə çətinliklə qarşılaşdıqlarında emosianal bir vəziyyətə düşməkdən heç çəkinməzlər. Bunu bir zəiflik olaraq görməz, əksinə bu şəkildə özlərinə şəfqət ediləcəyini və maraq göstəriləcəyini düşünərək emosionallığa daha da aludə olarlar. Onsuz da ətraflarındakı insanlar da, onları bu xarakterə yiyələnməyə təşviq edər. Cahil sistemdə emosionallaşan bir insana simpatiya duyulurmuş kimi davranılır və beləcə bu rəftarı tətbiq edən adam istədiyi nəticəyə çatmış olar.

Bununla yanaşı bəzi cahiliyyə qadınlarında müşahidə olunan daha şiddətli bir emosianallıq növü vardır ki, adamın bütün xarakterinə hakim olmuşdur. Yaşanılan narahat mühitdən və bununla yanaşı Allaha və taleyə təslim olunmamasından qaynaqlanan bu emosionallıq forması bəhsi keçən qadınların bütün həyatında öz əksini tapmışdır. Belə ki, emosionallıqdan yaranan dünyagörüşlərinə görə əsla sağlam düşünə bilməz, ağıllı qərarlar verə bilməz və məntiqli hərəkət edə bilməzlər. Hadisələrin həmişə mənfi cəhətlərini görər, həmişə əzildiklərini düşünər, hətta bu mövzuda təxəyyüllərində romantik ssenarilər quraraq bu sağlam olmayan ruh halına daha geniş həcmli bir zəmin hazırlayarlar. Evlilik əlaqəli xəyallarının gözlədikləri kimi reallaşmaması, ilk günlərdəki həyəcanlarını, sevgilərini və hörmətlərini itirdiklərininə görə xəyal qırıqlığı onları bu ruh halına yönəldər. Bunun nəticəsi olaraq da daima gözləri dolan, kədərlənən, bədbəxt bir xarakterə yiylənərlər. Məsələn, diqqətlə hazırladıqları yeməklər haqqında tək bir tərif belə gəlməməsi, yeni alınan bir paltarın

fərq edilməməsi, ya da istəklərinin yerinə yetirilməməsi dərhal emosionallaşmasına səbəb olar. Səhvən deyilən bir söz, bir zarafat, hətta çox vaxt tək bir söz belə ağıllarına ilişməsi və emosionallaşmaları üçün kifayətdir. Gün ərzində bu hadisəni unutmaz və zehinlərində daima bu mövzuya dair nəticələr çıxararlar. Halbuki çox vaxt ortada heç bir şey olmaz və hətta bəlkə də qarşı tərəf istifadə etdiyi bu sözün fərqində belə olmaz. Amma romantikliyi şəxsiyyətinin bir hissəsi olaraq mənimsəmiş olan cahil qadınların mühakiməsi, bunu görməyəcək dərəcədə zəifdir.

Bunun bir nəticəsi olaraq cahil qadınların həyatlarına hakim olan başqa bir xüsusiyyət də ağlamaqdır. Evdə baş verən hər cür hadisə onlar üçün bir kədər və ağlamaq vəsiləsidir. Ailədəki dolanışıqsızlıqları, uşaqların böyüdülməsində qarşılaşılan çətinliklər, romantik seriallar və bunlar kimi bir çox səbəb bu əxlaqın yaşanması üçün onlara uyğun bir zəmin yaradır. Xüsusilə də uşaqları böyüməyə başladıqca, yoldaşları tərəfindən ikinci plana atıldıqları təəssüratına qapılar və uşaqları hər dəfə qabağa salındıqda bir tərəfdən sevinir, bir tərəfdən də özlərindən ötrü *kədərlənərək* emosionallaşarlar. Hətta bu xarakterdəki insanlar romantik olma mövzusunda o qədər təkidlidirlər ki, olduqları mühitdə kədərləndirici bir şey olmasa belə ağlayacaq, kədərlənəcək bir mövzu tapa bilərlər. Məsələn televiziyada seyr etdiyi bir serialda rolunun tələbinə görə ölən bir insanın arxasından dəqiqələrlə gözyaşı tökə bilərlər və ya 10 il əvvəl yoldaşlarıyla dinlədikləri bir musiqini eşitdiklərində qəfildən duyğulanıb ağlamaya başlaya bilərlər. Bu nümunələri çoxaltmaq mümkündür.

Yaşadıqları bu əxlaq cahil qadınların çox qısa müddət ruhi və fiziki cəhətdən çökmələrinə səbəb olar. Əlbəttə ki, bu, Quran əxlaqı yerinə cahiliyyə həyatını seçmələrindən ötrü yaşadıqları çətinliyin nəticələrindən biridir. Allah Quranda insanların ancaq Özünü zikr etdikləri, Ona təslim olduqları, axirətə hazırlıq gördükləri müddətcə dünyada gözəl bir həyat yaşaya biləcəklərini və qəlbən rahatlıq tapa biləcəklərini xəbər vermişdir. Ancaq burada təsvir etdiyimiz xarakterdəki insanlar özlərini yaradan sonsuz güc sahibi Allahı unutmuş və bundan ötrü də böyük bir sıxıntı içinə düşmüşdürlər.

### *Küsəyən olmaları*

Cahillikdəki evdar qadın xarakterinin diqqətə çarpan xüsusiyyətlərindən biri də küsəyənlikdir. Bu kəslər şüur altlarında bir çox qorxuyla yaşayarlar. Əsas qorxuları ikinci plana atılmaq, tərk edilmək, aldadılmaqdır. Cahillik sisteminin çürük bir təmələ əsaslandığını bildiklərindən ötrü hər an bir vəfasızlıq ilə qarşılaşa biləcəklərini

düşünürlər. Məhz bu səbəblə də qarşılaşdıqları hər hadisəni, eşitdikləri hər sözü bu psixologiya ilə qiymətləndirərlər.

Məsələn, evlilik ildönümü, ad günü və s. kimi əhəmiyyətli bir günün, yoldaşları, ya da uşaqları tərəfindən unudulmuş olması cahil qadınların küsəyənlikləri və kaprizli rəftarları üçün çox münasib bir zəmin yaradır. Adi bir unutqanlıq hadisəsi olsa belə, bu hadisənin altından məna çıxarmağa çalışır və artıq sevilmədiklərini, özlərinə əhəmiyyət verilmədiyini, ya da ikinci plana atıldıqlarını düşünərək küsəyənlik hissinə qapılarlar. Bu ruh halları çox vaxt böyük mübahisələrə və gərgin mühitlərin yaranmasına səbəb olar.

Mömin bir qadının xarakterində isə, belə bir əxlaq pozuqluğu yoxdur. O hər şeydən əvvəl Allahın əmrindən ötrü nə insanlar, nə də hadisələr haqqında bir zənnə qapılmaz. Ortada tam aydın olmayan bir söz və ya bir rəftar varsa bunu mütləq dəqiqləşdirər, qarşı tərəfin məqsədini və niyyətini öyrənər və bu istiqamətdə açıq bir şəkildə öz rəftarını bildirər. Amma heç vaxt nə olduğunu tam başa düşə bilmədiyi bir mövzu və ya bir söz haqqında zənnə qapılaraq buna əsaslanan küsəyən bir davranış göstərməz. Küsəyənliyin Quran əxlaqına uyğun olmadığını bilir. Bununla yanaşı mömin bir qadının evliliyi və ya dostluqları da yenə möminlərlə olduğu üçün onsuz da belə şeylərə səbəb ola biləcək çətin bir vəziyyət də meydana gəlməz. Çünki mömin xarakteri sözlərin açıq və doğru danışılmasını tələb edir. Allah möminlərə, eyhamlı bir sözdən, ya da cahil əxlaqında olduğu kimi "söz atma" kimi pis bir əxlaqa yiyələnməyi qadağan etmişdir. Göründüyü kimi mömin qadın Qurana tabe olduğundan ötrü belə bir əxlaq pozuqluğunun təsirinə məruz qalmayan olduqca dinc və etibarlı bir həyat yaşayar.

## *Hər şeydən şikayət etmələri*

Cahil qadınlar yaşadıqları sistemin və Quran əxlaqından uzaq olan xarakterlərinin yaratdığı narahatlığı danışıqlarıyla da tez-tez dilə gətirərlər. Cahil kişilər tərəfindən də gündəmə gətirilən bu xarakter, ilk növbədə qadınların özləri olmaqla, ətraflarındakı hər kəsə böyük bir sıxıntı verər. Bu rəftarı hər şeydən əvvəl evdar qadınlığın bir tələbi olaraq mənimsəyiblər. Onlara görə gün boyu yemək bişirib, ev təmizləyib və bəlkə də bütün gəncliyini, enerjisini bu yolda fəda edən bir qadın üçün "deyinməkdən" daha adi bir şey yoxdur. Hətta özlərinə görə bu, onların ən təbii haqqıdır və ətrafları tərəfindən də anlayışla qarşılanmalıdır. Onlara görə,

yaşadıqları evlilik həyatının dəyişməzliyini, həyatın çətinliklərini, yorğunluqlarını ən çox dadan özləridir. Yenə öz düşüncələrinə görə, evli olduqları kəslər bu həyatın daha çox maddi öhdəliklərini öz boyunlarına götürmüşdürlər. Bu səbəbdən də özləri deyinməyə, şikayət etməyə və narazı olmağa daha çox haqq sahibidirlər. Bu səbəblə də bəzi kişilər də, özləri narahat olmaqla yanaşı, yoldaşlarının da ancaq bu şəkildə sakitləşə biləcəklərini və çətinliklərindən ancaq bu şəkildə uzaqlaşa biləcəklərini düşündükləri üçün bu xarakteri bir dərəcəyə qədər qəbul edərlər. Ancaq bunu ifadə etmək lazımdır ki, bu insanlar belə bir həyatı özləri bilərək və istəyərək seçiblər. Amma yenə də öz tələbləriylə seçdikləri bu həyatın hər anında şikayətlənməkdən imtina etməzlər.

Ev qadınlarında çox sıx rast gəlinən və artıq təbii bir haqq olaraq görülən bu şikayət vərdişi gündəlik həyatın hər anında özünü büruzə verər. Kiçik-böyük hər şeydən şikayətlənmək elə bir vərdiş halına gəlir ki, artıq evdə tək başına olduqlarında belə öz özlərinə deyinirlər. Bir tərəfdən tərs və sərt hərəkətlərlə evi səliqə-sahmana salar, bir tərəfdən də kimin əşyaları dağınıqdırsa ona narazılıq dolu sözlər deyərlər. Hətta o anda qarşılarına çıxan ilk adama mövzuyla heç bir əlaqəsi olmadığı halda şikayətlənməyə başlayırlar.

Bu deyinmə vərdişləri, mübahisəçi bir xarakteri də özü ilə gətirər. Kiçik bir mövzunu belə dərhal böyüdər və böyük mübahisələrin yaranmasına səbəb olarlar. Deyişməyə və iddialaşmaya çox açıqdırlar. Hər sözü tərs başa düşər və tərs cavablar verərlər. Bu kəslər ruhlarında yaşadıqları bu narazılıq, tündxasiyyətlik və gərginlikdən ötrü bir çox narahatlığa tutularlar. Baş ağrısı, mədə ağrısı, yuxu pozuqluqları və qısa müddətdə baş verən yaşlanma əlamətləri bunların ən geniş yayılmışlarıdır. Bütün bunlar yaşadıqları sistemin yanlışlığından qaynaqlanır. İman zəifliyinin və təvəkkülsüzlüyün yaratdığı bu ruh halından və çətinliklərdən xilas olmağın isə tək bir yolu vardır: Quran əxlaqına təslim olmaq və Allahın bəyəndiyi şəkildə bir həyat yaşamaq. Yoxsa bundan başqa hansı yol sınanılarsa sınansın çıxış yolu tapılmaz.

Bu pis əxlaqı yaşayan qadınlar isə çox vaxt həlli, həkimlərə gedərək, hər yeni çıxan dərmanı sınayaraq, psixoloji müalicə alaraq və bəzən də boşanaraq bu həyatdan tamamilə uzaqlaşmaqda görərlər. Amma bunların heç biri yaşadıqları bədbəxt həyat üçün doğru bir həll deyil. Quran əxlaqını yaşamadıqları və Allaha səmimi bir qəlblə bağlanmadıqları müddətcə, şikayətləndikləri mövzular, şikayətləndikləri insanlar, ya da yaşadıqları məkan dəyişsə də yaşadıqları çətinliklərdə heç bir dəyişiklik olmaz.

Cahil qadınların bir çoxunda müşahidə olunan bütün bu əxlaq pozuqluqlarına qarşılıq mömin qadının rəftarı müsbət və yaradıcıdır. Məsələn "deyinmə" kimi bir vərdişin sadə bir rəftar olduğunu bilir. Görünüşcə səhv gedən bir şey varsa belə, bunların Allah qatında bir hikmətlə yaradıldığını unutmaz. Bu səbəblə də hər nə ilə qarşılaşırsa qarşılaşsın narazı olmaq, sıxılmaq və ya narahat olmaq üçün bir səbəb görməz. Ən sıxıntılı olduğu anlarda belə ətrafına qarşı mütləq tolerant, bağışlayıcı və mehriban bir xarakter sərgiləyər. Tənqid olunması lazım olan bir şey varsa belə bunun ancaq Quranın əmrinə uyğun olaraq "gözəl söz" ilə edilə biləcəyini və bu şəkildə xeyli müsbət nəticələr əldə edilə biləcəyini bilir. Ayələrdə möminin göstərməli olduğu bu rəftar belə bildirilmişdir:

**Sən bağışlama (və ya asanlıq) yolunu tut, (İslama) uyğun olanı (ənənəni) əmr et və cahillərdən üz döndər. (Əraf surəsi, 199)**

**Allahın necə məsəl çəkdiyini görmürsənmi? Gözəl söz (lə ilahə illəllah) kökü yerdə möhkəm olan, budaqları isə göyə yüksələn gözəl bir ağac kimidir. (İbrahim surəsi, 24)**

**Qullarıma de ki, ən gözəl sözləri danışsınlar. Çünki şeytan onların arasına ədavət sala bilər. Həqiqətən, şeytan insanın açıq-aydın düşmənidir. (İsra surəsi, 53)**

### *Qısqanc və şübhəçi olmaları*

Cahil əxlaqında qısqanclığın özünəməxsus bir yeri vardır. Ancaq əvvəlcə bunu ifadə etmək lazımdır ki, bu xüsusiyyət cahil cəmiyyətlərdə müsbət bir xüsusiyyət kimi qəbul edilir. Qısqanclığı bir sevgi və bağlılıq əlaməti kimi göstərməyə çalışırlar. Əgər bir insan sevdiyi insanı qısqanmırsa, onlara görə bu həqiqi bir sevgi deyil. Bu səhv anlayışa görə insanın qarşı tərəfin göstərdiyi sevgiyə qane ola bilməsi üçün, qarşıdakı adam bütün insanlar içində yalnız özünə sevməlidir.

Halbuki bu düşüncə olduqca səhvdir. Çünki hər şeydən əvvəl sevgi çox yüksək bir duyğu və üstün bir əxlaq xüsusiyyətidir. İnsanın sevgidə qısqanclıq etməsi Quran əxlaqına uyğun olmaz. İnsan sevdiyi bir adama sevgisini, ona duyduğu sədaqət,

bağlılıq, şəfqət və ona yönəltdiyi gözəl söz və rəftarlar ilə göstərər. Bu da qarşı tərəfdə sevildiyinə dair qəti bir qənaət meydana gətirər. Bundan başqa insanın özündən başqa heç kimin sevilməsini istəməməsi isə böyük bir eqoizm nümunəsidir.

Cahil cəmiyyətlərdə xüsusilə də ailə həyatında qısqanclıqdan ötrü böyük problemlər yaşanır. Evli olduqları kəslərin analarına, atalarına, bacılarına, yoldaşlarına və hətta uşaqlarına duyduqları sevgi belə bu xarakteri yaşayan insanlar üçün əhəmiyyətli bir narahatlıq qaynağıdır. Belə kəslər heç kimin özlərindən çox və ya özləri kimi sevgi sevilməsini istəməzlər.

Evdar qadın xarakterində sıx olaraq yaşanan bu qısqanclığın ikinci bir növü də cahillikdəki evlilik sisteminin yanlışlığını bilmələrindən qaynaqlanır. Çünki təməli Allah rizasına, qorxusuna və sevgisinə əsaslanmayan heç bir birlikdə həqiqi sevgi və sədaqət yaşana bilməz. Cahil qadınlar da bu əhəmiyyətli həqiqəti bildiklərindən ötrü hər an aldadılmaq, ikinci plana atılmaq, ya da unudulmaq qorxusuyla yaşayarlar. Bu səbəblə də şübhəli gördükləri hər hadisədən narahat olur və qısqanclıq hissinə qapılarlar.

Buna çıxış yolu olaraq göstərdikləri rəftarlar isə vəziyyəti yaxşılaşdırmaq əvəzinə daha çox çıxılmaz bir hala salır. Səbəbsiz kaprizlər, küsmə və xoşagəlməz hərəkətlərlə qarşı tərəfə mesaj verməyə çalışırlar. Hər an mənasız bir hadisədən çox məntiqsiz əlaqələr qura bilər və bunlar haqqında yaratdıqları xəyali ssenarilərə əsaslanaraq kəskin qərarlar verə bilərlər. Bütün bu rəftarlar isə həyatlarını daha da çətinliklərlə dolu bir hala gətirməkdən başqa bir fayda verməz. Həmçinin istədiklərinin tam əksinə qarşı tərəfi özlərindən daha da uzaqlaşdırmış olarlar. Çünki nə vaxt hansı hadisədən nə kimi nəticə çıxaracağı bilinməyən bir insanla yaşamaq olduqca narahatlıq vericidir. Bu səbəblə də cahil əxlaqdakı evdar qadınların qısqanclıq halları, adətən boşanmayla nəticələnir. Halbuki bütün bunların həlli çox asandır. Quranda hər insanın nəfsində qısqanclıq hisləri olduğu, amma məqbul olanın bu hisdən təmizlənmək olduğu bildirilmişdir:

**...Nəfslər isə 'qısqanclığa və eqoist ehtiraslara' hazır (əlverişli) dır. Əgər yaxşılıq etsəniz və çəkinsəniz, Şübhəsiz ki, Allah, etdiklərinizdən xəbərdardır. (Nisa surəsi, 128)**

Bu səbəblə də Quran əxlaqını dəqiqliklə tətbiq edən mömin üçün qısqanclıq kimi bir vəziyyət mümkün ola bilməz. Allah qorxusundan qaynaqlanan qarşılıqlı sədaqət və güvən hissləri belə bir gərginliyin yaranmasına qabaqcadan mane olar.

### Evdar qadınların vərdişləri

Cahil cəmiyyətlərdə "evdar qadın" deyildiyi vaxt hər kəsin ağlında konkret və tək bir model canlanır. Bunun səbəbi isə bu xarakteri meydana gətirən sistemin bir mənada ənənəviləşməsidir. Əlbəttə ki, müxtəlif səbəblərdən ötrü bu ümumiləşdirmədən kənarda qalan evdar qadınlar da vardır. Ancaq burada müzakirə olunan cahil əxlaqında geniş şəkildə yaşanan evdar qadın modelidir.

Cahil cəmiyyətlərdə evdar qadının klassik olaraq hər gün yaşadığı olduqca dəyişməz bir həyatı vardır. Ümumiyyətlə evdar qadının hər günkü əsl vəzifəsi, ailənin digər üzvlərinin otaqlarını səliqə-sahmana salmaq, paltarlarını yumaq, yemək hazırlamaq, alver etmək və evin digər təmizlik ehtiyaclarını aradan qaldırmaqdadan ibarətdir. Əlbəttə ki, hər insanın bu işləri görməsi lazımi və hətta zəruridir. Ancaq burada səhv olan məqam, insanların bu işləri dünyada yaşanan bütün problemləri görməzlikdən gələrək, axirəti tamamilə unudaraq və Allaha qarşı məsuliyyətlərini düşünməyərək, dünyaya olan bir ehtiras içində görmələridir. Və bütün həyatlarını, düşüncələrini, planlarını bu işlər üstündə qurmaları və özlərini yaradan Allahı razı salmağın yollarını axtarmaq əvəzinə, gündəlik həyatın kiçik məşğuliyyətləriylə özlərini qane etməyə çalışırlar.

Gündəlik işləri arasında cahil evdar qadının əsla güzəştə getmədiyi bəzi vərdişləri də vardır. Bu vərdişlər adətən bu əxlaqdakı qadınların əksəriyyətində eynidir. Özlərinə görə dəyişməz həyatlarına ancaq bu şəkildə yenilik qazandırdıqlarını və ev mühitinin problemlərindən bu şəkildə uzaqlaşdıqlarını düşünərlər. Əllərinə keçən hər imkanı, hər boş vaxtlarını bu vərdişlərinə sərf edərlər. Halbuki ətraflı araşdırıldığında bütün bu vərdişlərin bu kəsləri çox adi və sadə bir dünyaya çəkdiyi görünər. Bu vərdişlər arasında ən geniş yayılanlar bunlardır:

#### *Dedi-qodu etmək*

Cahil cəmiyyətdə yaşanan evdar qadın xarakterində ən geniş olaraq müşahidə olunan xüsusiyyətlərdən biri "dedi-qodu"dur. Vaxtları, ya da imkanları olmasa belə

bir qədər də olsa dedi-qodu edə bilmək üçün mütləq bir fürsət taparlar. Bəzən qapı ağzında qonşularla, bəzən saatlarla davam edən telefon söhbətlərində, bəzən də çay, ya da qəhvə ziyarətlərində bu mənzərəni görmək mümkündür. Ancaq burada əsl əhəmiyyətli olan bu əxlaqı yaşayan insanların dedi-qodudan böyük bir zövq almalarıdır. Çünki dedi-qodu əsnasında müzakirə mövzusu olan adam alçaldılıb təhqir edilərkən dedi-qodunu edənlər özlərini böyük göstərməyə çalışırlar. Bu səbəblə də dost yığıncaqlarında danışılası bir çox faydalı və ya zövqlü mövzular olduğu halda, onlar israrla dönüb dolaşıb söhbəti bəzilərinin qeybətini qırmağa gətirirlər. Qonşuları, dostları, qohumları, yoldaşları, televiziya ulduzları və hətta yoldan keçən əcnəbi biri belə bu dedi-qodulara söhbət mövzusu ola bilər.

Halbuki bəhs edilən adamın eşitdiyində xoşlanmayacağı heç bir söhbəti arxasından etmək doğru deyil. Əgər həqiqətən tənqid olunması lazım olan bir mövzu varsa və fayda vermək məqsədiylə danışılırsa, ediləcək ən doğru şey bu vəziyyəti əlaqədar adama bildirməkdir. Yoxsa hər kəslə vəziyyət qiymətləndirməsi üçün qınanan adamın vəziyyətdən xəbərdar edilməməsinin altında yaxşı bir niyyət və ağıllı bir məqsəd yatdığı deyilə bilməz. Üstəlik dedi-qodu edən bu insanlar, eyni şeyin özləri üçün də mütləq ediləcəyini, bunun cahilliyin qəti bir qaydası olduğunu bilirlər. Amma bundan heç xoşlanmazlar. Başqa insanların özləri haqqında danışdığını eşitdiklərində böyük bir narahatlıq yaşayarlar. Amma özləri üçün olduqca həssaslıq göstərərkən, başqalarının incidilməsinə əhəmiyyət vermədən belə çirkin bir rəftara müraciət edə bilərlər.

Halbuki Allah insanlara qeybət etməyi qadağan etmişdir. Allah bunun gözəl bir əxlaq olmadığını ayələrində bildirmiş və əgər ortada səhv bir şey varsa bunun ayələrin ifadəsiylə "yaxşılığı əmr edib, pislikdən çəkindirərək" insanların özlərinə bildirilməsini əmr etmişdir:

**Ey iman gətirənlər! Zənnə çox qapılmayın. Çünki zənn edilənlərin bir qismi günahdır. Bir-birinizi güdməyin, bir-birinizin qeybətini qırmayın. Sizdən biriniz ölmüş qardaşının ətini yemək istəyərmi? Siz ki, bundan iyrənirsiniz. Allahdan qorxun! Həqiqətən, Allah tövbələri qəbul edəndir, Rəhmlidir. (Hucurat surəsi, 12)**

Məhz Quranın bu əmrinə tabe olan möminlər əsla bir-birlərinin arxasından danışıb bir-birlərininin arxasından danışmazlar. Həqiqi sevginin və dostluğun ən

əhəmiyyətli əlamətlərindən birinin qarşılarındakı adama dünyada və axirətdə fayda verəcək şəkildə davranmaq olduğunu bilirlər. Bu vəziyyətdə də əgər səhv bir rəftar görərlərsə tezliklə səhvini başa düşməsi və imtina etməsi üçün bunu əlaqədar adama bildirərlər. Həqiqi bir dostluq və sədaqət anlayışı da bunu tələb edir. Amma cahil cəmiyyətdə ailə həyatı kimi ən yaxın bilinən münasibətlərin belə möhkəm bir təməl üstündə qurulmadığı, qarşılıqlı sevgi və hörmətə əsaslanmadığı üçün, ortaya çıxan bu pis model olduqca yayılmışdır.

### *Dost məclisləri*

Cahil cəmiyyətlərdə evdar qadınların imtina edə bilmədikləri ən böyük vərdişlərdən biri də öz aralarında "gün" adını verdikləri, yalnız qadınların bir yerə yığışdıqları yemək verilən yığıncaqlardır. Əlbəttə ki, bir insanın sevdiyi dostlarıyla, yoldaşlarıyla bir yerə yığışması, bu kəslərin bir-birlərinə hörmət etmələri gözəl bir nemətdir. Ancaq bu yığıncaqların sevgi və hörmətin ifadə ediləcəyi, dostluqların möhkəmlənəcəyi, Allahın adının xatırlanacağı gözəl əxlaqa əsaslanan fəaliyyətlər olması olduqca əhəmiyyətlidir. Ancaq cahil cəmiyyətdə adətən bu yığıncaqlar tam əksinə bir əxlaqın yaşandığı mühitlər olur. Adətən belə bir yığıncaqda cahil əxlaqdakı qadınların bişirdikləri keks haqqında aldıqları bir tərif onların xoşbəxt olması üçün kifayət etdiyi halda, yenə eyni şəkildə ərləri izn vermədiyi üçün bu yığıncaqlardan birində iştirak edə bilməmək də bəlkə həftələrlə davam edən bir narahatlıq və bədbəxtliyə səbəb olar. Bu, bəhsi keçən mövzuda insanların nə qədər məhdud və kiçik bir dünyada yaşadıqlarını görmək baxımından diqqət çəkicidir. Çünki bu cür yığıncaqlarda danışılanlar, edilənlər adətən bu kəslərin axirətlərinə bir fayda təmin etməkdən uzaqdır. Bu cür yığıncaqlar çox vaxt bu insanları dünyaya bağlamaq istiqamətlidir. Axirəti, hər şeyin yaradıcısı olan Allahın ucalığını, Quranda əmr edilən gözəl əxlaqı yaşamağı xatırlatmaq əvəzinə boş mövzular müzakirə olunar, lazımsız hadisələr tənqid olunar. Bu kimi kəslər bir-birlərinin Qurana görə gözəl cəhətlərinə əhəmiyyət verməz, əksinə bir-birlərini daima dünyəvi və səmimiyyətdən uzaq şəkildə tərifləyərlər və bu təriflər çox vaxt həqiqi düşüncələrini əks etdirməz. Qarşılarındakı insanları Quran əxlaqını nə dərəcədə yaşadıqları baxımından qiymətləndirməz.

Dedi-qodu etmək, televiziyalarda verilən romantik serialların ən axırında baş verənlər ya da keks-tort reseptləri bu yığıncaqlarda danışılan ən mühüm mövzulardır. Halbuki eyni yığıncaq, eyni mühit Allahdan qorxan və axirətə hazırlıq

görən insanlar üçün yaradılmış olsa, şübhəsiz ki, burada edilən söhbətlərdən kəslərin həm özlərini inkişaf etdirməsi, həm də başqalarına xeyir verə biləcəkləri çox gözəl nəticələr çıxar. Çünki Quranda möminlərin boş sözlərdən və boş işlərdən üz çevirmələri və hər anlarını faydalı işlərlə, faydalı düşüncələrlə keçirmələri əmr edilmişdir. Ayələrdə bu mövzu belə bildirilir:

**Onlar, tamamilə boş şeylərdən üz çevirənlərdir. (Muminun surəsi, 3)**

**Onlar yalandan şahidlik etməz, lağlağı məclisinə rast gəldikdə oradan ləyaqətlə ötüb keçərlər.. (Furqan surəsi, 72)**

**Onlar lağlağı eşitdikləri zaman ondan üz çevirib: "Bizim əməllərimiz bizə, sizin əməlləriniz də sizə aiddir. Sizə salam olsun! Biz cahillərə qoşulmaq istəmirik!" - deyirlər. (Qəsəs surəsi, 55)**

### *Televizorla boş vaxt keçirmək*

Cahil cəmiyyətdə evdar qadınların həyatlarının böyük bir hissəsi televiziya qabağında keçir. Ancaq, əlbəttə ki, bu yalnız qadınlara xas bir vərdiş deyil. Eyni şəkildə ərlərinin və uşaqlarının da qoşulduğu bu saatlar, cahil cəmiyyətin ən xüsusi zövqlərindən və ən əhəmiyyətli məşğuliyyətlərindəndir. Nə izlədikləri isə çox vaxt o qədər də əhəmiyyətli deyil. Əsl əhəmiyyətli olan əylənmək və yaşadıqları çətinliklərlə dolu mühitdən öz aləmlərində bir az olsun uzaqlaşa bilməkdir. Gün boyu hər nə iş görürlərsə görsünlər həmişə televizorları açıq vəziyyətdə olar. Lakin xüsusilə də "romantik seriallar" adı verilən gündəlik seriallar başladığı vaxt az qala televiziya ekranına "bağlanarlar". Bu seriallarda yaşanan romantizm onlara ayrı bir ləzzət verir. Bu səbəblə də bütün gündəlik proqramlarını bu serialların saatlarına görə tənzimləyir və bir yerə getmələri lazım olduğunda belə bir yolla serialın video kasetə yazılmasını təmin edərlər. Əgər belə bir imkanları yoxdursa, bu vəziyyətdə də işləri qurtaran kimi bir qonşudan və ya yaxınlarından böyük bir həyəcanla serialdakı son hadisələri öyrənərlər.

Özlərinə bu romantik serialların əvəzinə dünyagörüşlərinin inkişafına xidmət edən, daha keyfiyyətli filmlər, mədəni və ya bədii məzmunlu proqramlar, iman həqiqətlərinin izah olunduğu sənədli filmlər təklif edisə belə cahil qadınlar yenə də

bu seriallardan imtina etmək istəməzlər. Çünki onların dünya görüşlərini, həyatlarını və zövqlərini ən yaxşı əks etdirən proqramlar bu seriallardır.

Televizora baxmaq, əlbəttə ki, pis bir şey deyil. İnsan bu şəkildə vaxtını çox gözəl və faydalı şəkildə də keçirə bilər. Amma Allahın açıq-aşkar varlığını və axirəti unutmaq, bütün vaxtı televizor qabağında keçirmək və daha əhəmiyyətli və ya daha faydalı bir iş olduğunda belə yenə də bu vərdişdən imtina edə bilməmək səhv bir davranışdır. Bu insanlar bir çox gözəl iş görə biləcəkləri halda, məqsədsizlikləri və özlərinə yalnız "evdar qadın" şəxsiyyətini yaraşdırmış olmalarından ötrü belə bir imkanı qiymətləndirməz və bundan bir narahatlıq duymazlar.

### *Lazımsız telefon söhbətləri*

Cahil cəmiyyətdəki qadınlar günün müəyyən vaxtını telefonla danışmaqla keçirirlər. Gündəlik xəbərləri öyrənmək və son dedi-qoduları çatdırmaq üçün bircə-bircə dostlarının hamısına zəng vurarlar. Ailə daxilində baş verən son hadisələri, ərləriylə aralarında baş verən mübahisələri, nələr aldıqlarını, evə hansı qonağın gəldiyini, nələr danışdıqlarını tək-tək izah edərlər. Bu telefon söhbətlərinin bir qismi saatlarla davam edər, amma söhbətlərinin əksəriyyəti hikmətsizdir.

Bunun müqabilində möminlər hər cür boş işdən və boş söhbətdən çəkinirlər. Əsla hikmətsiz söhbətlərə qoşulmazlar. Lazım gəlsə onlar da uzun müddət telefonda danışarlar. Ancaq danışdıqları mövzu mütləq əhəmiyyətli və faydalı bir mövzudur. Belə bir ehtiyac olmasa da, yalnız vərdiş etdiklərindən ötrü vaxtlarını telefonla danışmaqla keçirməzlər, bunun əvəzinə xeyli faydalı işlər görərlər.

### *Modabaz qadın xarakteri*

Cahillik əxlaqının yaşandığı cəmiyyətlərdə kübar cəmiyyət olaraq xatırlanan qrup daxilində yaranan qadın xarakterinin, "evdar qadın xarakteri"ndən təməldə elə də bir fərqi yoxdur. Xarakter xüsusiyyətləri və vərdişləri bir-birinə çox bənzəyir. Ancaq kübar cəmiyyət mühitindəki şərtlərin və imkanların orta səviyyəli bir evdar qadından daha fərqli olması, özü ilə bərabər fərqli vərdişlər də gətirir.

Bu kəslər yaşadıqları ətraf mühitlə ayaqlaşmaq narahatlığına qapılmışlar. Bu səbəblə də öz istəklərinə, zövqlərinə ya da vərdişlərinə deyil, daha çox ətraflarındakı insanların, yəni varlı cəmiyyətin onlardan gözlədiklərinə görə hərəkət edirlər. Varlı

cəmiyyətin böyük bir hissəsinin onlardan gözlədikləri isə pul və özünü göstərmək üzərinə qurulmuşdur. Bu səbəblə də bu həyat tərzini mənimsəyən qadınlar günlərini əvvəlcə cəmiyyətdə, o günlərdə dəbdə olan fəaliyyətlərin gedişatını izləmək və mümkün qədər bu həyatla ayaqlaşmağa çalışaraq keçirirlər. Məsələn, hər kəsin getdiyi istirahət yerlərinə getmək, keyfiyyətli dərzilərə paltar tikdirmək, kübar cəmiyyətin qadın bərbərlərində, ya da solarium mərkəzlərində dedi-qodu etmək, lüks restoranlarda görüşüb nahar yeməyi yemək, bahalı mağazalardan, ya da xarici ölkələrdən nə isə almaq, ən əhəmiyyətlisi də bütün bunlarla bir-birlərinə göstəriş etmək, kübar cəmiyyət qadınlarının böyük bir qisminin dünyasını yekunlaşdırmaq üçün kifayətdir.

Kənardan baxıldığında çox gözəl bir həyatları varmış kimi görünsə də, əslində onların həyatı da ən azı bəzi evdar qadınlarınkı qədər dəyişməz və çətinliklərlə doludur. Hər gün günortaya qədər yatdıqdan sonra gündəlik qəzetlərin maqazin səhifələrinə və kübar cəmiyyət xəbərlərinin yer aldığı maqazin jurnallarına bir göz gəzdirir və sonra da gündəlik proqramlarını yerinə yetirməyə başlayırlar. Gün ərzində axşam gedəcəkləri dəvətdə nə geyinəcəklərinin hazırlığını görər, bərbərə gedər sonra da gecə gec saatlara qədər bu dəvətlərdə vaxt keçirərlər. Burada keçirdikləri vaxt da, süni olaraq göstərdikləri maraqla, süni gülüşlərlə, bir-birlərinə göstəriş etməklə keçən çətinlik və əzab dolu bir vaxtdır. Ertəsi gün isə gecə həyatının verdiyi yorğunluq və fiziki düşkünlükdən ötrü adətən görülən pis bir yuxudan sonra baş ağrısıyla oyanırlar.

Onların gündəlik həyatlarında, evdar qadınların etməli olduğu ev təmizliyi, uşaq baxımı kimi mövzular daha az yer tutur. Ümumiyyətlə bu cür məsuliyyətləri evlərində işləyən xidmətçilərin öhdəsinə buraxar, özləri bu cür işlərə əhəmiyyət verməzlər. Ancaq boyunlarına heç bir məsuliyyət götürməmələri, yaşadıqları məsuliyyətsiz xarakterin daha da güclənməsinə səbəb olar. Həyatlarında əldə etmək istədikləri hər şeyin qarşılarına hazır olaraq gəlməsi, uşaqlarının, evlərinin başqaları tərəfindən idarə olunması və özlərindən "modabaz" olmalarından başqa bir şey gözlənilməməsi onları çox qısa bir müddət ərzində narazılıqlara və böyük bir boşluğa aparar. Əldə etmək istədikləri bir şeyə sahib olan kimi, bu mövzudakı istəklərini və şövqlərini itirərlər. Bundan sonar da dərhal yeni bir şeyə aludə olar, onun arxasınca qaçmağa başlayarlar. Maddi mənada istədikləri bir çox şeyə sahib olarlar, ancaq heç vaxt mənəvi cəhətdən dinc ola bilməzlər. Nə ailə həyatlarında, nə də dostluqlarında sədaqət, etibarlılıq, sevgi, hörmət kimi xüsusiyyətləri tapa bilməzlər.

Göründüyü kimi həlli bu xarakterdə axtaran kəslər də əslində yenə narazılıq və narahatlıq içərisindədirlər. Dünya həyatının bütün imkanlarından istifadə etdikləri halda xoşbəxt ola bilməzlər. Varlı insanların müəyyən bir qismində yaşanan degenerasiyanın təsiri bütün həyatlarına öz əksini tapar. Belə bir həyatda adətən yalançılıq, saxtakarlıq, sadəlik kimi hər cür əxlaqsızlıq olduqca normal qarşılanar. Bu pis əxlaqı yaşayan insanların əxlaq pozuqluqları dönüb özlərinə zərər verəcək hala gələr. Özləri dedi-qodu edərlər, amma başqaları da onların arxasınca danışar. Şəxsi həyatları haqqındakı hər cür detal, hətta bəzən də əsassız böhtanlar asanlıqla ətrafa yayılır. Yaxın dostlarına verdikləri bir sirr ertəsi gün maqazin jurnallarında başlıq olar. Onlar başqalarına süni bir sevgi və saxta bir dostluq anlayışı ilə yaxınlaşarlar. Amma özləri də eyni şəkildə qarşılıq görərlər. Heç vaxt həqiqi, səmimi bir dostları olmaz. Heç kəsdən səmimi düşüncələrini əks etdirən səmimi söhbətlər eşitməzlər. Edilən hər tərif, deyilən hər söz süniliyə əsaslanır. Nə dostluqlarında, nə də ailə həyatlarında əsla sədaqəti yaşaya bilməzlər. Ərləri də daxil olmaqla heç kimə güvənə bilməzlər. Seçdikləri bu həyat tərzi də digər cahiliyyə xarakterləri kimi din əxlaqından uzaq sistemin bir məhsuludur. Bu səbəblə də mütləq çıxılmaz bir vəziyyətdədirlər. Ancaq bütün həyatları boyu yaşadıqları problem dolu mühitə baxmayaraq, xoşbəxtliyi yenə də dində, gözəl əxlaqı yaşamaqda axtarmazlar. Eyni çürük sistem içində çıxış yolları tapmağa çalışarlar, amma bunda müvəffəqiyyətli ola bilməzlər, get-gedə daha da çıxılmaz vəziyyətə düşərlər.

Məhz bütün bunlar bəhsi keçən insanların Qurandan üz çevirmələrindən ötrüdür. Yaradanımız olan Uca Allahın əmr etdiyi şəkildə yaşamadıqları üçün əsla dinclik tapacaq bir mühit əldə edə bilməzlər. Allahı zikr etmədikləri üçün, **"...Bilin ki, qəlblər yalnız Allahı zikr etməklə rahatlıq tapar" (Rad surəsi, 28)** ayəsinin işarəsiylə qəlbləri heç vaxt rahatlıq tapa bilməz, yaşadıqları sıxıntı və narahatlıqdan xilas ola bilməzlər. Yaradılış məqsədlərinə uyğun bir həyat seçmədikləri üçün bu vəziyyətə düşüblər. Əgər onlar Allahın bəyəndiyi həyatı və yenə Onun əmr etdiyi əxlaqı yaşasalar, şübhəsiz ki, gözəl bir həyatla qarşılıq görəcəklər. Ayələrdə Allahın bu vədi belə bildirilmişdir:

**Müttəqilərə: "Allah nə nazil etmişdir?" - deyildikdə, onlar: "Xeyir nazil etmişdir!" - deyərlər. Bu dünyada xeyirli işlər görənlər üçün gözəl mükafat hazırlanmışdır. Axirət yurdu isə daha xeyirlidir. Müttəqilərin yurdu necə də gözəldir! (Nəhl surəsi, 30)**

Aydındır ki, Allahın əmr etdiyi əxlaqı yaşayan və saleh möminlərlə dostluq edən bir insan bu cür etibarsız bir mühitdə yaşamaq məcburiyyətində qalmaz. Mütləq etibarlı, sadiq, dürüst və səmimi insanlardan ibarət olan birliklər cahil sistemdə olan etibarsızlıqların və qorxuların heç birini hiss etməz. Çünki Quran əxlaqının hakim olduğu bir mühitdə hər mömin mütləq gözəl əxlaq göstərməyə cəhd göstərər və yenə gözəl bir qarşılıq görər:

**Mömin olaraq yaxşı iş görən kişi və qadınlara, əlbəttə, gözəl həyat bəxş edəcək və etdikləri ən yaxşı əməllərə görə onları mütləq mükafatlandıracağıq (Nəhl surəsi, 97)**

# CAHİL CƏMİYYƏTDƏKİ KİŞİ XARAKTERLƏRİ

Cahil cəmiyyətin batil ənənələrinin təsirini özündə daşıyan xarakterlərdən biri də "kişi xarakteri"dir. Hər nə qədər yazılı bir tərifi olmasa da, cahil cəmiyyətin hər bir üzvü bu xarakterin bütün xüsusiyyətlərini əzbər bilir. Hər ailədə hələ uşaqları doğulmadan əvvəl əgər oğlan olsa, ona bu xarakteri necə aşılayacaqlarının planlarını və xəyallarını qurarlar. Çünki hər şeydən əvvəl bu əxlaqın yaşandığı bir cəmiyyətdə bir oğlan uşağı sahibi ola bilmək böyük bir qürur vəsiləsidir.

Cahiliyyə cəmiyyətində hörmət göstərilən bu xüsusiyyətlər “kişi adam dediyin...” deyə başlayan qəliblərlə tez-tez ifadə edilir. Onlara görə kişi xarakterinin ilk prinsipi güclü və üstün olmaqdır. Bu təlqin həqiqətən də kişilərdə qadınlara nəzərən tez-tez daha güclü bir şəxsiyyət meydana gəlməsini təmin edir. Güclü bir xarakterə sahib olmaq, əlbəttə ki, gözəl bir xüsusiyyətdir, ancaq cahiliyyə cəmiyyətində nəzərdə tutulan güc Quran əxlaqında bildirilən güclü xarakter anlayışından uzaq bir anlayışdır. Mərhəmətsizliyə, sərtliyə, şəfqətdən və mərhəmətdən uzaq olmağa və hətta bəzən zorakılığa əsaslanan üstünlük və güc anlayışı cahil cəmiyyətdəki kişi xarakteri üçün təbii qarşılanır. Cəmiyyətdəki digər tarazlıqlar da onsuz da kişinin bu üstünlük iddiasını dəstəkləyəcək xüsusiyyətdədir. Cahil cəmiyyətlərdəki qadınlar çox vaxt ikinci dərəcəli və məzlum bir xarakteri mənimsəmişdirlər. Bu vəziyyətdə kişilərdən daha üstün ola biləcək ikinci bir xarakter yoxdur. Məhz bu düşüncə onlarda qeyd-şərtsiz bir kafilik hissinin yaranmasına səbəb olar. Bu səbəblə də adətən heç kimdən, amma xüsusilə də qadınlardan gələcək heç bir tənqidə, ya da tövsiyəyə açıq olmazlar.

Bununla yanaşı hər kişi özünü cəmiyyətin görmək istədiyi kimi olmağa məcbur hiss edər və verilən bu nümunələrdən kənara çıxmamağa ciddi bir diqqət göstərər. Çünki cahil cəmiyyətdə kişiliyin tələblərini yerinə yetirməmək olduqca alçaldıcı bir vəziyyətdir. Bir kişi, uşaqlığından yaşlılığına qədər hər an çox güclü və çox cəsur olmaq məcburiyyətindədir. Heç bir mövzuda əsla ən kiçik bir zəiflik, məğlubiyyət və kişi xarakterinə zidd olan bir rəftar göstərməməlidir. Belə ki, xəstələndikdə və ya hər hansı bir səbəblə kədərləndikdə belə bunu bildirməməlidir. Çünki bütün bunlar yalnız qadınlara xas xüsusiyyətlərdir və kişinin bu tərz acizliklər çəkməsi cahiliyyə cəmiyyətinin dünyagörüşünə görə doğru olmaz və ya öz ifadələriylə "kişi adam ağrı hiss etməz".

Ancaq bunu da vacib olaraq əlavə etmək lazımdır ki, cəmiyyətin kişiyə verdiyi güclü, cəsur, ya da hakim xarakterli olmaq kimi xüsusiyyətlərin heç biri səhv deyil və əslində bütün bunlar gözəl xüsusiyyətlərdir. Amma Quran əxlaqının yaşanmadığı bir cəmiyyətdə ortaya atılan bir üstünlük iddiası "qürur" və "təkəbbür" kimi hisslərin yaranmasına səbəb olar ki, Quranda insanların bu cür rəftarlardan çəkinmələri əmr edilmişdir:

**İnsanlardan təkəbbürlə üz çevirmə, yer üzündə özünü darta-darta gəzib dolanma. Həqiqətən, Allah heç bir özündən razını, özünü öyəni sevmir. (Loğman surəsi, 18)**

Bu səbəblə də cahil kişilərin əslində müsbət olan bu xüsusiyyətləri, təkəbbürə meyl etdikləri üçün mənfi xüsusiyyətlərə çevrilir. Ortaya üstünlüyündən qəti arxayın olan, nə öz həmcinslərinin, nə də digər şəxslərin sözünə etibar etməyən eqoist bir şəxsiyyət çıxar.

## Cahil cəmiyyətdəki kişi xarakterlərindən müxtəlif nümunələr

Bura qədər izah edilənlər, cahil cəmiyyətdəki kişi xarakterinin əsas quruluşunu təşkil edir. Təməlini bu quruluşdan götürən, ancaq ailə, ətraf mühit, həyat şərtləri kimi amillərin təsiriylə yaranan daha bir çox kişi xarakterinə rast gəlmək də mümkündür. Bunlardan bəzilərini qısaca belə sıralaya bilərik;

Bundan əvvəlki başlıqda bəhsi keçən kişi xarakterinin tam əksini yaşayan kəslər isə cahil cəmiyyətdə “arvadağız" olaraq adlandırılır. Cahil cəmiyyətdə yaşanan üstünlük iddiasındakı kişi xarakterinin əvəzinə bu kəslər də öz hüquqlarını qoruya bilməyəcək qədər həddindən artıq passiv bir xarakterə yiyələnmişdirlər. Bu kəslər özlərindən gözlənilildiyi kimi "kişi adam dediyin..." nümünələrlə ifadə edilən məntiqlərə uyğun gəlməyən insanlardır. Öz üstünlüklərini iddia etmək əvəzinə adətən başqalarının hakimiyyətinə sığınmağı seçən bu insanlar, şəxsiyyətli bir rəftar göstərə bilməzlər. Şəxsiyyətsiz, zəif və öz deyimləriylə "xanım övladı" olaraq xarakterizə edilərlər.

Cahil cəmiyyətdə görünən başqa bir xarakter "sərt və nüfuzlu kişi" və ya "qürurlu kişi" olaraq adlandırılan xarakterdir. Bu kəslər "kişinin qeydsiz-şərtsiz üstünlüyünə" və "qadının da qeydsiz-şərtsiz zəifliyinə" inanmışdırlar. Qadının hər

hansı bir əşya kimi kişinin bir malı olduğuna, bu səbəbdən də yeri gəldikdə yaxşı davranılıb, yeri gəldikdə də sərt davranıla biləcəyinə inanmışdırlar. Sərt və əsəbi hərəkətlərin, kobud bir üslubdan istifadə etməyin və qısa müddətdə tərsləşməyin özlərinə xüsusi bir görkəm verdiyini düşünürlər. Qadınların onsuz da özlərinə bu xarakterdə bir yoldaş axtardıqlarından əmindirlər və bu səbəblə də bu rəftarlarıyla olduqca cazibəli bir hala gəldiklərinə inanarlar.

Cahil cəmiyyətin "sərxoş" olaraq adlandırdığı bir kişi xarakteri daha vardır. Bu kəslər həyatın ən əhəmiyyətli əyləncəsinin, xüsusi olaraq hazırlanan, qəlyanaltı qoyulan süfrələrdə içki içib, "sərxoş söhbətləri" etmək olduğunu zənn edərlər. Özləri ilə eyni səhv düşüncəni bölüşən bir yoldaş qrupuyla birlikdə demək olar ki, hər axşam bu vərdişlərini təkrarlayarlar. Cahiliyyə cəmiyyətinin bu kəsləri "sərxoş" adıyla adlandırmasının səbəbi bu yığıncaqlardır.

Gecənin gec saatlarına qədər davam edən bu masa söhbətlərində, demək olar ki, faydalı və hikmətli tək bir mövzu belə danışılmaz. Sərxoşluqlarından ötrü tamamilə boş bir mövzuya ilişib saatlarla o mövzu üzərində "filosofluq edər", çıxışlar edər, bir-birlərinə həyat dərsləri verərlər. Hətta bəzən gecənin gec saatlarında mübahisəyə başlayar və ətraflarındakı insanlar tərəfindən zorla nəzarət altına alınaraq sakitləşdirilərlər. Bu kəslər adətən gündəlik həyatlarında da axşamlar yaşadıqları bu sərxoş xarakterin bütün xüsusiyyətlərini əks etdirərlər. Tez-tez "axşam içmək imkanını əldən verməyim, mənə çox ilişməyin" şəklində sözlər deyərlər.

Bu saydıqlarımız cahil cəmiyyətdə yaşanan kişi xarakterlərindən yalnız bir neçəsidir. Bunlar kimi daha yüzlərlə xarakterə rast gəlmək mümkündür. Təməli Qurana əsaslanmadığı üçün, cahil cəmiyyətdə yaşanan bütün bu modellər səhv bir anlayış toplusudur. Diqqətlə izlənildiyində bu həyatı və bu xarakteri yaşayan kəslərin həyatlarından həqiqi mənada məmnun olmadıqları da açıq şəkildə görünər.

## YAŞLI İNSAN XARAKTERİ

Gəncliyində hansı xarakteri mənimsəmiş olursa olsun, adətən yaşlandığı vaxt cahil insanın göstərdiyi standart bir xarakter və həyat forması vardır. Ancaq bu mövzuya keçmədən əvvəl əhəmiyyətlə qeyd edilməsi lazım olan bir məqam vardır: Bu hissədə bəhs edəcəyimiz yaşlı xarakterin xüsusiyyətləri, insanların din əxlaqından uzaq həyatlarının gətirdiyi bir pozuqluqdur. Həyatını Rəbbimiz Allahın razı

olmayacağı şəkildə keçirmiş, yaşı çoxalıb ölümə yaxınlaşdığında da axirəti düşünməyən, dünyaya daha möhkəm bağlanan insanların ruh halındakı səhvlikdir.

Əlbəttə ki, bu xüsusiyyətlər bəzən hər insanda fərqli ola bilər; burada bəhs edəcəyimiz pis əxlaq xüsusiyyətlərinin yalnız bir qismini daşıyan və ya hamısını bir yerdə yaşayan insanlar ola bilər. Nəticə etibarilə burada əhəmiyyətli olan Quran əxlaqından uzaq olmağın gətirdiyi əxlaq və rəftar pozuqluğunun kiçik bir dünya meydana gətirməsi və bəhsi keçən kəslərin bu kiçik dünyada hər cür çirkin rəftarı göstərə bilmələridir.

Cahil qadınlar uşaqlarını evləndirib nəvə sahibi olduqdan sonra yaşlı qadın xarakterinə bürünərlər. Kişilər isə adətən təqaüdə çıxmış, ya da işləyə bilməyəcək qədər yaşlandıqlarından ötrü iş həyatını tərk edib evdə oturmağa başlayarlar. Bu vəziyyətdə özlərini ruhi və fiziki cəhətdən hələ də gənc hiss edənlər belə ətraflarından gələn təlqinlərin də təsiriylə yaşlı kimi davranma məcburiyyəti hiss edərlər. Ətraflarındakı bütün dostları, həmyaşıdları, yoldaşları yaşlanmış, təqaüdə çıxmış və bu xarakterə bürünmüşdürlər. Uşaqları da evlənib başları öz problemlərinə qarışmış və onlardan xeyli uzaqlaşmışdırlar.

Bu insanlar adətən günlərini televiziya seyr edərək, ya da yataraq keçirərlər. Ancaq qadının yaşadığı "ev qadını xarakteri"ndə heç bir dəyişiklik olmaz. Deyinmələri, kaprizləri bütün sürətiylə davam edir. Həyat yoldaşları da özləriylə eyni şərtlər altında olduğu halda evin bütün məsuliyyətinin yenə yalnız özlərinin üzərində olması onları daha da tərs və əks bir rəftara bürüyər. Kişilər də artıq görəcək bir işləri olmamasından ötrü bütün gün evdə boş-boş oturduqları üçün sıxıntı içərisindədirlər.

Gün ərzində hansı saatda nə edəcəkləri məlumdur. Qorxunc bir monoton həyata başlamışdırlar. Bu monoton həyatdan çıxmaları üçün həmişə uşaqlarından mədət umarlar. Lakin onlar da tamamilə öz həyatlarını yaşayarlar. Hərdənbir həftə sonları ziyarətə gələrlər, ancaq bir neçə saat davam edən bu ziyarətlər onları monoton bir həyatdan xilas etməz.

Bu insanlar bəzən də özləri kimi yaşlanmış olan dostlarını ziyarət etməyə gedərlər. Bu yığıncaqlarda danışdıqları mövzular isə çox vaxt övladları və xəstəlikləriylə məhdudlaşar. Getdikləri həkimlərdən, özlərinə qoyulan yeni diaqnozlardan, istifadə edilən dərmanlardan bəhs edərək bir-birlərinə məsləhət verərlər.

Ancaq yaşlanmaqla birlikdə üz-üzə gəldikləri bütün acizliklərə baxmayaraq, axirəti düşünməyə yönəlib cahil sistemin özlərinə qazandırdığı xarakter xüsusiyyətlərindən və vərdişlərdən imtina etməzlər. Halbuki uzun illər ərzində cahil əxlaqını yaşamış və bu şəkildə heç bir şey əldə edə bilmədiklərini və xoşbəxt olmadıqlarını açıq şəkildə görmüşdürlər. Ölümün bu cür yaxınlaşdığı bir dövrdə hələ də dünyaya möhkəm şəkildə bağlı olmaları, din əxlaqından uzaq cəmiyyətdə müaşhidə olunan yaşlı xarakterin ən əhəmiyyətli tərəfidir.

Əlbəttə ki, bu insanlar özlərini ziyana uğradacaq böyük bir yanılma içindədirlər. Etməli olduqları şey, hər şeyin yaradıcısı olan Allaha yönəlməkdir. Müəyyən bir yaşa qədər bunu etməmiş ola bilərlər. Amma Allaha hesab verəcəklərini və ölümün getdikcə yaxınlaşdığını qavradıqları andan etibarən şüurlarının açılması və keçmişdə etdikləri üçün tövbə edərək Allahın rizasını qazanmağa cəhd etməlidirlər. O günə qədər Quran əxlaqından uzaq keçirdikləri həyatlarında yaşadıqları çətinliklər, xəstəliklər, problemlər özlərinə bir dərs və ibrət vəsiləsi olmalıdır.

Ancaq cahil cəmiyyətdə tərif verdiyimiz "yaşlı xarakteri"nə sahib insanlar adətən bunların heç birini etməz, əksinə daha üsyankar, söz başa düşməz rəftarlara yönələrlər. Nəticədə ortaya çıxan bu "yaşlı xarakteri"nin başlıca xüsusiyyətlərini belə yekunlaşdıra bilərik:

## Küsəyənlik və acındırma üsulları

Yaşlanan insanların əksəriyyəti həm maddi, həm də mənəvi cəhətdən başqalarından asılı bir həyat yaşayarlar. Asılı olduqları kəslər də çox vaxt uşaqları, nəvələri və ya digər yaxın qohumlarıdır. Bu kəslər yaşlılara o qədər də müsbət bir gözlə baxmırlar. Şəxsiyyət etibarilə yaxşı bir insan olaraq tanınsalar da, yaşlıları adətən bir ayaq bağı və problem kimi görərlər. Çünki yaşlanmağın gətirdiyi sağlamlıq problemləri maddi və mənəvi qayğı tələb edir. Yaşlanmış insanlar çox vaxt bu imkansızlıqlarından ötrü tək başlarına ayrı bir evdə yaşaya bilməzlər. Ancaq uşaqları, nəvələri və ya qohumları da diqqətlə baxılması lazım olduğundan ötrü, yaşlı bir insanı daima evlərində saxlamaq istəməzlər.

Din əxlaqının yaşanmadığı bir cəmiyyətdə yaşlı insanların məruz qaldıqları bu vəziyyət illər boyu davam etdirilən batil sistemin təbii bir nəticəsidir. Adətən yaşlanmış olan bu insanlar da cahiliyyə əxlaqını mənimsəmiş, bütün həyatları boyu

Uca Rəbbimiz Allahdan və Onun əmr etdiyi din əxlaqından uzaq yaşamışdırlar. Uşaqlarına, nəvələrinə də belə pis bir həyat tərzi aşılamışdırlar; onları Allahın əmr etdiyi gözəl əxlaq əvəzinə cahil əxlaqı ilə böyüdürlər. Bunun nəticəsi də onlara qocalıq yaşlarında böyük bir zərər olaraq geri qayıdır; cahil sistem içində yaşayan uşaqları, gözlərini belə qırpmadan onları rədd edə bilir, zalım bir rəftar göstərə bilir. Əgər yanlarında qalmalarına razı olsalar belə, məcburiyyətdən ötrü evlərində saxladıqları bu insanlara müsbət davranışlar göstərməzlər.

Məhz buna görə yaşlılarda yaranan ən əhəmiyyətli xüsusiyyətlərdən biri küsəyənlikdir. Yalnız məcburiyyətdən ötrü yaşadıqları evdə saxlanıldıqlarını bildikləri üçün evdəki digər kəsləri mümkün olduqca az narahat etməyə çalışarlar. Ancaq yenə də gizlində böyük bir haqsızlığa məruz qaldıqlarını düşünərlər; onlar bütün ömürləri boyu uşaqlarına baxmaq, onları ən yaxşı şərtlərdə böyütmək və həmişə onları xoşbəxt etmək üçün səy göstərmişdirlər. Ancaq göstərdikləri bütün bu fədakarlıqların əvəzində gördükləri rəftar, sədaqətsizlikdir. Əslində bir mənada onlar bütün bunları bir gün yaşlanacaqları və uşaqlarının qayğı göstərməsinə möhtac qalacaqları düşüncəsiylə etmişdirlər. Amma gördükləri qarşılıq xeyli fərqli olur. Məhz bu qarşılıqdan ötrü haqsızlığa məruz qaldıqlarını düşünərək hər an küsəyən olurlar.

Bu əhval-ruhiyyənin xaricə əks olunması olaraq da, daima qarşı tərəfin narahatlığının fərqində olduqlarını hiss etdirəcək şəkildə tənəli çıxışlar edərlər. Adətən bu kəslərlə rahat bir ünsiyyət qurmaq mümkün olmaz. Hər şeydən bir məna çıxardar və bu məna əsasında qəribə cavablar verərlər. "Qorxmayın sizə yük olmaram" şəklində gileylənərlər. Məsələn, onlara verilən yeməkləri ya heç yeməz, ya da çox az bir hissəsini yeyərlər. Bəzən evdəki yeməklərin özlərindən gizlədildiyini düşünərək, şkafdakı yeməklərdən heç kimə görünmədən gizli bir şəkildə yeyərlər. Ya da özlərinə istirahət etmələri üçün bir otaq verildiyində "ehtiyac yoxdur, mən bu divanın küncündə qıvrılıb yataram" kimi təəccüblü təkliflər edərlər. Ən kiçik bir sözdən küsər, əşyalarını toplayıb getməyə hazırlaşarlar. Əslində gedəcək başqa bir yerləri də yoxdur. Amma sırf özlərini acındırmak və qarşı tərəfi peşman etmək üçün belə bir rəftar göstərərlər. Özlərinə bir hədiyyə alındığı vaxt belə bundan inciyəcək bir şey taparlar. Onlara hədiyyənin ya ən ucuzunun alındığını, ya da hər kəsə alındığı üçün onlara da alındığını düşünürlər.

Evə gələn qonaqlara mümkün qədər istənilmədikləri, əzildikləri və yaxşı baxılmadıqları imicini verməyə çalışarlar. Xatirləri soruşulduğunda isə mütləq elə də yaxşı olmadıqlarını ifadə edəcək söhbətlər edərlər. Beləcə özlərinə acınacağını, sevgi bəslənəcəyini və daha çox diqqət görə biləcəklərini düşünərlər. Bəlkə də qonaqlarda

bu cür qənaət meydana gələr bəlkə, ancaq evdəki digər şəxslər tərəfindən bu rəftarları qəzəblə qarşılanar və onlara baxma mövzusundakı könülsüzlükləri daha da artar.

## Diqqəti özlərinə cəlb etməyə çalışmaları

İnsanların diqqətini özünə çəkməyə çalışmaq cahil cəmiyyətdə qadın, kişi bütün yaşlılara xas bir xüsusiyyətdir. Ancaq onlarda yaranan bu xarakterin ən əhəmiyyətli səbəbi yenə də cahil sistemin yanlışlığıdır. Cahil əxlaqın yaşandığı cəmiyyətlərdə insanların arasındakı sevgi anlayışı, əxlaqlarına və imanlarına deyil, mənfəət əlaqələrinə əsaslandığı üçün, mənfəətlərin sona çatdığı məqamda sevgiləri və göstərdikləri diqqət də sona çatar. Bu vəziyyətdə artıq mənfəət verməyəcək vəziyyətə gələn yaşlılar da bu sevgini və diqqəti əldə etməyin fərqli yollarını axtarmağa başlayarlar. Ancaq onlar da bunu özlərini həqiqətən sevdirəcək xüsusiyyətlər və rəftarlar göstərərək deyil, cahil sistemin çirkin üsullarıyla əldə etməyə çalışarlar. Bu da qarşı tərəfdə bir sevgi meydana gətirmədiyi kimi, əksinə müraciət edilən qeyri-əxlaqi üsullara görə tam əks bir təsir meydana gətirər.

Cahil əxlaqını yaşayan yaşlıların diqqəti cəlb etmək üçün müraciət etdikləri bu üsullardan biri daima xəstəliklərini dilə gətirmək, nə qədər əziyyət çəkdiklərini, nə qədər çətin vəziyyətdə olduqlarını başa salaraq özlərini acınacaqlı hala salmaqdır. Allaha təvəkkül etmədikləri və içində olduqları vəziyyətə şükr etmədikləri üçün xəstəliklərindən daima şikayətlənərlər. Bu dediklərində həqiqət payı da olmaqla yanaşı, çox vaxt qarşı tərəfə təsir edə bilmək üçün vəziyyəti şişirdə bilərlər, ya da bəzi vaxtlarda yalan danışa bilərlər. Xəstə olduqları düşünüldüyündə daha çox qayğı və xoş rəftar görə biləcəklərinə inanarlar. Bu vəziyyət həqiqətən də qarşı tərəfin mərhəmətini hərəkətə keçirər, amma digər tərəfdən vəziyyəti şişirtdiklərini bildikləri üçün həm də hirsləndirər. Yenə də əsl istədiklərinin qayğı olduğunu bildiklərindən ötrü bu qarşılığı verərlər, amma bu da qaneedici olmaz. Çünki cahil əxlaqına sahib yaşlılar diqqətin daima öz üzərlərində olmasını istəyərlər.

Bu səbəblə də bəzən kədərli bir mimika ilə bir kənarda oturar, yemək yeməz və danışmazlar. Məqsədləri özlərinə bütün bunları niyə etdiklərinin soruşulması və beləcə nazlanmalarıdır. Soruşulduğunda bir şey olmadığını deyər və qarşı tərəfi mümkün olduğu qədər məşğul edərlər. Çünki cavab nə qədər çətin alınarsa, diqqət o qədər artacaq. Bəzən də evin kənar bir küncünə gedib saatlarla oradan çıxmaz və

diqqəti özlərinə cəlb etmək istəyərlər. Oturduqları yerdə əllərində dəsmalları ilə səssizcə ağlayar və soruşulduğunda da "tək olduqları" ya da "sevən kəsləri olmadıqları üçün" ağladıqlarını deyərlər. Bunun müqabilində qarşı tərəf "biz varıq" deyəcək, sevgi göstərəcək və təskinlik verəcək.

Əgər bütün bunlara qane olmasalar, bu vəziyyətdə də danışıqlarıyla istəklərini ifadə etməyə çalışırlar. Cahil cəmiyyətdə artıq dillər əzbəri olmuş və mənası bütün cəmiyyət tərəfindən bilinən simvolik sözlərlə bəzi eyhamlar edirlər. Misal üçün çox diqqət görmədikləri bir mühitdə bir anda "istənilmədiyim yerdə qalmaram", "gedəcək yerim olsa sizi narahat etməzdim", ya da "məni qocalar evinə göndərin, artıq rahat yaşayarsınız" kimi ifadələr işlədirlər. Bu sözlərin çoxu sırf özünə göstərilən diqqətin artmasını təmin edə bilmək üçündür.

Halbuki bütün bu rəftar, üslub və sadə metodlar üçün çəkəcəkləri zəhməti gözəl rəftarlar göstərmək üçün çəkmiş olsalardı, bəlkə də, istədikləri sevgi və diqqəti görəcəkdilər. Ancaq bunu Quran əxlaqına uyğun olmayan çirkin rəftarlara müraciət edərək əldə etməyə çalışmaları, istədikləri nəticəyə əsla çatmamalarına səbəb olar.

## Söz eşitməmələri

Cahil cəmiyyətdəki yaşlı insanların bilinən başqa bir diqqət çəkici xüsusiyyətləri daha vardır: Söz eşitməmək. Mövzu hər nə olursa olsun, həmişə öz bildiklərini etmək istəyərlər. Başqalarının sözlərinə əsla güvənməz, deyilənlərin altında mütləq başqa bir məna axtararlar. Məsələn xəstəliklərindən ötrü bəzi yeməklərin onlara pis təsir edəcəyini, bu səbəbdən də yeməmələrinin lazım olduğu deyildiyində, bunun yalnız o yeməkdən yeməmələri üçün uydurulmuş bir yalan olduğuna inanarlar. Bu səbəblə də özlərinə tövsiyə verənlərin həm sözlərini eşitməz, həm də bir yeməyi belə özlərindən əsirgədiklərini düşünərək inciyərlər.

Ancaq bu xasiyyətləri bununla da məhdudlaşmaz və bəzən olduqca təhlükəli səviyyəyə çatar. Məsələn, öz xəstəliklərini özləri müalicə etmək istəyər, həkimə getməyi razı olmazlar. Ya da həkimin verdiyi dərmandan istifadə etməyi rədd edər, bunun əvəzinə öz bildikləri köhnə bir dərman, ya da hansısa qarışıqdan istifadə edərlər. Ağıllarına və təcrübələrinə çox güvənər, gənclərin isə heç bir şey bilmədiyinə inanarlar.

## Düşüncəsiz rəftarları

Bütün həyatlarını din əxlaqından uzaq keçirmiş olan bu insanlar, yaşlı xarakterinə sığınaraq cahil cəmiyyətin pis bir vərdişi olan düşüncəsizliyə qanuni bir zəmin hazırlamağa çalışırlar. Yaşlı olmağın bəzi əxlaqi pozuqluqları üzrlü göstərəcəyinə inanarlar. Onsuz da cəmiyyətin digər fərdləri də bu vəziyyəti qəbul etmişdir. Bu səbəblə də "yaşlıdır, onu üzrlü hesab edin, danışığını, hərəkətini bilmir" deyib yola verərlər. Halbuki bu əxlaq pozuqluğu bəzi yaşlı insanlar tərəfindən adətən şüurlu və qərəzli olaraq həyata keçirilir. Öz mənfəətlərindən söhbət getdikdə, hər cür detalı dərk edə bilən və özlərinə qarşı hər cür əskikliyi, ya da qüsuru fərq edə bilən bu kəslərin nəzakətsizliyi də çox şüurlu bir davranışdır.

Necə ki, nəzakətsizliyi nə vaxt edəcəklərini, hansı sözü deyəcəklərini və kimə eyham vuracaqlarını çox yaxşı bilirlər. Demək olar ki, danışıqlarının böyük əksəriyyətində bu üsuldan istifadə edərlər. Düzgün və normal söhbət etdikləri vaxtlar çox azdır. Məsələn, xəstə olduqlarında xəstəliklərinin səbəbi soruşulduqda "uzun müddətdir, ət yemədiyimə görə xəstələnmişəm", "yatdığım otaq çox soyuqdur" ya da "çox yoruluram ona görə xəstələnmişəm" kimi qarşı tərəfi çətin vəziyyətdə qoyacaq, qarşı tərəfin özləriylə maraqlanmadığını ifadə edən, eyhamlı cavablar verərlər.

Bəzən də kiçik intiqam almaq arxasınca qaçarlar. Məsələn bir qonaq gəldikdə xüsusilə evdəkiləri hörmətdən salacaq bir mövzunu gündəmə gətirər, ətrafındakı kəsləri zərər vuracağını bildiyi, ən yersiz mövzuları hər kəsin ortasında danışarlar. Ancaq sonra da qocalıq bəhanəsinin arxasına sığınaraq nə etdiyini bilməmiş kimi edər, kədərli olduqlarını deyərək yola verərlər. Halbuki işin əsli olduqca şüurlu bir plana əsaslanır. Özlərini hirsləndirən birindən intiqam almağın ən asan yolunun nəzakətsizliklə onları hörmətdən salmaq olduğunu bilirlər.

## Dünyaya olan bağlılıqları

Cahil insanların böyük bir qismi qocalığın gətirdiyi acizlikləri və çətinlikləri açıq şəkildə gördükləri halda yenə də ibrət almaz və dünya həyatına olan bağlılıqlarından güzəştə getməzlər. Ölümə bu cür yaxınlaşdıqları halda, yenə də ölümü özlərinə yaraşdırmazlar. Dostlarının bircə-bircə öldüklərinə şahid olar, amma yenə də heç ölməyəcəkmiş kimi davranarlar. Hələ pul yığmağa, gələcəklərini zəmanət altına almağa çalışarlar. Bir gün tənha və pulsuz qalma qorxusuyla yaşayar,

bir kənarda daima yemək, paltar və ya pul yığmaqla məşğul olarlar. Ancaq dünyada çətin vəziyyətdə qalmaqdan bu qədər qorxduqları halda, axirətdə nə edəcəkləri mövzusunu heç düşünməzlər. Axirət üçün heç bir hazırlıq görməyə ehtiyac duymazlar. Halbuki insanın əsl həyatı axirətdir və əsl hazırlıq görüləcək yer də ancaq axirət həyatıdır. Quranda belə xəbər verilir:

**Dünya həyatı oyun və əyləncədən başqa bir şey deyildir. Qorxub-çəkinənlər üçün isə axirət yurdu daha xeyirlidir. Məgər anlamırsınız? (Ənam surəsi, 32)**

Bu həqiqətə qəti olaraq iman edən möminlərin qocalıq dövrləri isə çox fərqli olar. Onlar onsuz da bütün həyatlarını Allahın rizasını qazanmaq üzərinə qurmuşdurlar. Vaxt keçdikcə axirətə, Allahın izni ilə sonsuz cənnət həyatına yaxınlaşdıqlarının şövqü içindədirlər. Bu ümid dolu həsrətdən ötrü olduqca şən, dinc, gözəl əxlaqlı bir xarakter göstərərlər. Ətraflarındakı insanlara problem çıxarmağa deyil, əksinə onların problemlərini həll etməyə, onlara Quran əxlaqını öyrətməyə, Allahın razı qalacağı bir xarakter qazandırmağa çalışırlar. Fiziki cəhətdən zəif vəziyyətə düşsələr də, zehni cəhətdən daima çalışar və ətraflarına fayda verməyə xidmət edən bir fəaliyyət içində olarlar.

Onların bu üstün əxlaqlı rəftarları ətraflarında da böyük bir sevgi və hörmət oyandırar. Həm ətraflarındakı insanlara gözəl əxlaqı öyrətdikləri, həm də özləri olduqca gözəl əxlaqlı olduqları üçün həmişə hörmət və qayğı görərlər. Quranda iman edənlərə yaşlılara hörmət etmələri tövsiyə edilmişdir. Allah Quranda belə əmr etmişdir:

**Rəbbin yalnız Ona ibadət etməyi və ata-ana ilə yaxşı davranmağı buyurmuşdur. Əgər onların biri və ya hər ikisi sənin yanında qocalıq yaşına dolarsa, onlara: "Uf!" belə demə, üstlərinə qışqırma və onlara xoş söz söylə! Onların hər ikisinə rəhm edərək təvazökarlıq qanadının altına al və: “Ey Rəbbim! Onlar məni körpəliyimdən tərbiyə edib böyütdükləri kimi, Sən də onlara rəhm et!” - de. (İsra surəsi, 23-24)**

**Biz insana valideynləri ilə gözəl davranmağı buyurduq... (Ənkəbut surəsi, 8)**

Biz insana ata-anasının qayğısına qalmağı əmr etdik. Anası onu bətnində gündən-günə zəiflədiyinə baxmayaraq daşımışdır. Onun süddən kəsilməsi isə iki il ərzində olur. Mənə və valideynlərinə şükür et! Axır dönüş Mənədir. (Loğman surəsi, 14)

Allaha ibadət edin və heç bir şeyi Ona şərik qoşmayın! Valideynlərə, qohum-əqrəbaya, yetimlərə, kasıblara, yaxın və uzaq qonum-qonşuya, yol yoldaşına, müsafirə və sahib olduğunuz kölə və kənizlərə yaxşılıq edin! Həqiqətən, Allah lovğalıq edənləri və özünü öyənləri sevmir (Nisa surəsi, 36)

# CAHİL CƏMİYYƏTDƏ PEŞƏLƏRİN TƏSİRİ İLƏ FORMALAŞAN XARAKTERLƏR

Cahil cəmiyyətdə bütün insan xarakterləri müəyyən meyarların təsiri altında qalaraq formalaşar. Bunların əsas səbələrindən biri də peşələrdir. Çünki peşə insanın cəmiyyət içərisindəki ictimai şəxsiyyətini və təbəqəsini təyin edən ən əhəmiyyətli amildir. Quran əxlaqından uzaq cəmiyyətlərdə hər insan peşəsi, ictimai etibarı və sərvəti dərəcəsində dəyər görər. Belə ki, yazılı bir qaynaq olmamasına baxmayaraq, cahil cəmiyyətdə bütün bu peşələrin etibarlılığına görə ardıcıllığı da məlumdur və hər kəs tərəfindən bilinir. Məsələn, bir professorun görəcəyi etibar bir rəhbərdən, bir həkiminki bir stilistdən, ya da bir memarınkı bir müəllimdən fərqlidir.

Bu səbəblə də cahil cəmiyyətdə özünə peşə seçəcək adam, yalnız öz maraq dairəsini və qabiliyyətlərini deyil, həmçinin əldə edəcəyi ictimai mövqeyi və görəcəyi etibarı da nəzərə almalıdır.

Peşə seçimiylə birlikdə insanın o günə qədər yaşadığı xarakter tam bir dəyişikliyə məruz qalar. Artıq seçdiyi peşənin xarakterini yaşamaq məcburiyyətindədir. Çünki cahil sistem, özünə bu xarakteri uyğun görmüşdür. Əgər həqiqətən də cəmiyyətdə bir yer tuta bilmək və hər hansısa bir yer tutmaq istəyirsə xarakterini dəyişdirməli və bu şəxsiyyətə bürünməlidir.

Bu cür bir xarakter dəyişikliyi cəmiyyətin heç bir üzvü tərəfindən qınanılmaz. Əksinə bu yeni xarakter nə qədər yaxşı tətbiq olunsa o qədər təqdirlə qarşılanar. Bu vəziyyətdə insanın geyim tərzindən, yeriyişinə, oturuşuna, səs tonuna, üslubuna qədər hər şeyi peşəsini təmsil edir.

Bununla belə hər peşənin "peşə ədəbi" adı altında xatırlanan özünəməxsus yanlış anlayışları da vardır. Bu səbəbdən də seçdiyi peşədə müvəffəqiyyətli ola bilmək və hər hansısa bir yer tuta bilmək istəyən hər bir insan bu "ədəb" olaraq seçilən cahil qaydalara tabe olmaq məcburiyyətindədir. Əlbəttə ki, burada nəzərdə tutulan dürüst, səmimi, çalışqan bir insanın göstərdiyi ədəb və ya tətbiq etdiyi əxlaqi qaydalar deyil. Cahil cəmiyyətdə nəzərdə tutulan peşə ədəbi, bəzən qeyri-qanuni qazancları, bəzən peşənin gətirdiyi qürur və eqoistliyi, bəzən əzikliyi, bəzən də dürüst olmamağı məqbul görən və əslində ədəblə heç bir əlaqəsi olmayan bir anlayışdır.

Həmçinin bunu da qətiyyətlə ifadə etməliyik ki, cahil cəmiyyətdə müxtəlif səbəblərdən ötrü bu qaydalardan kənara çıxan insanlar da vardır. Bu kəslər prinsipləri, ya da həyat tərzlərindən ötrü peşələrinin xarakterlərinə istiqamət verməsinə izn verməyə bilərlər. Ancaq bu çox kiçik bir azlıqdan ibarətdir. Necə ki, bu xarakterləri ortaya qoymaqdakı əsl məqsəd, onsuz da şəxsləri deyil, Quran əxlaqından uzaq bir cəmiyyətin böyük hissəsinə hakim olan yanlış anlayışı göstərməkdir.

Peşələri izah etməyə keçməzdən əvvəl üzərində dayanılması lazım olan olduqca əhəmiyyətli bir mövzu daha var: Bu hissədə ətraflı izah ediləcək mövzular peşələrə istiqamətlənmiş bir tənqid xüsusiyyəti daşımır. Əlbəttə ki, insanların bir cəmiyyət olaraq yaşaya bilməsi üçün hər kəsin müəyyən bir peşəsi olmalıdır, hər insan öz qabiliyyətləri və istəkləri çərçivəsində xidmət etməli, cəmiyyətə faydalı bir insan olmalıdır. Bu məqamda əhəmiyyətli olan budur: İnsanları peşələrinə görə qiymətləndirmək, ona görə təbəqələrə ayırmaq səhvdir. Bununla yanaşı insanların sahib olduqları peşəyə görə öz şəxsiyyətləri üzərində bu cür düzəlişlər etmələri səhv bir məntiqdir. Unutmamaq lazımdır ki, hər insan özünü yaradan Allaha qarşı məsuldur. Doğru olan da Allahın Quranda göstərdiyi yollarla insanları qiymətləndirməkdir. Quranda insanlar arasındakı üstünlük meyarı isə belə verilmişdir:

**Ey insanlar! Biz sizi kişi və qadından yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Şübhəsiz ki, Allah yanında ən üstün (kərim) olanınız (irq və ya nəsil baxımından deyil) təqva (yəni, Allahdan qorxub-çəkinmək baxımından) ən üstün olanınızdır. Həqiqətən, Allah Biləndir, Xəbərdardır. (Hucurat surəsi, 13)**

Yuxarıdakı ayədə göründüyü kimi insanlar ancaq təqvalarından, Allaha olan yaxınlıqlarından, göstərdikləri dərin bağlılıqdan məsul tutulacaqlar. Bir adamın kişi və ya qadın olması, gənc və ya yaşlı olması, həkim və ya katibə olması o adamın haqq-hesab günü sorğuya çəkiləcəyi mövzular deyil. Hər kəs öz olduğu şərtlər daxilində Qurana tabe olmaqla, Allahın əmr etdiyi şəkildə yaşamaqla, Quran əxlaqına uyğun bir xarakterə yiyələnməklə məsuldur.

Məhz bu hissədə səhvinə diqqət çəkiləcək olan mövzu da insanların Allahı, haqq-hesab gününü, Allahın dinini unudub, müvəqqəti olan dünya həyatına qapılmaları və özlərinə görə bəzi dəyər mühakimələri qəbul etmələridir. Və sonra da səhv dəyərlər istiqamətində xarakterlərini, həyatlarını müəyyənləşdirmələridir. Peşələrə görə dəyişən bu cahillik xarakterlərini izah etməmişdən əvvəl ümumi mənada cəmiyyətə hakim olan iş qadını və iş adamı xarakterini araşdırmaqda fayda vardır.

## İŞ QADINI XARAKTERİ

İş qadını xarakteri cahillik əxlaqının yaşandığı bir cəmiyyətdə evdar qadın xarakterindən daha çox etibar qazanar. Çünki cahillik meyarlarına görə, evdar qadından daha əhəmiyyətli idealları və daha diqqətə layiq məsuliyyətləri olduğu düşünülər. Necə ki, iş qadını olmağa qərar verən adamın əsl məqsədi də, evdar qadın şəxsiyyətindən və bu şəxsiyyətin bəzi kəslərdə səbəb olduğu mənəvi narahatlıqdan xilas olub öz aləmlərində daha etibarlı bir mövqeyə gələ bilməkdir. Bu səhv düşüncədə olan insanlara görə iş həyatı özünə hər şeydən əvvəl fərqli bir şəxsiyyət qazandıracaq, "öz ayaqları üzərində dayanmasını" təmin edəcək və onu kişilərlə böyük dərəcədə bərabər səviyyəyə gətirəcək.

Necə ki, cahil cəmiyyətdə bir iş qadınından gözlənilən də budur. Din əxlaqından uzaq yaşayan insanlar üçün ən əhəmiyyətli meyar maddi güc, yəni pul olduğu üçün bu imkana sahib qadınları digərlərindən üstün görərlər. Bu insanların sahib olduğu əxlaq deyil, sahib olduqları bank hesabları, kupçalar, şirkətin səlahiyyətli şəxsləri bir hörmət səbəbidir.

Məhz cahil əxlaqa sahib cəmiyyətdəki bu meyarlardan xəbəri olan iş qadınları da işlərinə böyük bir həvəslə sarılar və yiyələnərlər. Peşələrində nə qədər müvəffəqiyyətli olsalar o qədər şəxsiyyət qazanacaqlarına inanırlar. Bu səbəblə də iş yerindəki hər kəsə qarşı özlərini sübut etmək yarışına girirlər. Əgər o iş yerində çalışan kişilərin yuxarı səviyyəli kadra keçə bilərlərsə bunu böyük bir müvəffəqiyyət olaraq qəbul edərlər. Bu vəziyyət özlərinə görə çox əhəmiyyətli bir fürsətdir. Ətraflarına daima əmrlər yağdırar, səhv edilən ya da gecikən bir iş olduğunda bu kəsləri hər kəsin ortasında danlamaqdan çəkinməzlər. Bir tərəfdən kişilərə qarşı özlərini bu şəkildə sübut etməyə çalışarkən, bir tərəfdən də iş yerindəki qadınlarla

rəqabət apararlar. Hər fürsətdə onların bacarıqsızlığını dilə gətirərək özlərini ön plana çıxarmağa çalışarlar.

Evdar qadınların cəmiyyətdəki imicinə sahib olmadıqları üçün özlərinin şanslı olduqlarını zənn edərlər. Halbuki dəyişən çox az şey olmuşdur, təməldə yaşadıqları cahil əxlaqına sahib qadın xarakteri yenə eyni vəziyyətdədir. Dəyişən yalnız məkanlar və kəslər olmuşdur. Evinin, ailəsinin problemlərini beyninə salıb əriylə ya da anasıyla çəkişən evdar qadın getmiş, yerinə iş yerindəki problemlərlə və işçilərlə rəqabət aparan, özünü sübut etməyə çalışan iş qadını gəlmişdir. Dedi-qodular, çəkişmələr, qısqanclıqlar və ya emosionallıqlar eyni sürətiylə davam edir. Çünki insanın içində olduğu çətin həyatdan, qaranlıq ruh halından xilas olmaq cahilliyin bir xarakterindən digərinə keçməsiylə deyil, ancaq ruhunda Qurana uyğun bir dəyişiklik aparmasıyla mümkün ola bilər. Məhz cahil əxlaqını yaşayan iş qadınları bu əhəmiyyətli həqiqəti nəzərə almadıqları üçün yenə cahilliyin bütün çətinlik və sıxıntılarını yaşamağa davam edərlər.

Mömin qadın isə bu əhəmiyyətli həqiqəti bilir. Özünü inkişaf etdirmək üçün diqqətini həyatında aparacağı texniki dəyişikliklərə deyil, ruhunda və əxlaqında aparacağı dəyişikliklərə verər. Bu səbəblə də daima müvəffəqiyyət əldə edər. Bundan başqa bir çox cahil qadınlarda olduğu kimi mənəvi narahatlıqlara sahib deyil. Ətrafındakı digər qadınlarla, iş yerindəki kişilərlə və ya müxtəlif insanlarla maddi dəyərlər və dünyəvi meyarlar üçün rəqabət aparmağı özünə layiq görməz. Belə bir rəftar üçün heç bir səbəb də yoxdur. Çünki din əxlaqında kişi-qadın rəqabəti, bir tərəfin üstünlüyü və ya əksikliyi kimi bir anlayış yoxdur. Hər ikisi də öz yaradılışlarına uyğun hərəkət edirlər. Bir-birlərinə bənzəməyə deyil, Quranda təsvir edilən mömin modelinə uyğun gəlməyə çalışırlar. Allah Qatında da, möminlərin arasında da yalnız imanlarının və gözəl əxlaqlarının səviyyəsinə qiymətləndirilərlər. Və bütün kişi və qadın möminlər yalnız xeyirli işlər görməyə tələsirlər.

## İŞ ADAMI XARAKTERİ

Cahil əxlaqa sahib olan cəmiyyətlərdə işləyən kişilərin böyük əksəriyyəti Quranın bir çox ayəsində bildirildiyi kimi dünya həyatının məşğuliyyətlərinə aludə olmuşdurlar. Bütün həyatları işləri, ən böyük məqsədləri isə işlərində müvəffəqiyyət əldə etmək olmuşdur. İşdən kənar həyatlarına belə yenə bu pul qazanmaq ehtirası hakimdir. Ailələri başda olmaqla ətraflarındakı insanlarla danışdıqları mövzular çox

məhduddur. Ya işdən bəhs edərlər, ya da heç danışmaz saatlarla oturub düşünər, başlarında daha çox pul qazanmağın planlarını qurarlar. Başları işlə o cür məşğuldur ki, adətən həyat yoldaşlarına, uşaqlarına, ailələrinə, dostlarına, yoldaşlarına qarşı olan mənəvi məsuliyyətlərini belə unudarlar.

Bu əxlaqdakı insanlar hər mövzunu işlə əlaqələndirərlər. İctimai əlaqələri mənfəətə əsaslanır. Dostluqlarını, hətta evliliklərini belə bu anlayış üzərində qurarlar. Özlərinə mənfəət təmin edə biləcəyinə inandıqları kəslərlə əlaqələrini gücləndirərkən, özlərinə fayda təmin etməyəcəklərinə inandıqları kəslərlə görüşməyi də vaxt itkisi olaraq qiymətləndirərlər.

İş yerində və evdə adətən gərgin və stressli bir xarakter nümayiş etdirərlər. İşlərinin yaxşı getmədiyi günlərdə "toxunsalar partlayacaq" şəklində ifadə edilən bir xarakterə bürünərlər. Bu tip vəziyyətlərdə olduqca dözümsüz olurlar. Bu hallarına biganə yanaşıldıqda isə daha da tərsləşər və əsəbiləşərlər. Xüsusilə də həyat yoldaşlarının iş həyatını qavramadıqlarına görə düşüncəsiz olduqlarını düşünər və şikayətlənərlər.

Adətən, demək olar ki, hər mövzuda özlərinə çox arxayındırlar, ağıllarını çox bəyənər və heç kimin sözünə etibar etməzlər. İllərin təcrübəsinə sahib olduqlarını və dolayısilə də hər şeyin ən yaxşısını və ən doğrusunu özlərinin bildiyini iddia edirlər. Bu səbəblə də onları inandıqları bir şeyin əksinə inandırmaq mümkün olmaz. Səhv etdiklərini, ya da səhv düşündüklərini görsələr belə sözlərini geri almaq və səhv etdiklərini qəbul etmək onlara çox ağır gəldiyi üçün buna yanaşmazlar.

Onları belə bir xarakterə yönəldən əsl amil isə əvvəldədə də ifadə edildiyi kimi "dünya ehtirası"dır. Bu ehtirasdan ötrü bir çox mənəvi dəyərlərini itirmiş, ancaq maddi mənfəətlərini düşünən kəslər olmuşdurlar. Burada qeyd etmək lazımdır ki, bir insanın pul qazanmaq istəməsi, işində müvəffəqiyyət əldə etmək üçün səy göstərməsi və ya işini yaxşılaşdırmağa istiqamətli planlar qurması olduqca təbiidir. Ancaq bu istəkləri dünyaya istiqamətli ehtiraslı bir şəhvətə çevirmək, axirəti unudaraq ehtirasa qapılmaq səhvdir. Yoxsa bir insan böyük bir zənginliyə və mülkə sahib olub, bunları Allahın razı olacağı şəkildə sərf etmək istəyə bilər və ya yaxşı bir niyyətlə müvəffəqiyyət əldə etməyə çalışa bilər.

Cahil cəmiyyətdəki iş adamı xarakterində isə belə yaxşı bir niyyət deyil, əksinə dünyaya qarşı ehtiraslı bir bağlılıq vardır. Halbuki xarakterlərinə bu dərəcədə hakim olan pul, dünya həyatının keçici bir faydasıdır. Dünyanın ən varlı insanı, ya da ən müvəffəqiyyətli iş adamı da olsalar, bir gün mütləq öləcək və bütün qazandıqlarını

dünyada qoyub gedəcəklər. Özləri isə qazandıqları pulun heç bir faydasını görə bilməyəcək, bədənləri də torpağın altında çürüyüb gedəcək. Sonra isə dünyada etdikləri əməllərdən ötrü haqq-hesaba çəkiləcəklər. Bu haqq-hesab günündə özlərinə pul qazanmaq üçün nə qədər səy göstərdikləri, ya da nə qədər pul yığa bildikləri soruşulmayacaqdır. Allah üçün nə etdikləri, Allahın rizasını qazanıb qazanmadıqları soruşulacaq. Bu səbəblə də dünyaya aid göstərdikləri bütün bu səylər əbəsdir.

Quranda onların bu səylərinin boşa çıxacağı belə bəhs edilir:

**De: "Sizə əməlləri baxımından ən çox ziyana uğrayanlar barəsində xəbər verimmi? O kəslər haqqında ki, onların dünya həyatındakı səyləri boşa çıxmışdır. Çünki onlar yaxşı işlər gördüklərini güman edirdilər. Onlar Rəbbinin ayələrini və Onunla qarşılaşacaqlarını inkar edən, buna görə də bütün əməlləri boşa çıxan kimsələrdir. Odur ki, Qiyamət günü Biz onlara əhəmiyyət verməyəcəyik". (Kəhf surəsi, 103-105)**

## MÜDİR VƏ DİREKTOR XARAKTERİ

Din əxlaqından uzaq cəmiyyətlərdə bir iş yerində bir-birindən fərqli bir çox xarakterə rast gəlmək mümkündür. Bu xarakterlərin hər biri həmin iş yerində özlərinə verilən mövqenin təsirində qalmışdırlar. Hər birinin yerinə yetirdiyi məsuliyyətlər, aldıqları əmək haqqı və digər işçilərə görə mövqeləri bu xarakterləri formalaşdırır. Bu şərtlərin təsiri altında yaranan xarakterlərdən biri də "direktor xarakteri"dir. Bu xarakteri daşıyan kəslərin öz aralarında çox normal qarşıladıqları, amma əslində olduqca səhv bir məntiqin məhsulu olan bir xüsusiyyətləri vardır; vəziyyətə görə dəyişib formalaşan iki xarakteri eyni anda yaşayarlar. Bunlardan biri iş yerində özlərindən mövqe və vəzifə etibarilə yuxarı olan kəslərə, digəri isə aşağı kadrlarda çalışan kəslərə göstərdikləri xarakterdir.

Cahil cəmiyyətdəki bu əxlaqa sahib kəslər müdirlərinin yanında olduqca məzlum bir xarakterə bürünərlər. Onlara həmişə olduqca ehtiram göstərər, hətta bəzən qabaqlarında "ikiqat əyilərlər". İstənilən hər şeyi dərhal yerinə yetirər və ən kiçik bir səhvə yol verməməyə olduqca etina edərlər. Müdirlərinin özlərinə hər cür söz deməyə, lazım gəlsə danlayıb tərsləməyə haqqı çatar. Müdirin bu rəftarları xətirlərinə dəyməz və bunun müdirlərinin haqqı olduğunu düşünərlər. Bütün gücləriylə özlərini bəyəndirməyə və onların gözünə girməyə çalışırlar. Hətta onların

"gözünə girə bilmək" üçün öz işindən kənar başqa ağır işlərini belə görərlər. Bütün bu fədakar rəftarların səbəbi isə çox aydındır; onlara maaşlarını verən və iş yerinin bütün hüquq və səlahiyyətlərini əlində saxlayan adam, müdirləridir, bu səbəbdən də müdirlərin bütün mənfəətləri yenə bu kəslərin əlindədir. Onların dəstəyini və sevgisini qazanmaq, müdirlərin kariyeraları və gələcəkləri baxımından olduqca əhəmiyyətlidir. Bu səbəblə də bu əxlaqdakı kəslər şəxsiyyətlərindən və qürurlarından bəhsi keçən mövzuda güzəştə getməkdən çəkinmirlər.

Yenə burada əhəmiyyətli bir ayrı-seçkiliyi ifadə etməkdə fayda vardır: İnsanların özlərindən vəzifə və ya yaş etibarilə üstün olan birinə ehtiram göstərmələri, hörmət göstərmələri, əmrlərini yerinə yetirmələri, əlbəttə ki, gözəl bir davranışdır. Ancaq bu kəslərin bunu edərkən Allahın rizasını axtarmaları və qarşı tərəfi təmin edə biləcəyi maddi mənfəətlər istiqamətində deyil, onun əxlaqı istiqamətində qiymətləndirməlidirlər.

Halbuki cahil cəmiyyətdə insanlar qarşılarındakı şəxsləri bu cür meyarlar əsasında qiymətləndirməzlər. Maddi zənginliyi olan bir insan əxlaqi cəhətdən olduqca zəif olsa belə, ona dərin bir hörmət bəsləyərlər. Buna qarşılıq özlərinə bağlı olaraq işləyən kəsləri əxlaqlarını heç qiymətləndirmədən əzməyə çalışırlar. Çünki burada da meyarları Allahın rizası deyildir. Cahilliyin səhv məntiqinə görə özləri o insanlardan vəzifə etibarilə və maddi cəhətdən üstündürlər, buna görə də onlara hər cür pis rəftar göstərmə haqqına sahibdirlər. Artıq müdirinin qarşısındakı o əzik insan getmiş yerinə qürurlu, özünə həddindən artıq arxayın olan, "dediyim dedik" bir rəhbər gəlmişdir. Tabeliyindəki kəslərə qarşı olduqca qatı, prinsip sahibi və güzəştə getməyən biridir. Ətrafa əmrlər yağdırar, hər hansı bir çatışmazlıq olduqda isə, əlaqədar adamı hər kəsin ortasında danlamaqdan çəkinməz. Çünki bu kəslərdən heç bir mənfəət əldə etmir. Həmçinin müdirlərinin öz üzərlərində təmin etdikləri qürurlarını onlar da özlərindən aşağı səviyyədə işləyən kəslər üzərində tətbiq etmək istəyərlər. Beləcə şəxsiyyət əldə etdiklərini və müdirlərinin yanında büründükləri əzik şəxsiyyətdən xilas olduqlarını düşünərlər.

Bu iki xarakter arasındakı ziddlik iş yerinin bütün işçiləri və cahil cəmiyyət tərəfindən olduqca normal qarşılanır. Çünki sistemin belə işlədiyi düşünülər. Bu batil sistemə görə şirkətin sahibi müdirlərə, müdirləri katiblərə, katibləri də xadiməyə, ya da idarəxidmətçilərinə istədikləri rəftarları göstərməkdə sərbəstdirlər. Bu siyahıya tərsinə baxdıqda isə hər kəs özündən üstün olana qarşı əlindən gələn ən yaxşı davranışları göstərər və tələb olunanı ən dəqiq şəkildə yerinə yetirər. Ancaq bir-

birlərinin yanında olmadıqda nifrətlərini dilə gətirməkdən çəkinməzlər və göstərdikləri hörmət də heç vaxt həqiqi bir hörmət olmaz.

Açıq şəkildə göründüyü kimi bu, olduqca yanlış bir sistemdir. Çünki bu insanlar gözəl davranmağı bildikləri halda sırf bir-birlərindən mənfəət əldə etmədikləri üçün bu rəftarları bir-birlərinə göstərməyə ehtiyac duymaz və ancaq bəhsi keçən mənfəətlər olduğunda istifadə edərlər. Bu rəftarlar cahil sistemin yanlışlığı içərisində gözə batmaz və gündəmə gətirilməz. Halbuki bu Qurana görə böyük bir vicdansızlıq nümunəsidir. Çünki insan vicdanının və ağlının çatdığı səviyyədə, şərtlər nə olursa olsun, hər hansı bir maddi və ya dünyəvi dəyər güdmədən, ən gözəl rəftarları göstərməklə məsuldur. Allah insana tolerant və təvazökar olmasını əmr etmişdir.

Çünki insanın özünü ətrafındakı kəslərdən üstün görə biləcəyi, özünə aid heç bir xüsusiyyət yoxdur. Mövqe də, məqam da ancaq Allaha aiddir. Onu qullarından istədiyinə verər və istədiyini ucaldar. İstədikdə isə insanın vəziyyətini tam tərsinə çevirməyə və ona verdiyi bütün imkanları geri almağa qadirdir. Məhz bu səbəblə də insan Allaha hər an itaət etmək məcburiyyətindədir. Allah insana bu mövqeyini və acizliyini Quranda belə xatırlatmışdır:

**Yer üzündə lovğalanaraq gəzmə. Çünki sən nə yeri yara bilər, nə də yüksələrək dağlara çata bilərsən. (İsra surəsi, 37)**

Məhz mömin, bu əxlaqı yaşayan insandır. Yer üzündə qarşısında hər kim olursa olsun lovğalanmır və Allaha qarşı məsul olduğunu unutmur. Bu səbəblə də belə dəyişkən və səmimiyyətsiz bir xarakteri özünə yaraşdırmaz. Allahın bəyəndiyi əxlaqı hər an, hər yerdə, hər kəsə qarşı göstərər. Qarşısındakı insanın məqamı, mövqeyi nə olursa olsun hörmətli və nəzakətli bir rəftar göstərər. Amma bu gözəl rəftarlarına qarşılıq o adamdan bir mənfəət gözləməz; əksinə hər yaxşı əməlin qarşılığını Allahdan gözləyər, Onun rizası üçün səy göstərər.

## KATİBLİK XARAKTERİ

Cahil cəmiyyətdə bəzi peşələr digərlərinə görə daha göstərişli, bəziləri isə daha sadə sayılar. Katiblik bir çox peşəyə görə daha sadə qəbul edilir. Bunun ən əhəmiyyətli səbəblərindən biri isə, bu kəslərin bir adamın köməkçisi olaraq

işləmələridir. Bu səbəblə də cahil cəmiyyət içində katiblərdən özlərindən peşələrini nə olduğu soruşulduqda çox vaxt "assistentlik edirəm" kimi cavablar verərək özlərini daha keyfiyyətli göstərmək istəyirlər. Bu peşənin cəmiyyətin bəzi dairələrində çox etibar qazandıracaq bir xüsusiyyət daşımamasından ötrü, kariyera sahibi müdirləriylə və onların köməkçisi olmaqla öyünərlər. Halbuki bir insan təmiz bir işdə, halal yollarla pul qazanırsa bununla kifayətlənməlidir. Heç kimin cahil meyarlara görə üstün bir mövqeyə sahib olması, ətrafındakı insanlardan etibar görməsi lazım deyil. Bir insanı qiymətli edən və ona həm dünyada, həm də axirətdə gözəl bir həyat təmin edəcək olan, Allahın rizasını güdərək gördüyü işlərdir.

Cahillik əxlaqı isə əvvəldə də ifadə etdiyimiz kimi tam fərqli və çox səhv meyarlara malikdir. Bu səhv dəyər mühakimələrini mənimsəmiş olan katiblər də daxilən müdirlərinə qarşı böyük bir heyranlıq bəsləyirlər. Onları himayədarları kimi görərlər. Bu səbəblə də öz üzərlərində hər cür haqqa sahib olduqlarını düşünürlər. Tərs rəftarlarından, əmrlər yağdırmalarından, ya da hər cür işlərini gördürmələrindən heç bir şəkildə inciməz və narahatlıq duymazlar. Əksinə onlar özlərindən gözləniləndən xeyli çoxunu edər və müdirlərini məmnun etmək üçün böyük bir səy göstərərlər. Çünki müdirləri bir mənada onların gələcəyi deməkdir. Onları iş həyatında daha yaxşı bir mövqeyə gətirə biləcək, dost-tanış dairəsinə sahib olmalarını təmin edə biləcək və hətta əgər çətin vəziyyətdə qalsalar kömək edə biləcək tək adamın yenə müdirləri olduğunu düşünürlər.

Əslində gördükləri işlərin əksəriyyəti bir katibin işinə aid olan şeylər deyil. Amma cahil cəmiyyətdə katiblər verilən hər vəzifəni etməklə məsuldurlar. Bunu fürsət bilən müdirlər də onları mümkün qədər işlədərlər. Gün ərzində əsəbiləşərək daima katibin üstünə qışqırıb-bağırarlar. Katibləri bütün bunlar qarşısında səssiz qalar, müdirlərinin üzünə qarşı gülər, amma fürsət tapdıqca da arxalarından qeybətini qırarlar.

Bu vaxt katibləri də müdirlərindən gördükləri iş əxlaqını başqalarına tətbiq edərlər. Onlar da öz işlədikləri mühitdə əmrlər yağdırıb işlərini etdirə biləcək bəzilərini mütləq taparlar. Bu kəslər adətən çayçılar ya da təmizlik işçiləri olar.

Xüsusilə də yuxarı vəzifədə işləyən birinin katibliyini edənlər, şirkətin digər işçilərinə qarşı olduqca qürurlu rəftarlar göstərərlər. Çünki özlərini böyük bir şirkətin müdirinə ən yaxın adam mövqeyində görərlər. Cahil sistemdə holdinq şirkəti müdirinin katibinin şirkət daxilində, cahil məntiqinə görə bir üstünlüyü vardır. Bütün müdirləri patronun daxil olmadan əvvəl onunla əlaqə saxlamaq məcburiyyətindədir.

Çox vaxt müdirin ruh halını katibindən soruşarlar. Katibləri də bu vəziyyəti fürsət bilib, digər işçilərə davamlı əmrlər yağdırar, xüsusilə aşağı vəzifədə işləyən işçiləri danlayarlar.

Cahiliyyə əxlaqının yaşandığı bir cəmiyyətdə bu xarakterdə yalan danışmaq, bütün rəftar pozuqluqlarına göz yummaq, arxasından danışmaq və ikiüzlü davranmaq kimi daha bir çox cahiliyyə rəftarını görmək mümkündür. Bütün bunlar tək bir adamın məmnuniyyətini qazanaraq ondan mənfəət əldə etmə məqsədini daşıyır.

Halbuki insana dünyada və axirətdə mənfəət təmin edə biləcək tək güc Allahdır. İnsanların gözünə girməyə və onların məmnuniyyətini qazanmağa çalışan kəslər, əsl məmnuniyyətinin qazanılması lazım olanın yalnız Allah olduğunu unudarlar. Möminlər isə, yalnız Allahın məmnuniyyətini qazanmağa çalışanlardır. Heç vaxt insanları gözlərində böyüdüb, onları güc sahibi zənn edib, onlardan mənfəət umma kimi səhv bir fikirlərə düşməzlər. Talelərinin və gələcəklərinin ancaq Allahın nəzarətində olduğunu bilirlər.

## HƏKİM XARAKTERİ

Həkimlik peşəsi xüsusilə dövrümüzün cəmiyyətlərində xalq tərəfindən əl üstündə tutulan və hər dairədə hörmət oyandıran bir peşə sahəsidir. Həqiqətən də insanların sağlamlığı üçün çalışmaq ciddi bir səy və fədakarlıq tələb edir. Ancaq Quran əxlaqından uzaq cəmiyyətlərdə insanların həkimlərə olan dünyagörüşləri və həkimlik peşəsini seçənlərin də bundan ötrü daşıdıqları xarakter bəzi fərqliliklər göstərər.

Əvvəlcə bəzi insanlar həyatlarının həkimlərin əlində olduğu kimi səhv bir inanca sahibdirlər. Buna görə də bu peşənin sahiblərindən "mədət umarlar".

Ailələrin əksəriyyəti uşaqlarının həkim olmasını istəyər və uşaqlarına bu istiqamətdə təlqin verərlər. Bu səbəblə də "böyüdükdə həkim olacağam" deməyən uşaq demək olar ki, yox kimidir. Şübhəsiz ki, ata anaların uşaqlarını insanlara fayda verəcək bir peşəyə yönəltməsi gözəl bir davranışdır. Ancaq cahil cəmiyyətdə ailələrin uşaqlarını bu peşəyə yönlədirməsindəki ilk məqsəd ətraflarından tərif toplamaqdır. Digəri isə ailənin hər hansı bir xəstəliyi olduğunda, həkim olan uşaqlarının özlərinə ən yaxşı şəkildə baxacağını düşünmələridir. Beləliklə də ailə üzvləri özlərini bir cür

arxayın hiss edərlər. Yenə eyni səbəblərdən ötrü həkimlər ən məqbul kürəkən namizədləridir.

Cahil cəmiyyətin həkimlərə olan bu səhv dünyagörüşü, insana tibb fakültəsinə girdiyi andan etibarən aşılanmaya başlanır. Ağ önlüklə xəstəxana koridorlarında yeriyən həkim namizədləri qarşılarında tək bir model görərlər. Onlara öyrədilən həkim modelində həkimlər əvvəlcə özlərindən çox arxayın olurlar və özlərinin hər şeyi bildiyini zənn edərlər. Xəstələrin başa düşə bilməyəcəyi bir dillə danışıb, cümlələrinin içində bir çox tibbi termindən istifadə edərlər. Bu kəslər, əlbəttə ki, xəstələrinin bu sözləri başa düşməyəcəyini bilirlər. Amma yenə də bu xarakterlərini dəyişdirməz, bunu həkimliyin bir tələbi olaraq mənimsəyirlər. Bəhsi keçən əxlaqın yaşandığı cəmiyyətlərdə həkimlərin böyük bir qisminin məzun olduqdan sonra sonra dünyada bir neçə məqsədləri qalar; tanınmış bir mütəxəssis və ya professor olmaq, məşhur bir klinikaya sahib olmaq, mümkün olduqca çox pul qazana bilmək və s.

Bəzi cəmiyyətlərdə insanlara verilən ən böyük təlqin, həyatlarının həkimlərin əlində olduğu yanılmasıdır. Məhz bu kimi cəmiyyətlərdə həkimə göstərilən ehtiram və hörmətin altında insanların bu səhv düşüncəylə yetişdirilməsi yatır. Özlərini bir damla sudan yaradan, onlara ruzi verən Uca Allahın üstün güc və qüdrətindən tamamilə xəbərsiz yaşayan cahil cəmiyyət, zehinlərində sanki ilahiləşdirdikləri həkimləri (Allahı tənzih edirik) fövqəlbəşər güclərə sahib bir varlıqmış kimi qəbul etmə kimi səhv anlayışa qapılarlar. Xəstəliklərindən xilas olmaq üçün cahil şəkildə onlardan mədət umarlar. Halbuki Allah insanları xəbərdar etmiş və hər insanın ancaq bir qul olduğunu bildirmişdir:

**Allahdan savayı sitayiş etdikləriniz də sizin kimi qullardır. Əgər doğru deyirsinizsə, dərhal çağırın onları, sizə cavab versinlər. (Əraf surəsi, 194)**

Əlbəttə ki, bir insanın şəfa üçün həkimə getməli, onun tövsiyə edəcəyi şeyləri tətbiq etməlidir. Amma bunu edərkən unutmamaq lazımdır ki, insanlara xəstəliyi də, şəfanı da verən Allahdır. İnsanların harada və necə öləcəyini də yalnız Allah təyin edər. Allah hər kəs üçün bir ölüm vaxtı müəyyənləşdirdiyi halda, insanlar bundan xəbərsiz o günə doğru yaxınlaşarlar. Bu böyük həqiqəti unudaraq qəflət içində yaşayan insanlar Allaha dua etməyi unudar, amma həkimlərin özlərinə kömək

edəcəyinə ümid edərlər. Özlərindən bu qədər ciddi şeylərin gözlənilməsi, Quran əxlaqından uzaq yaşayan həkimlərdə də fərqli bir qürur hissi yaradar.

Bəzi həkimlərin özəl klinikalarındakı göstərdikləri rəftarlarıyla, xəstəxanada işlədikləri vaxt göstərdikləri rəftarlar arasındakı fərq də cahiliyyə meyarlarının yanlışlığını ən gözəl şəkildə göstərir. Klinika özəl bir qurum olduğu üçün bura gələn xəstələr də adətən maddi baxımdan varlı kəslərdir. Cahil insanların pul hərisliyi, varlı insanlara qarşı olduqca nəzakətli davranmağı tələb edir, bəzi həkimlər bura gələn xəstələrə qarşı olduqca nəzakətli davranarlar. Çünki müayinə olunmağa gələn adam bu həkimi özü seçmişdir. Gördüyü diqqəti bəyənmədiyi təqdirdə pulunu ödəyərək başqa həkimə gedə biləcək gücdədir.

Hadisələrin digər bir tərəfi də vardır. O da bəzi həkimlərin maddi baxımdan varlı olmayan xəstələrə qarşı olan rəftarlarıdır. Pulu olmayanın cahil sistem içərisindəki mövqeyi həmişə əzilməyi tələb etdiyindən, bu səhv məntiqləri xəstəxanalarda çalışan bəzi həkimlər də tam mənasıyla mənimsəmişdirlər. Həkimlərin xəstəxanalarda ünsiyyətdə olduqları şəxslər çox vaxt kasıb insanlardır. Buna görə də cahil məntiqiylə hərəkət edən bəzi həkimlər özlərini xəstəxananın ən təcrübəli həkimi olaraq görərlər. Cahiliyyə məntiqində bu xəstələrə dəyər verilmədiyi üçün xəstəxanalarda elə də çox üzlərinə baxılmaz. Hətta bir çox xəstəxana işçisi də eyni səhv dünyagörüşünə sahibdir. Bir yer və ya həkim adı soruşan xəstələrə olduqca soyuq davranarlar. Onlar da bu mühitə uyğunlaşaraq şəfqət və mərhəmət hisslərindən uzaqlaşmış, gördükləri mənzərələrə alışmışdırlar. Xəstəxanaya gələn xəstələr hələ xəstəxananın qapısından daxil olarkən qapıda dayanan gözətçinin əsəbi və kobud rəftarlarıyla qarşılaşarlar.

Cahil əxlaqın hakim olduğu cəmiyyətlərdə həkimlərin böyük bir hissəsi çox az bir maaşla xəstəxanalarda gecə-gündüz işləyirlər. İllərlə bu yerlərdə işlədikdən sonra da ən çoxu bir gözləmə otağı və bir xəstə otağı olan, bir klinikaya sahib olarlar. Bu, bir çox həkimin həyatdakı ən böyük idealıdır. İnsanlara yaxşılıq etmək və kömək etmək, əlbəttə ki, təqdir ediləcək bir davranışdır. Ancaq cahil əxlaqın hakim olduğu həkim xarakterində bu ağır işin təməlində yalnız mövqe, maddiyyat, şöhrət kimi dünyəvi gözləmələr vardır. Halbuki hansı peşədə işləyirsə işləsin adamı şərəfli, hörmətli və etibarlı edəcək şey bu adamın Allahın sevgisini, rizasını və axirəti qazanmaq üçün səy göstərməsi və öz acizliyini bilərək çalışmasıdır.

Unudulmamalıdır ki, peşəsi nə olursa olsun hər insan qısa bir həyat yaşayıb axirət həqiqətiylə qarşılaşacaq. Öldükdən sonra neçə xəstəyə baxdığı, tibbi

terminləri kifayət qədər bilib-bilmədiyi, peşəsindəki dərəcəsi və bu tərz cahillik meyarları deyil, Allah rizası üçün necə işlər gördüyü soruşulacaq. Lakin din əxlaqından uzaq cəmiyyətlərdəki həkimlərin əksəriyyəti bu həqiqətləri görüb dərk edə bilməzlər. Çünki cahilliyin illərlə özlərinə verdiyi güclü təlqinin təsiri altındadırlar. Onlar üçün yalnız cəmiyyətin məmnuniyyətini qazanmaq, insanların gözündə etibar sahibi olmaq vacibdir.

Quran əxlaqına uyğun olan isə görülən hər işin yalnız Uca Allahın rizasını qazanmaq məqsədiylə görülməsidir. Möminlər peşələri nə olursa olsun gözəl bir əxlaq göstərərlər. Möminlər yanlarında olan xəstə, gücsüz və zəif insanların ən böyük dəstəkçisi və köməkçisidirlər. Bu davranışlar onların Qurana tabe olmalarından və Allahın əmr etdiyi əxlaq anlayışından əsla uzaqlaşmamalarından qaynaqlanar. Qurana möhkəm bağlanmış olan bir insan, tibb elmini qavraya bilməsinin ancaq Allahın istəyi ilə olduğunu, şəfa verəcək hər şeyi Allahın yaratdığını bilir. Bu səbəblə də etdiklərinə, ya da bildiklərinə Allah istmədikcə sahib ola bilməyəcəyini açıq şəkildə görür. Özünün də hər an xəstələnə biləcəyini və bu vəziyyətdə də Allahdan başqa köməkçi və şəfa verici olmadığını unutmaz. Hz. İbrahimin Quranda bildirilən bu mövzudakı duası bütün insanların özlərinə nümunə götürməsi lazım olan yüksək bir əxlaqı əks etdirir:

**O Rəbb ki, məni yaratmış və məni doğru yola yönəltmişdir; O Rəbb ki, məni yedirdir və içirdir; O Rəbb ki, xəstələndiyim zaman mənə şəfa verir; O Rəbb ki, məni öldürəcək, sonra diriləcəkdir; O Rəbb ki, Haqq-hesab günü xətalarımı bağışlayacağını Ondan umuram. (Şuəra surəsi, 78-82)**

## CAHİLLİKDƏ TİBB BACISI XARAKTERİ

Əvvəlcə qeyd etmək lazımdır ki, insanlara mərhəmətlə yanaşan, az bir qarşılıq əvəzində olduqca fədakar bir şəkildə səhərə kimi xəstə insanlara kömək etməyə çalışan bir çox tibb bacısı vardır. Ancaq burada cahilliyin din əxlaqından uzaq xarakterini yaşayan kəslərdən bəhs ediləcəkdir.

Bu cür insanlar gün ərzində ən ağır vəziyyətdəki xəstələrlə iç-içə yaşadıqları üçün xəstələrin bütün problemlərinə vərdiş etmişdirlər. Hətta vicdani cəhətdən xeyli nəzakətsiz olan bir qismi, şəfqət və mərhəmətlə kömək etmək əvəzinə sakit və laqeyd bir rəftarla xəstələri gözlətməyi, biganə davranmağı və hətta danlamağı belə

normal rəftarlar halına gətirmişdir. Belə insanlar, xəstələrin əksəriyyətinin xəstə psixologiyasıyla hərəkət etdiklərini və vəziyyətlərini şişirtdiklərini düşünərək və özlərindən tələb edilən köməyi əsirgəyərlər.

Acizlik içərisindəki xəstələrin özlərinə möhtac olduğunu bilmələri cahil əxlaqdakı bəzi tibb bacılarını qürurlu bir rəftara yönəldər. Xəstələrə yuxarıdan aşağı baxan, onları dəyər verməyən və hətta bəzən də alçaldan bir rəftar göstərərlər. Çünki özləri möhtac olunan insan mövqesindədirlər. Onlara görə bu qədər "əhəmiyyətli insanların" adi insanlara qarşı olan rəftarları da normal olaraq qürurlu və kobud olmalıdır.

Bu pis əxlaqı yaşayan kəslərin bir-birlərinə qarşı olan rəftarları da xəstələrə olan rəftarlarından elə də fərqlənmir. Hər kəs olduğu mövqeyə görə davranar. Məsələn, baş tibb bacısına çox hörmət göstərdikləri halda, digər tibb bacılarına xor baxarlar.

Cahillik əxlaqını yaşayan bəzi evdar qadınların fikirləri necə ki, evin dörd divarı arasına sıxışıb qalmışdırsa, bir qisim tibb bacıları da eyni xarakterlə xəstəxana sərhədləri daxilində sıxışıb qalmışdırlar. Bu dünyada özlərini gözlərində çox böyüdər və qürurlanarlar. İnsanlara özlərinin şəfa verdiklərini zənn edər, yalnız bir vəsilə olduqlarını düşünməzlər. Halbuki xəstləndiklərində özlərinə şəfa verə bilmədiklərinə, zərərə mane ola bilmədiklərinə özləri də açıq şəkildə şahid olarlar. Amma yenə də bir çoxu bu batil inanclarından imtina etməzlər. Allah bir ayəsində Özündən başqa heç kimin zərər və ya fayda verməyə qadir olmayacağını belə bildirir:

**Əgər sən onlardan: "Göyləri və yeri kim yaratmışdır?" - deyə soruşsan, onlar mütləq: "Allah!" - deyəcəklər. De: "Bir deyin görək, əgər Allah mənə bir zərər toxundurmaq istəsə, sizin Allahdan başqa ibadət etdikləriniz Onun zərərini aradan qaldıra bilərlərmi? Ya da O mənə bir mərhəmət göstərmək istəsə, onlar Onun mərhəmətinin qarşısını ala bilərlərmi?" De: "Mənə Allah yetər. Təvəkkül edənlər yalnız Ona təvəkkül edirlər!" " (Zumər surəsi, 38)**

Allah insanlara, yalnız Özünə güvənmələrinin lazım olduğunu bildirmişdir. Daha əvvəl hz. İbrahimin Quranda bildirilən duasında gördüyümüz kimi, möminlər yalnız Allaha təvəkkül edən, köməyi yalnız Ondan gözləyən insanlardır. Allahın yaratdığı bir faydanın və ya zərərin yenə Ondan başqa qarşısını ala biləcək bir güc

olmadığına səmimi şəkildə iman edərlər. Dünyadakı bütün dərmanların, həkimlərin, tibb bacılarının və ya tətbiq olunan bütün müalicələrin Allahın insanlara şəfa vermək üçün yaratdığı vəsilələr olduğunu unutmazlar.

## TACİR XARAKTERİ

Cəmiyyətdə işləyən seqmentin böyük bir hissəsi tacir adı altında təsnif edilir. Mağaza sahiblərindən kiçik tacirlərə, dəzgaha baxan şəxslərdən küçə satıcılarına qədər bir çox peşə sənətkar tərifinə daxildir. Cahillik əxlaqının yaşandığı cəmiyyətlərdə, tacir olaraq xarakterizə edilən kəslərin də bir çox peşə qrupu kimi özünəməxsus bəzi xüsusiyyətləri vardır.

Bir çox cahillik xarakterində olduğu kimi cahilliyin tacir xarakterinə istiqamət verən ən əhəmiyyətli amili də yenə maddi dəyərlərdir. Daha çox cəmiyyətin orta səviyyəli təbəqəsindən gələn bu insanların böyük bir hissəsi, cahil əxlaqı yaşadıqları və Qurana tabe olmadıqları üçün pul qazanmaq uğrunda hər cür hala girə bilən bir xarakterə yiyələnmişdirlər. Çünki cəmiyyətdə yer tuta bilmələri və hörmətli bir sifət qazana bilmələri ancaq zəngin olmalarıyla mümkün olar. Çünki cahil cəmiyyətdə adamın əxlaqından, peşəsindən və ya kariyerasından əvvəl gələn ən əhəmiyyətli meyar zənginliyidir. Adamın maddi bir gücü olduğu vaxt, onun nə cəhaləti, nə mədəniyyətsizliyi, nə də xarici görünüşü bir problem meydana gətirər. Maddi güc həmişə hər cür imkanın qapısını aça bilər.

Bu səbəblə də cahillik meyarlarına görə yaşayan tacirlərin çoxu, yaxşı pul qazanmağın yollarını axtarar və bütün həyatları da bundan ibarət bir hala gələr. Əlbəttə ki, bir insanın maddi qazancının yaxşı olması üçün səy göstərməsində heç bir qəbahət yoxdur. Ancaq bir insanın bunu edərkən malın və zənginliyin həqiqi sahibinin Allah olduğunu, Allahın istədiyini zəngin, istədiyini kasıb etdiyini və bunda bir çox hikmət olduğunu unutmamalıdır. Qəniyy (çox zəngin, heç nəyə ehtiyacı olmayan) olan Rəbbimiz Allahın verdiyindən razı olmalı, Allahın məmnunluğu və rizası üçün zəngin olmasını istəməli və Allahın lütfü olan malı yenə Allah yolunda ən yaxşı şəkildə qiymətləndirməlidir. Belə olmadıqda isə, çox eqoist və mənfəətçi bir xarakter formalaşa bilər. Bu səbəblə də cahillikdəki tacir xarakterində olan bir çox adamın böyük ideallara sahib, mənəvi keyfiyyətləri güclü bir fərd olmaq kimi hədəfləri yoxdur; ən böyük məqsədləri zəngin olub dünya ilə bağlı mənfəətlər əldə

etməkdir. Ümumiyyətlə öz mənfəətini güdən bir xarakterə yiyələnərlər. İnsanlardan nə qədər mənfəət əldə etsələr özlərini o qədər çoxbilmiş görərlər.

Bu hərisliyin bir nəticəsi olaraq bəzi insanlar tərəfindən fırıldaqçılıq, saxtakarlıq bu peşənin normal tərəflərindən biri kimi görünər. Əlbəttə ki, bu təbəqə içərisində İslam əxlaqını mənimsəyən, Quran əxlaqına uyğun davranan və həmişə dürüst olan insanlar da vardır. Bu peşədə işləyən insanlar mütləq dürüstlükdən imtina etməməlidirlər. Burada bəhs edilən fırıldaqçılıq, saxtakarlıq din əxlaqından uzaq cahil sisteminin verdiyi nəticələrdir. Məsələn, cahil cəmiyyətdə ticarətlə məşğul olan şəxslərin bir qismi əllərindəki zədələnmiş əşyaları heç çəkinmədən sağlammış kimi sata bilərlər. Bundan ən kiçik bir vicdan əzabı hiss etmədikləri kimi bir qismi də özlərinə bunu peşə olaraq seçmişdirlər. Qüsurlu əşya alar və bunu sağlam qiymətinə müştərilərinə satarlar. Bu kəslərin gördüyü bu işə eyni ətrafdakı bütün tacirlər şahid olar, amma çox vaxt heç biri qarşı çıxmaz. Çünki bu insanlara görə bunlar ticarət həyatının tələbidir. Müştəri anlayışı bu insanların bir qisminə aldadılacaq və pul qazanılacaq kəsləri ifadə edər. Halbuki Allah bütün insanlara ticarətdə ədalətlə davranmalarını, insanları aldatmamalarını əmr etmişdir:

**Ölçdükdə ölçüyə tam riayət edin, çəkdikdə düzgün tərəzi ilə çəkin. Bu, daha xeyirli və nəticə baxımından daha yaxşıdır. (İsra surəsi, 35)**

**Davud dedi: "O sənin qoyununu öz qoyunlarına qatmaq istəməklə, sənə qarşı haqsızlıq etmişdir. Həqiqətən, şəriklərin çoxu bir-birinin haqqını tapdalayar. Yalnız iman gətirib yaxşı işlər görənlərdən başqa. Onlar isə çox azdırlar!"... (Sad surəsi, 24)**

Tarix boyu bütün cahil cəmiyyətlərdə Allahın bu əmrlərinə tabe olmayan, ədalətsizlik etməkdə, insanları aldatmaqda inadkar bir əxlaq nümayiş etdirən insanlar olmuşdur. Allah elçiləri vasitəsiylə bu insanları xəbərdar etmişdir. Hz. Şüeybin qövmünə bu mövzuda etdiyi xəbərdarlıqlar Quranda belə xəbər verilir:

**Mədyən qövmünə də qardaşları Şueybi göndərdik. O dedi: "Ey qövmüm! Allaha ibadət edin. Sizin Ondan başqa ibadətə layiq olan məbudunuz yoxdur. Ölçünü və çəkini əskiltməyin. Mən sizi bolluq içində görürəm və qorxuram ki, başınıza hər şeyi**

**bürüyən günün əzabı gələ. Ey qövmüm! Ölçüyə və çəkiyə ədalətlə tam riayət edin, insanların mallarını əksik verməyin və yer üzündə fəsad yaymaqla pis işlər görməyin! Əgər möminsinizsə, bilin ki, Allahın saxladığı nemətlər sizin üçün daha xeyirlidir. Mən sizin üstünüzdə gözətçi deyiləm" (Hud surəsi, 84-86)**

Ancaq əsasən cahil cəmiyyətlərdə insanlar, sahib olduqları çirkin əxlaqdan ötrü bu xəbərdarlıqları qulaq asmamış və bu səbəbdən də həm dünyada bir çətinlik ilə qarşılaşmışdırlar, həm də axirətdə bu hərəkətlərinə görə mütləq cavab verəcəklər. Cahil cəmiyyətdə bu xarakteri daşıyan insanlar mənfəət əldə etmək üçün lazım gəldikdə sadə rəftarlar göstərməkdən də çəkinmirlər. Cahilliyin bu yanlış məntiqini piştaxta arxasında işləyən bir qisim insanlarda da görmək mümkündür. Cahil cəmiyyətə ayaq uydurmuş olan bu kəslər, müştərilərinə bir əşya sata bilmək üçün hər cür yolu sınayarlar. Yaraşmadığı çox açıq şəkildə görünən bir geyimin yaraşdığını sübut etmək üçün hər cür yalanlar danışar, uzun-uzadı dil tökərlər.

Bu tip kəslərin cəmiyyətdə ən çox hörmət göstərdikləri kəslər isə zəngin insanlardır. Onların hər cür işini görməyi öz aləmlərində böyük bir fürsət kimi görərlər.

Cahil cəmiyyətin böyük bir hissəsi kimi, bu insanların da bir qismi İslam dinini tanıyır və Allahın qoyduğu əmr və qadağaları olduqca yaxşı bilirlər. Ancaq buna baxmayaraq sırf dünya həyatından mənfəət əldə etmək məqsədiylə bu əmr və qadağaların bir çoxuna tabe olmazlar.

Bununla yanaşı pul qazanmaq üçün olduqca həris bir xarakter göstərən, heç bir fədakarlıqdan çəkinməyən bu insanlar, özlərini yaradan və sahib olduqları hər şeyi onlara verən Allahın əmrlərini yerinə yetirmə mövzusunda olduqca qapalı və istəksiz davranırlar. Allah bu karakterdəki insanları və həmçinin də bütün insanları dünyaya bu qədər bağlanıb axirəti unutmamaları mövzusunda bir çox ayəsi ilə xəbərdar etmişdir:

**Ey iman gətirənlər! Nə mallarınız, nə də övladlarınız sizi Allahın zikrindən yayındırmasın!. Bunu edənlər ziyana uğrayanlardır. (Munafiqun surəsi, 9)**

**De: “Əgər atalarınız, övladlarınız, qardaşlarınız, zövcələriniz, yaxın qohumlarınız, qazandığınız mallar, iflasa uğramasından qorxduğunuz alış-verişiniz və bəyəndiyiniz evlər sizə Allahdan, Onun Elçisindən və Onun yolunda cihaddan daha əzizdirsə, Allah Öz əmri ilə gəlincəyə qədər gözləyin. Allah fasiqləri doğru yola yönəltməz”. (Tövbə surəsi, 24)**

Məhz möminlərin fərqi və Allah qatındakı üstünlükləri də buradadır. Onlar da lazım gəldikdə günlərinin böyük hissəsini işləyərək, pul qazanmaq məqsədiylə keçirə bilərlər. Ancaq onlar yaxşı bir qazanc əldə etməyi, Allahın rizasını qazana bilmək, Onun məmnun olacağı işlərdə xərcləmək məqsədiylə istəyərlər. Həmçinin gördükləri iş nə olursa olsun, heç vaxt Allahı zikr etməyi və axirəti düşünməyi unutmazlar. Allahın əmrinin tələbinə görə insanlara əsla haqsızlıq və ədalətsizlik etməz, heç kimin haqqını yeməzlər. Allah bu gözəl əxlaqlı insanları Quranda belə tanıtmışdır:

**O kəslər ki, nə ticarət, nə də alış-veriş onları Allahı zikr etməkdən, dosdoğru namaz qılmaqdan və zəkat verməkdən yayındırmır. Onlar qəlblərin və gözlərin çevriləcəyi bir gündən qorxurlar. (Nur surəsi, 37)**

## MƏMUR XARAKTERİ

Cahil məntiqində məmur xarakteri daşıyan insanlar arasında fərqli bir ruh halı hakimdir. Bu səbəblə də bu kəslərin "məmur" olduqları, onlara baxan kimi aydın olar. Ancaq məmur olduqlarını göstərən gördükləri iş deyil, üzlərindəki ifadə və göstərdikləri rəftarlardır. Cahiliyyə əxlaqındakı bu insanların rəftarlarına istiqamət verən səhv məntiq isə budur; bu kəslər sabit maaşlarla sabit mövqelərdə olurlar. Bu səbəbdən də normadan artıq göstərəcəkləri bir səy onlara nə maaşları, nə mövqeləri, nə də etibarları baxımından əlavə bir mənfəət qazandırmayacaq. Bu vəziyyətdə əlavə bir iş görməklə yalnız boşuna yorulacaqlarını düşünürlər. Bundan əlavə, əgər görüləcək əlavə bir iş varsa bunu başqasının üstünə buraxmaq olduğu halda, öz üstlərinə götürməyi də cahil dünyagörüşüylə "giclik" olaraq qiymətləndirərlər. İşlərini həll etmək üçün gələn kəslərə göstərəcəkləri rəftarlara da heç diqqət göstərməzlər. Çünki bu insanlara göstərəcəkləri gözəl əxlaqlı bir rəftarı da "əlavə iş" olaraq qiymətləndirərlər.

Məhz bu düşüncələrindən ötrü cahiliyyə əxlaqına sahib olan məmurların böyük bir hissəsi ətraflarındakı şəxslərə qarşı laqeyd bir xarakterə yiyələnərlər. Yalnız özlərinə verilən işi görər və bundan başqa bir şey istənildiyi vaxt, ya heç maraqlanmaz, ya da başqasına istiqamətləndirirlər. Ofisə gəlib özlərindən bir şey soruşan adamın ya heç üzünə baxmaz və ya baxıb heç bir cavab vermədən başlarını aşağı salar və işlərinə davam edərlər. Qarşılarındakı adamı zərər çəkmiş bir vəziyyətdə buraxmaqdan heç bir narahatlıq hissi keçirməzlər. Cahiliyyə əxlaqındakı məmurların bu başdan sovma və yola verən rəftarları artıq, demək olar ki, bütün cəmiyyətin əzbərlədiyi bir mənzərədir. Qarşılarındakı kəslərə dəyər verməz və sırf öz rahatlıqları üçün lazım gəlsə onları səbəbsiz yerə saatlarla növbələrdə gözlədə bilər, ya da stol-stol gəzdirə bilərlər. Biganəliklərindən ötrü mənəvi keyfiyyətlərinin bir çoxu korlanmışdır. Vəziyyəti başa düşmək, incə düşünmək, nəzakət, ya da xoş münasibət göstərmək üçün bir səbəb görmürlər. Bu rəftarları göstərsələr də, göstərməsələr də onsuz da maaşlarını alacaqlar. Və onsuz da qarşılarındakı insanı da bir daha görməyəcəklər. Bu səbəblə də hər şeyləri mexanikləşmişdir. Az danışar, az gülər, az düşünər və yalnız özlərinə verilən işi görərlər. Halbuki Allahın əmr etdiyi əxlaqı yaşayan insanların belə rəftarlar göstərmələri mümkün deyil. Onlar digər insanlara qarşı hər vəziyyətdə hörmətli, qayğıkeş və nəzakətli bir rəftar göstərərlər. Çətin vəziyyətdə qalan kəslərə əllərindən gəldiyi qədər kömək edər, o an kömək edə biləcək bir imkanları olmasa belə heç olmasa gözəl bir sözlə qarşılıq verərlər.

Burada təsvir edilən məmur xarakterinə sahib kəslərin başqa bir xüsusiyyətləri də hər cəhətdən klassikləşmiş, yəni həmişə eyni rəftarları göstərən, hadisələr qarşısında müəyyən reaksiyalar verən kəslər olmalarıdır. Gündəlik həyatlarının gedişatı, görüşdükləri insanlar, danışdıqları mövzular, vərdişləri, zövqləri tamamilə bu klassik xarakterin təsiri altındadır. Hələ də gəncliklərindəki dəbdə olan tərzdə geyinər, eyni saç stillərinidən istifadə edərlər. Yeniliklərə tamamilə qapalı bir xarakterləri vardır. Heç bir mövzuda alışdıqları rejimi pozmaq istəməzlər. Onları edəcəkləri yeniliyin əvvəlkindən daha gözəl olacağına inandırmaq mümkün olmaz. Bütün işlərini köhnəlmiş alətlərlə və köhnəlmiş üsullarla görər, saatlarla məşğul olar və vaxt itirərlər. Amma yenə də alışdıqları stildən imtina etməzlər.

Bütün bu izah edilənlərdən də aydın olacağı kimi cahillik əxlaqının məmur xarakterini yaşayan insanların böyük bir qismi həm əxlaqlarında, həm də ictimai həyatlarında tənbəl və passiv bir rəftar nümayiş etdirirlər. Mənfəət qazanacaqlarını düşündükləri bir hadisə olmadığı müddətcə də bu əxlaqlarından imtina etməzlər. Mövzunun əvvəlində də deyildiyi kimi bir mənfəət qazana bilməyəcəklərsə

etdiklərinin boşa çıxacağına inanarlar. Halbuki məmurluq, bir xidmət peşəsidir. İslam əxlaqını yaşayan bir məmur bir iş üçün gələn kəslərə çox gözəl rəftarlar göstərərək xidmət edir. Əsla onları çətinliyə salacaq, boş yerə vaxtlarını aparacaq şəkildə davranmaz. Çünki, insanın yaxşılıq və gözəl əxlaq niyyəti ilə etdiyi heç bir şeyin puç olmayacağını bilir. Gördüyü hər işi Allahın rizasını qazanmaq, Allahın bəyəndiyi əxlaqı xeyli yaxşı bir şəkildə yaşamaq niyyəti ilə bir ibadət olaraq yerinə yetirər. Gözəl davranışlarının hamısı haqq-hesab günündə ortaya qoyulmaq surətiylə Allah Qatındakı bir kitabdadır.

Quranda hz. Loğmanın oğluna bu mövzunu belə xatırlatdığı bildirilmişdir:

**Loğman dedi: "Oğlum! Gördüyün iş bir xardal dənəsi ağırlığında olsa da, bir qayanın içində, yaxud göylərdə və ya yerin dibində olsa da, Allah onu aşkar edər. Həqiqətən, Allah Lətifdir, Xəbərdardır. (Loğman surəsi, 16)**

Yenə Allahın bu mövzunu xatırlatdığı ayələrdən bəziləri isə belədir:

**Qullarıma Mənim bu Sözümü de: "Ey Mənim iman gətirən qullarım! Rəbbinizdən qorxun! Bu dünyada yaxşılıq edənləri yaxşılıq (Cənnət) gözləyir. Allahın yaratdığı yer üzü genişdir. Yalnız səbir edənlərə mükafatları hesabsız veriləcəkdir" (Zumər surəsi, 10)**

**... Kim bir yaxşılıq etsə, onun savabını artırarıq. Həqiqətən, Allah Bağışlayandır, şükrün əvəzini verəndir. (Şura surəsi, 23)**

**Xeyr! Kim yaxşı işlər görüb Allaha təslim olarsa, Rəbbi yanında onun mükafatı olar. Onlara heç bir qorxu yoxdur və onlar kədərlənməyəcəklər. (Bəqərə surəsi, 112)**

**Həqiqətən, Allah zərrə qədər də olsa zülm etməz. Əgər qulun gördüyü iş yaxşı əməl olarsa, Allah bunu artırar və Öz tərəfindən böyük mükafat verər. (Nisa surəsi, 40)**

**Kim yaxşılıq gətirərsə, ona gətirdiyinin on qat əvəzi verilər. Kim pislik gətirərsə, ona ancaq gətirdiyinin misli qədər cəza verilər. Onlara haqsızlıq edilməz. (Ənam surəsi, 160)**

Əlbəttə ki, gözəl rəftarlar göstərmək üçün insanın səy göstərməli və zəhmət çəkməlidir, amma alınacaq qarşılıq ayələrdən də aydın olduğu kimi, yaxşı bir şəkildə keçən bir həyat, sonsuz bir cənnət həyatı və daha da əhəmiyyətlisi Allahın rizası olacaq.

# DİGƏR CAHİL XARAKTERLƏRİNDƏN NÜMUNƏLƏR

## ZƏNGİN XARAKTERİ

Cahiliyyə cəmiyyətində insanların xarakterlərinə istiqamət verən əhəmiyyətli bir amil də böyüdükləri, ya da yaşadıqları mühitdir. Bütün mühitlərin hamı tərəfindən bilinən özünəməxsus bir quruluşu vardır və insanlar yaşadıqları mühitdəki insanların bu xarakterlərini mənimsəyir və həyatlarının sonuna qədər də bu təsiri üstlərində daşıyırlar. Bu, şəhərlərə görə, bir şəhər içərisindəki bölgələrə görə belə fərqlənə bilən bir quruluşdur.

Necə ki, cahil söhbətlərdə yeni tanış olunan bir insana adının, dərhal sonar da harada doğulub böyüdüyü, ya da hansı məhəllədə yaşadığı kimi suallar soruşulur. Məhz bunun altında yatan əsl məqsəd qarşı tərəfin yetişdirilmə şərtləri və xarakteri haqqında ümumi bir fikir əldə edə bilməkdir. Çünki cahil insanlar da mühit amilinin xarakterlərinə nə dərəcə təsir edə bildiyinin fərqindədirlər.

Ətraf mühitin təsiriylə yaranan bu xarakterlərdən biri də "zəngin xarakteri"dir. Bu xarakter quruluşunu xüsusilə də kiçik yaşlardan etibarən zəngin mühitdə böyüyüb yetişən kəslərdə görmək mümkündür. Uşaqlıqlarından etibarən cəmiyyətin bir çox üzvünə görə xeyli yaxşı şərtlər altında yaşamış olan bu kəslər adətən həyatlarında əsla bir çətinlik və sıxıntıyla üzləşməmişdirlər. İstədikləri şeyi heç bir səy göstərmədən əldə etmiş və həmişə hazır vəziyyətdə tapmışdırlar. Acdıqda yeməkləri qabaqlarına gəlmiş, dağıtdıqları yerlər səliqə-sahmana salınmış, istədikləri əşyalar dərhal alınmış, maşınları satın alınmış, pulları pul kisələrinə qoyulmuşdur. Bunların hər hansısa birini qazanmaq üçün ən kiçik bir səy belə göstərmələrinə ehtiyac qalmamışdır. Halbuki hadisələrin arxasında bütün bunların qabaqlarına gəlməsini təmin edən bir çox insanın maddi-mənəvi əməkləri vardır. Bəziləri işləyib pul qazanmış, ehtiyaclarını düşünüb müəyyənləşdirmiş, bunları əldə edib hazırlamış və ən gözəl şəkildə təqdim etmişdirlər. Ancaq cahil əxlaqını yaşayan insanların böyük bir qismi bunu düşünməz, bu səbəbdən də təqdir edə bilməz.

Bu laqeydsizliyin gətirdiyi əsas xüsusiyyətləri isə "vəziyyəti dərk etməmələri"dir. Bu kəslərin böyük bir hissəsi özləri çətinlik və sıxıntıyla üzləşmədikləri üçün, çətin şərtlər altında yaşayan insanların içərisində olduqları vəziyyəti qiymətləndirə bilməzlər. Məsələn, özləri maddi cəhətdən geniş imkanlara sahib olduqları halda sırf düşüncəsizliklərindən, məhdud imkanlara sahib olan bir

dostlarının imkanından yararlanaraq onu çətin vəziyyətdə qoya bilərlər. Və çox vaxt səbəb olduqları bu çətinliyi görə də bilməzlər.

Cahil əxlaqına sahib olan bu kəslərin bir qisminin diqqət çəkici xüsusiyyətlərindən biri də vəfalı olmamalarıdır. Qarşılarındakı insanların gözəl xüsusiyyətlərini və üstün istiqamətlərini təqdir edə bilmədikləri üçün onlara vəfa göstərmək üçün də bir səbəb tapa bilməzlər. Belə insanlar adətən səmimi bir dostluğu heç vaxt əldə edə bilməzlər. Əllərindəki maddi imkana çox güvəndikləri üçün bir insanın dostluğunu itirsələr belə əllərindəki imkanlarla başqalarını tapa biləcəklərini düşünürlər. Qarşılarındakı adamın mənəvi xüsusiyyətlərini, Qurana görə gözəl əxlaqlı olmasını deyil, ondan nə qədər dünyəvi mənfəətlər əldə edə biləcəklərini düşünərlər. Bu vəziyyətdə dostluq əlaqələri də sevgi və gözəl əxlaqa əsaslanmadığı üçün əsla həqiqi bir dostluq qura bilməzlər. Ya pullarından istifadə etmək üçün yanlarına yaxınlaşan insanlarla, ya da özləri kimi zəngin olub həqiqi dostluğu bilməyən, vəziyyəti dərk etməyən insanlarla birlikdə ola bilərlər.

Əlbəttə ki, bütün bu mənfi xüsusiyyətlərindən ötrü asanlıqla xoşbəxt ola bilməzlər. Böyük bir qismi istədiyi hər şeyin çoxunu əldə etməyə vərdiş etdiyi üçün maddi dəyərlər qarşısında laqeyd və sabit bir rəftar göstərər. Mənəvi gözəlliklərdən isə, həssas məqamları lazım olduğu kimi görə bilmədikləri üçün adətən zövq ala bilməzlər. Bu rəftarları digər insanlarla müqayisədə daha da diqqət çəkici bir vəziyyət alır. Həssas məqamları qavraya bilməyən bir insan özünə təqdim olunan gözəlliyi həm adi bir hadisə olaraq qiymətləndirər, həm də qısa müddətdə unudar. Bu səbəbdən də ortaya heç bir şeyə asanlıqla qane olmayan bir xarakter çıxar.

Bu kəslər insanların gözəl tərəflərini görə bilmədikləri üçün onlara dərin bir sevgi və hörmət də bəsləməzlər. Hətta qarşı tərəfin sevmək üçün onlarda gözəl xüsusiyyətlər görmək istəyə biləcəklərini ağıllarına belə gətirməzlər. Bu səbəblə də xoşbəxt ola bilməz, sevgiyə, hörmətə və sədaqətə əsaslanan dostluqlar qura bilməzlər.

Bütün bu izah edilənlərdən da aydın olduğu kimi, ortaya mənəvi keyfiyyətlərdən olduqca uzaq bir xarakter çıxar. Ancaq bu da əhəmiyyətlidir ki, bu kəslər yaşadıqları mühitdən uzaqlaşdıqlarında, ya da maddi imkanlarını itirdiklərində belə artıq alışdıqları bu əxlaqı yaşamağa davam edərlər. Bu səbəbdən də zəngin xarakteri yalnız zəngin olan insanlara aid olmaz. Bu kəslərin yalnız bu mühitdə və bu şərtlərdə yetişmələri belə bəzən bu xarakteri yaşamaları üçün kifayət edər.

Halbuki zənginlik, ya da zəngin bir mühitdə yetişmiş olmaq gözəl bir əxlaqa sahib olmamaq üçün bir səbəb deyil. Əksinə zənginlik Allahın insanlara verdiyi gözəl bir nemətdir. Əhəmiyyətli olan bu neməti Allaha şükr etmək və Onu təqdir edərək istifadə edə bilməkdir. Bu mövzuya aid nümunələri peyğəmbərlərdə görmək mümkündür. Hz. Süleymanın Allahı zikr etmək, Onun nemətlərini xatırlamaq və şükr etmək üçün Allahdan mal-dövlət istədiyi Quranda belə bildirilmişdir:

**Süleyman dedi: "Mən, günəş üfüqdə batanadək nemətə olan məhəbbəti Rəbbimi zikr etməkdən üstün tutdum..." (Sad surəsi, 32)**

Həmçinin Allahın verdiyi neməti təqdir edə biləcək əxlaqa sahib bir insan, eyni şəkildə ətrafındakı insanlarda gördüyü gözəllikləri də qavraya biləcək bir düşüncəyə sahibdir. Bu səbəbdən də belə bir insan dünyanın ən zəngin insanı da olsa, hər şey qarşısına hazır vəziyyətdə də gəlsə, ya da həyatı boyu heç bir çətinlik və sıxıntıyla qarşılaşmamış da olsa yenə də vəziyyəti dərk edən, incə düşüncəli, vicdanlı bir xarakterə sahib olar. Çətinlik çəkənin, kasıb olanın ruh halını və ehtiyaclarını bilər. Sevgini, hörməti, sədaqəti ən yaxşı şəkildə yaşaya bilər. Dostluğu, yoldaşlığı hər kəsdən daha yaxşı bilər. Çünki bu kəs mömindir və hər nə qədər rifah içərisində olursa olsun vicdanını və ağlını bir kənara qoymaz. Həmişə daha yaxşısını, daha gözəlini tapmaq və Allahın rizasını daha da çox qazanmaq üçün daima bir axtarışda olar. Bu səbəblə də rahatlıq onu əxlaq tənbəlliyinə sövq etməz. Çünki möminlər Uca Allaha yaxınlaşmaq və Onun sevgisini qazana bilmək üçün tələsərlər.

**Məhz onlar yaxşı işlər görməyə tələsər və bu işlərdə öndə gedərlər. (Muminun surəsi, 61)**

## "SONRADAN GÖRMÜŞ" XARAKTERİ

Cahil cəmiyyətdə "sonradan görmüş" olaraq xarakterizə olunan kəslər, adətən orta səviyyəli bir həyat yaşadıqdan sonra, ya özlərinə qalan bir miras və ya bənzəri bir imkan nəticəsində qəfildən zənginləşən kəslərdir. Bu kəslər arasında dindən uzaq yaşayanlar, illər sonra əllərinə keçən bu neməti Allaha şükr etməklə deyil, insanlar arasında bir üstünlük əldə etməyə çalışaraq qiymətləndirərlər. Danışıqlarında daima

nə qədər zəngin olduqlarından, necə saymadan pul xərclədiklərindən, nələr aldıqlarından, hansı yerlərdə istirahət etdiklərindən bəhs edərlər. Bir paltar alacaqdırlarsa, mütləq bunun etiketində markasının adı yazılı olanını seçərlər. Getdikləri hər yerin lövhəsi altında şəkil çəkdirər və bunu evlərinin ehtişamlı yerinə qoyaraq nümayiş etdirirlər. Zövq alsalar da, almasalar da zəngin insanların etdiyi hər şeyə etina edər və onların həyat tərzini təqlid edərlər. Məsələn, xarici dil bilirmiş, ya da xarici ölkədən yeni gəlmiş imici vermək üçün sözlərinin arasında mənasını doğru-düzgün belə bilmədikləri əcnəbi sözlərdən istifadə edərlər. Bir çoxunda da yerli-yerində istifadə edə bilmədikləri üçün vəziyyətləri açıq şəkildə ortaya çıxar. Səviyyəli görünmək istədikləri halda, alçalmış olarlar. Ya da sırf son model paltarlar geydikləri imicini verə bilmək üçün özlərinə heç yaraşmayan paltarlar geyərlər.

Özlərinə kənardan baxmağı bacarmazlar. Ya da başqa bir sözlə başqasının gözüylə özlərini qiymətləndirə bilməzlər. Nəyin özlərini gülməli vəziyyətə salacağını, nəyin yaraşıb, nəyin yaraşmadığını görə bilməzlər. Var gücləriylə zəngin mühitdə yaşayan insanların hər etdiyini təqlid etməyə davam edərlər.

Onlara sonradan sahib olduqları bütün imkanları verənin Uca Allah olduğu çox açıq bir həqiqətdir. O vaxta qədər özlərinə daha çox mal-dövlət və mülk verməsi üçün bəlkə dəfələrlə Allaha dua etmişdirlər. Amma bu duaları qəbul olduğunda da dərhal əvvəlki vəziyyətlərini və Allaha yalvardıqlarını unutmuşdurlar. Quranda özlərinə nemət veriləndə pis əxlaq göstərən insanlardan belə bəhs edilmişdir:

**İnsana nemət verdiyimiz zaman üz çevirib haqdan uzaq durar. Ona bir pislik toxunduqda isə uzun-uzadı yalvarıb-yaxarar. (Fussilət surəsi, 51)**

Zəngin insanların özlərini bəyənməsi üçün çox müxtəlif üsullar sınayar, amma bu antipatiyadan başqa bir şey meydana gətirməz. Əslində bir mənada da tələyə düşərlər. Allah, Özünü razı salmaq üçün yaşamaq əvəzinə insanların özlərini bəyənməsi üçün səy göstərən bu insanlara gözlədiklərinin tam əksiylə cavab verər. Bu vəziyyətdə həm Allahın sevgisini, həm də insanların rəğbətini itirərlər.

## "ZİYALI" XARAKTERİ

Cəmiyyətdə "ziyalı" kimi tanınan bu mədəniyyət, cahil cəmiyyətin əhəmiyyətli bir hissəsini öz təsiri altına almış dindənkənar xarakterlərdən biridir. Cahil əxlaqını

daşıyan bu xarakterin xüsusiyyətlərinə keçməzdən əvvəl bunu ifadə etməkdə fayda vardır: Burada üstündə dayanılan ziyalı xarakteri, hər cəmiyyətdə olması lazım olan və hörmət göstərilən mədəniyyətli kəsləri əhatə etmir. Bir insan üçün mədəniyyətli olmaq, azad düşüncəli olmaq, içində yaşadığı cəmiyyətin rifahı və rejimi üçün fikir tapmaq olduqca əhəmiyyətli və qiymətli xüsusiyyətlərdir. Burada izah edilən ziyalı obrazı isə, təməl dünyagörüşünü, inamsızlığın həyat tərzi və düşüncə quruluşundan alan və bunu bütün dünyaya hakim qılmağı hədəfləyən, əslində heç bir ziyalı təcrübəsi olmamasına baxmayaraq, özünü təcrübəli insan kimi göstərməyə çalışan bir xarakterdir. Ancaq bir çox insan xüsusilə də gənclər, təməlində yatan bu fikirdən xəbərsiz olaraq, yalnız cəmiyyətdə bir şəxsiyyət qazanacaqlarını düşündükləri üçün bu xarakterə etina edərlər.

Bu mədəniyyəti əsasən universitet mühitində görmək mümkündür. Cəmiyyətdə xüsusilə də təsviri incəsənətlə maraqlanan insanların bu mədəniyyəti yaşamalı olduğuna dair səhv bir inanc hakimdir. Bu səbəblə də orta məktəb illərində tam fərqli bir xarakterdəki bir insan təsviri incəsənət ya da bənzəri bir fakültədə oxumağa başladığında xarakterini bir anda tamamilə dəyişdirər. Geyim tərzindən saç modelinə, zövq və vərdişlərinə qədər bütün stilinə "ziyalı" havası verməyə çalışar. Çünki cahil cəmiyyət ona bir sənətkarın ancaq belə bir stil içərisində olarsa müvəffəqiyyətli olacağı təlqini verər.

Bu kəslər bundan sonrakı həyatlarında artıq bu imicin tələb etdiyi hər şeyi etməyə hazırdırlar. Günlərini "ziyalı çayxanaları" adı verilən siqaret tüstüsünün hakim olduğu yarı qaranlıq və rütubətli yerlərdə, ya da barlarda "ziyalı söhbətləri" edərək keçirməyə başlayırlar. Özlərinin cəmiyyətin mədəniyyətli və qabaqcıl təbəqəsini təmsil etdiklərini irəli sürər və insanları xilas etmək üçün yollar taparlar. Ancaq çox vaxt bunlar hikmətsiz, bitməyən və nəticəsiz qəliz müzakirələrdən ibarətdir. Məhdud şeylər düşünmək, məhdud məntiqlər irəli sürmək və buna uyğun bir həyat yaşamaq bu kəslər üçün böyük bir əhəmiyyət daşıyar. Bu şəkildə digər insanlardan fərqlənə biləcəklərini düşünürlər. Çəkdikləri şəkillərdə, heykəllərdə, yazdıqları kitablarda və mahnılarında bu ruhu dilə gətirməyə diqqət göstərərlər. Halbuki baxıldığında əsərlərinin bir çoxunun "ziyalılıq" adı altında əslində ruhsuzluğu təmsil etdiyi görünər. Həqiqi və dərin gözəlliklər təqdim edən bir sənət anlayışları olmaz; adətən qaranlıq, pessimist və mənəvi cəhətdən narahat bir ruh halının hakim olduğu bir sənət anlayışına sahibdirlər.

Baxdıqları filmlər, oxuduqları kitablar həmişə bu ziyalı havasını əks etdirər. Yoxsa bunların əksəriyyətindən özləri də zövq almaz. Bəzən də "ziyalılığın" bir qaydası

olaraq, savadlı görkəmi vermək üçün heç oxumadıqları halda bir kitabı əllərində gəzdirər və içindən əzbərlədikləri bir neçə nümunə cümləni sağda solda deyərək "etibar" qazanmağa çalışırlar.

Filosoflardan eşitdikləri bir neçə sözü əzbərləyər və görüşdükləri çayxanalarda bunları tez-tez dilə gətirərlər. Soruşduqda isə bütün fəlsəfə axınlarını araşdırdıqlarını və hətta bu mövzuda ixtisaslaşdıqlarını deyərlər. Halbuki əksəriyyətinin ciddi mənada heç bir elmi biliyi yoxdur.

Orijinal olmayan sabit fikirlərinin əxlaq mövzusunda məhdud fikirlər meydana gətirmələrinə səbəb olar. Ailə və evlilik anlayışlarına ehtiyac olmadığını, hədd-hüdud bilmədən azad yaşamağın müasirlik və mədəniyyət əlaməti olduğunu müdafiə edirlər.

Qaranlıq bir ruh halları vardır. Xarakterlərinə və bütün həyatlarına bir ruhsuzluq hakimdir. Ürəksıxan yerlərdən, yarı qaranlıq və qaranlıq mühitlərdən, dava-dalaşdan və qaydasızlıqlardan xoşları gələr. Yaşadıqları mühitlər bütün detallarıyla bu ruh hallarını əks etdirən bir görünüşdədir. Hər yerə içki qutularının dağıldığı, paltarların, kitabların üst-üstə atıldığı dağınıq mühitlərdə, üst-başları çirkli bir şəkildə yaşayarlar.

Ancaq ümumi olaraq yaşadıqları bu həyatdan əslində heç bir zövq ala bilməzlər. Çünki Allah dinsizliyi insanın çətinlik çəkəcəyi və bədbəxt olacağı bir sistem olaraq yaratmışdır. Heç kimin heç bir qayda-qanun tanımadığı, bu səbəbdən də hər kəsin bir-birinin hüquqlarına təcavüz edə bildiyi, nizam və sərhədin olmadığı, dinin gətirdiyi insani və əxlaqi xüsusiyyətlərin yaşanmadığı bir mühitin verdiyi zərər də ən birinci özlərinə toxunacaqdır. Bu səbəblə də qarşılarına məqsəd qoyduqları bu həyatın kiçik bir hissəsini yaşamaları belə bu zərərlərlə qarşılaşmaları üçün kifayətdir.

İnsanlara əsl şan və şərəf qazandıracaq şey isə Allahın insanlar üçün endirdiyi haqq dindir. İnsan ancaq bu sistemdə rahatlıq tapa bilər və həyatdan ancaq Quran əxlaqını yaşadığı təqdirdə həqiqi bir zövq ala bilər.

## BÜTÜN CAHİL XARAKTERLƏR HAQQINDA

Kitabın əvvəlindən etibarən cahil cəmiyyətdə hakim olan bir çox insan xarakterini bütün əxlaq xüsusiyyətləri, şəxsiyyət quruluşları, həyata olan

dünyagörüşləri və vərdişləriylə araşdırdıq. Unutmamaq lazımdır ki, bunlar arasında müsbət və sabit xüsusiyyətlərə sahib, xoşbəxt və dinc bir həyat yaşayan bir model yoxdur. Çünki bütün bu xarakterlər dindənkənar bir sistemdən törəmişdir. Allah insanları ancaq din əxlaqını yaşadıqları və iman etdikləri vaxt xoşbəxt olacaqları şəkildə yaratmışdır. Quranda bildirilən bu əxlaq modelindən başqa minlərlə həyat tərzi, minlərlə xarakter quruluşu daha meydana gəlsə də hamısı yenə eyni nəticəni verəcək, çətinlik, qarışıqlıq və narahatlıq gətirəcək. Allah din əxlaqından uzaq insanların bu vəziyyətini Quranda verdiyi bir nümunə ilə belə açıqlamışdır:

**Onlar, doğru yolu verib azğınlığı satın almış kimsələrdir. Amma onların ticarəti qazanc gətirmədi və özləri də doğru yola yönəlmədilər.**

**Onların məsəli zülmət gecədə od qalayan kimsənin məsəlinə bənzər. Alov onun ətrafındakıları işıqlandırdığı zaman Allah onların nurunu aparar, özlərini də heç bir şey görə bilməyəcəkləri zülmətlər içərisində buraxar.**

**Onlar kar, lal və kor olduqlarına görə doğru yola qayıtmazlar.**

**Yaxud onların məsəli zülmət içində göy gurultusu və şimşəklə yağan leysana düşənlərin məsəlinə bənzəyir ki, ildırımdan ölmək qorxusu ilə barmaqlarını qulaqlarına tıxayırlar. Şübhəsiz ki, Allah kafirləri hər tərəfdən əhatəyə almışdır.**

**Şimşək az qalır ki, onların gözlərini çıxartsın. Şimşək hər dəfə onların yolunu işıqlandırdıqda onunla gedirlər, zülmət onları bürüdükdə isə dayanıb dururlar. Əgər Allah istəsəydi, onları eşitməkdən və görməkdən məhrum edərdi. Şübhəsiz ki, Allah hər şeyə qadirdir.**

**Ey insanlar! Sizi və sizdən öncəkiləri yaratmış Rəbbinizə ibadət edin ki, bəlkə Allahdan çəkinəsiniz. (Bəqərə surəsi, 16-21)**

Allahın verdiyi bu nümunə cahil xarakterlərin niyə ziyandan xilas olmadıqlarını çox gözəl şəkildə açıqlayır. Bu kəslər "hidayət", yəni "iman etmə" imkanı olduğu halda, "azğınlığı" dolayısı ilə "imansızlığı" seçmişdirlər. Müəyyən dünyəvi mənfəətlər üçün etdikləri bu seçim onlara bir fayda verməmiş, xoşbəxtliyi, dincliyi və axtardıqları heç bir şeyi tapa bilməmişdirlər.

Əksinə bu seçimləri onları həqiqətlərə və doğrulara qarşı kar, lal və kor etmişdir. Bu səbəblə də ziyan içərisində olduqları halda bu sistemlərindən geri qayıtmazlar.

Allah onların vəziyyətini bir şimşək nümunəsiylə təsvir etmişdir; şimşək hər çaxdığında ətraf müvəqqəti olaraq işıqlanar, beləcə bir az yeriyərlər, lakin dərhal sonra yenə zülmətə bürünüb olduqları yerdə hərəkətsiz qalarlar. Məhz cahil insanlar bu çox qısa, bir anlıq yerimələrinə aldanır və bunun onlara kifayət edəcəyini zənn edirlər. Halbuki qurtuluş ancaq ayədə də bildirildiyi kimi Allaha qayıtmaq, Ona qulluq etmək və Onun istədiyi şəkildə yaşamaqla mümkün olar.

# NİYƏ XOŞBƏXT OLA BİLMİRLƏR?

Göründüyü kimi yaşları, peşələri, ictimai mövqeləri hər nə olursa olsun cahil cəmiyyətlərdə yaşanan xarakterlərin heç biri xoşbəxtlik gətirmir. Bunun başlıca səbəblərini isə belə açıqlamaq mümkündür:

## HƏLLİ QURANDA AXTARMADIQLARI ÜÇÜN

Cahil insanların etdiyi ən böyük səhv budur; həlli Quranda axtarmamaları... Bu kəslərin böyük bir hissəsi içərisində olduqları vəziyyətin çıxılmaz bir hala düşdüyünü açıq şəkildə görərlər. Yaşadıqları həyat tərzinin, mənimsədikləri xarakter quruluşunun ümid etdikləri nəticəni vermədiyini, özlərini qane etmədiyini və hətta çətinliyə saldığını həyatlarının hər anında hiss edərlər. Ancaq buna çıxış yolu olaraq cahilliyin təqdim etdiyi digər alternativləri sınayarlar ki, bu da onlara bir şey qazandırmaz. Çünki cahil sistemlərin təməldə bir-birindən heç bir fərqi yoxdur. Bəlkə də insanlar, məkanlar və şərtlər dəyişər, amma yaşanan narahatlıqlar, hədəflər həmişə sabit qalar. "Ziyalı" xarakteriylə yaşayanın da, kübar cəmiyyət mədəniyyətini mənimsəyənin də əsl hədəfi həmişə dünya həyatı əsasında qurulmuşdur.

Halbuki dünya həyatı hərisliklə bağlanmağa dəyməyəcək qədər qısadır. Burada dünyəvi mənada qazanılan heç bir şey əbədi olaraq qalmaz. Ölümlə birlikdə insanlardan mütləq uzaqlaşar. Bu səbəblə də dünya üçün atılan hər addım sıxıntılıdır.

Bir insan ancaq Allaha yönəldiyi vaxt dincliyə qovuşar, insanlar ancaq Allah ilə dost olub Onun bəyəndiyi həyatı yaşadıqlarında bu çətinliklərdən xilas ola bilərlər.

Allah bir ayədə bu əhəmiyyətli sirri belə bildirmişdir:

**Bunlar, iman gətirənlər və qəlbləri Allahı zikr etməklə rahatlıq tapanlardır. Bilin ki, qəlblər ancaq Allahı zikr etməklə rahatlıq tapır.. (Rad surəsi, 28)**

Allah ilə dost olan bir insan isə yol göstərici olaraq Rəbbimizin endirdiyi haqq kitaba qüsursuz bir şəkildə əməl edər. Artıq onun xarakterini və həyat tərzini

müəyyənləşdirən tək meyar Qurandır. Və Quranın Allahın izni ilə qaranlıqdan nura çıxardıcı xüsusiyyəti vardır:

**Əlif. Ləm. Ra. Bu, insanları öz Rəbbinin izni ilə qaranlıqdan nura – Qüdrətli, Tərifəlayiq Allahın yoluna çıxartmaq üçün sənə nazil etdiyimiz bir Kitabdır. (İbrahim surəsi, 1)**

Bu səbəblə də Quranın qazandırdığı xarakterdə çətinlik, narahatlıq, qayğı və qarışıqlıq yoxdur. Mütləq gözəl bir həyat, mütləq sabit bir ruh və mütləq gözəl rəftarlar vardır. Allah bu xarakteri yaşayan möminlərə etdikləri ən yaxşı əməllərə qarşılıq verəcəyini vəd etmişdir:

**Bu ona görədir ki, Allah onları, etdikləri əməllərin ən gözəli ilə mükafatlandırsın, onlara olan lütfünü artırsın. Allah istədiyinə hesabsız ruzi verir. (Nur surəsi, 38)**

## ALLAHIN DEYİL, İNSANLARIN MƏMNUNİYYƏTİNİ QAZANMAĞI QARŞILARINA MƏQSƏD QOYDUQLARI ÜÇÜN

Cahil insanların xoşbəxt ola bilməmələrinin və hər nə edirlərsə etsinlər əsla çıxış yolu tapa bilməmələrinin bir səbəbi də Allah üçün yaşamaq əvəzinə insanlar üçün yaşamalarıdır. Bu o deməkdir ki, bir insan bütün doğrularını və səhvlərini insanların nə deyəcəyinə görə müəyyənləşdirirsə, onların rəftarlarına görə kədərlənib, onların özlərini bəyənmələrinə görə sevinirsə, onların gözündə dəyər qazanmağa çalışır və onların yanında alçalmamaq üçün özünü tənzimləyirsə, deməli, bu kəs insanlar üçün yaşayır.

İnsanlar üçün yaşamaq isə böyük bir çətinlikdir. Çünki hər insanın zövqü fərqli meyarlar əsasında qurulmuşdur. Bir insanın ətrafında yüzlərlə insan olduğu düşünsək, bunların hər birini razı salmaq üçün fərqli şəkildə səy göstərməyin lazım olduğu açıq şəkildə görünəcək. Bir insanın yanında aktiv bir xarakter görmək istədiyi halda, başqa biri passiv və ağır bir insan axtaracaq. Birinin məmnun olduğu rəftar başqa birinə razı salmayacaqdır. Bu uyğunsuzluqlar və meyarlardakı fərqlərin sayı minlərə çatar. Bu vəziyyətdə “insanlar üçün yaşayan" kəslər "minlərlə fərqli tələbi bir

yerdə və eyni anda" ödəməlidir. Ancaq bundan sonra istədiyi bütün insanlar özündən məmnun olacaq və ancaq bundan sonra ona dəyər verə biləcəklər.

Allah onların yaşadıqları bu çətinliklərə Quranda belə bir nümunə vermişdir:

**Allah bir-biri ilə çəkişən bir neçə şərikli ağası olan kişi ilə tək bir ağası olan kişini məsəl çəkir. Onlar məsəlcə eyni ola bilərmi? Həmd Allaha məxsusdur, lakin onların əksəriyyəti bunu bilmir. (Zumər surəsi, 29)**

Bu məqamda insana kömək edə biləcək tək bir yol vardır; Uca Allahın sonsuz ağlına və elminə təslim olmaq. Allah insanı və digər bütün varlıqları yaradandır. İnsanın necə yaşadıqda, nələr etdikdə xoşbəxt ola biləcəyini də yenə ancaq Allah bilir. Və Allah insanlar üçün qurtuluş yolunu Quranda bildirmişdir: Yalnız Allahdan qorxub, yalnız Onun rizasını axtarmaq.

Allah: "**İki məbuda sitayiş etməyin! O, yalnız Tək bir İlahdır. Yalnız Məndən qorxun!" – dedi. (Nəhl surəsi, 51)**

Bunun əksi olan bir rəftar yalnız insanı bədbəxt etməklə kifayətlənməz həmçinin də insanın böyük bir günah işləməsinə səbəb olar. İnsanın Allahdan başqa varlıqların rizasını axtarması Quranda "şərik qoşmaq" olaraq ifadə edilər. Şərik qoşan bir insan, Allahdan başqa bir varlığı özünə ilah qəbul etmiş və bütün həyatını da onun üçün yaşayan biri deməkdir. Bu insanların axirətdə görəcəkləri qarşılıq isə ziyana uğramaqdır. Bu səbəblə də Allah insanları cəhənnəmlə və düzəldə bilməyəcəkləri bir peşmançılıqla qarşılaşmadan əvvəl bu mövzunu bildirərək xəbərdar etmişdir:

**Sənə və səndən əvvəlkilərə belə vəhy olunmuşdur: "Əgər şərik qoşsan, əməlin puç olacaq və mütləq ziyana uğrayanlardan olacaqsan. Sən yalnız Allaha ibadət et və şükür edənlərdən ol!" (Zumər surəsi, 65-66)**

**Şübhəsiz ki, Allah Özünə şərik qoşulmasını bağışlamaz, bundan başqa günahları isə istədiyi kimsəyə bağışlayar. Allaha şərik qoşan kəs iftira atmaqla böyük bir günah etmiş olur. (Nisa surəsi, 48)**

Unudulmaması lazım olan başqa bir mövzu da budur: İnsanın dünyada olarkən onlardan ötrü bütün həyatını fəda etdiyi və Allahı tərk edərək onların rizasını qazanmağı əsas götürdüyü bütün insanlar axirət günü onu tərk edəcəkdirlər. Çünki hər insan etdiklərinə görə tək başına sorğuya çəkiləcək və heç kimin səyi başqa bir kəsi xilas etməyə kifayət etməyəcək. Quranda bu əhəmiyyətli məlumat belə bildirilmişdir:

**Onların hər biri Qiyamət günü Onun hüzuruna tək-tənha gələcək. (Məryəm surəsi, 95)**

**Hüzurumuza ilk dəfə sizi xəlq etdiyimiz kimi tək-tənha, həm də sizə verdiyimiz nemətləri arxanızda qoyub gəldiniz. Öz aranızda Allaha şərik saydığınız şəfaətçilərinizi də yanınızda görmürük. Artıq aranızda əlaqə qırılmış, iddia etdiyiniz məbudlar isə sizdən uzaqlaşmışdır (Ənam Surəsi, 94)**

Tək qalmağın qorxu və narahatçılığını dadan insanlar o gün dünyada olarkən ən yaxınım dedikləri insanları, uşaqlarını, yoldaşlarını, dostlarını sırf cəhənnəm əzabından xilas ola bilmək üçün fidyə olaraq təklif edəcəklər. Ancaq bu tələbləri qəbul edilməyəcəkdir. Ayələrdə bu vəziyyət belə xəbər verilir:

**Dost dostunun halını xəbər almayacaq. Halbuki onlar bir-birini görəcəklər. Günahkar o günün əzabından qurtarmaq üçün fidyə vermək istəyər – öz oğullarını, həyat yoldaşını və qardaşını, ona sığınacaq vermiş nəslini və yer üzündə olanların hamısını – təki bu onu xilas etsin. Xeyr! Bu, alovu şölələnən Oddur ... (Məaric surəsi, 10-15)**

Quranda verilən bütün bu məlumatlar əsasında insanların rizası üstündə qurulan bir həyatın yalnız dünyada bədbəxtlik gətirməklə kifayətlənməyəcəyi, həmçinin axirətdə

də insanı ziyana uğradacağı görünür. Bu vəziyyətdən xilas olmağın yolu isə çox açıqdır; Allaha təslim olub yalnız Onun rizasını axtararaq yaşamaq.

## DÜNYANIN BİR İMTAHAN YERİ OLDUĞUNU UNUTDUQLARI ÜÇÜN

Cahiliyyə xarakteri daşıyan insanların xoşbəxt ola bilməmələrinin bir səbəbi demək olar ki, hamısının dünyada olma məqsədlərini unutmasıdır. İnsan sınanmaq üçün yaradılmışdır. Allahı və Onun ağlını, gücünü, sənətini və bütün digər üstün sifətlərini təqdir edə biləcəkmi, yoxsa bunları və yaradılış məqsədini unudub dünya həyatına aludə olacaqmı deyə sınaqdan keçirilir. Allah həyatın bu həqiqətini belə bildirir:

**Əməl baxımından hansınızın daha yaxşı olduğunuzu sınamaq üçün ölümü və həyatı yaradan Odur. O, Qüdrətlidir, Bağışlayandır. (Mülk surəsi, 2)**

Allah bu istiqamətdə insana məhdud bir ömür vermişdir. Özünü dərk etməyə başladığı andan etibarən artıq düşündüyü, etdiyi və qarşısına məqsəd qoyduğu hər şeydən məsuldur. İçində özünə hər an haqqı bildirən vicdanına aid bir səs vardır. Hər insan vicdanının özünə dediyi sözlərə tabe olub-olmadığına barədə axirətdə sorğuya çəkiləcək. Çünki vicdan haqqı dediyi halda ona tabe olmayan insan nəfsinin istəklərinə tabe olmuş olar. Nəfs isə insana daima pis işlər görməyi əmr edir. Məhz insan içində daima bir imtahana çəkilər; ya nəfsinə görə, ya da vicdanına görə hərəkət edəcək.

Bu imtahan həyatının hər anında davam edər. Məktəbdə, işdə, evdə, küçədə, tək olarkən, ya da izdihamda, xəstə olarkən də sağlam olarkən də, dünyanın başqa bir ucuna getsə belə, orada da yenə sınanılacaq. İstisna meydana gətirə biləcək tək bir an belə yoxdur. Dediyi hər söz, etdiyi hər rəftar və düşündüyü hər şey axirətdə qarşısına çıxarılacaqdır. Mütləq etdiyi bütün yaxşı və pis əməllərin əvəzini alacaq, heç bir şey qarşılıqsız qalmayacaq və nəticə etibarilə də hər kəs layiq olduğu yerə aparılacaqdır.

İnsanın dünyada baş verən hər hadisənin bir sınaq olaraq yaradıldığını unutması, təvəkkülsüz bir rəftar göstərməsinə səbəb olar. Cahil cəmiyyətdə tez-tez eşidilən "niyə belə oldu, kaş ki, belə olmasaydı", "işlər yolunda getmir", "məhv

olduq", "bütün işlər tərs gedir", "belə etməsəydim belə olmazdı" və bunlara bənzər bir çox şikayətçi ifadənin altında yatan yanlış əxlaq anlayışı məhz yenə bu təvəkkülsüzlükdür.

Təvəkkülsüzlüyün qəti nəticəsi isə çətinlik və bədbəxtlikdir. Hikmətini düşünmədikləri üçün əleyhlərində kimi görünən ən kiçik bir vəziyyətlə qarşılaşdıqlarında dərhal şikayətlənməyə başlayarlar. Bunun nəticəsində də daima narahat, bədbəxt və sıxıntılı bir həyat yaşayarlar. Halbuki insanın məsul olduğu, Allahın özü üçün yaratdığı hər andan razı olmasıdır. Doğru olmayan kimi görünən hadisələr baş versə də, gözəl əxlaqda və Allaha sədaqətdə qərarlı davranmalıdır. Ən əhəmiyyətlisi yaradılış məqsədinin onsuz da bütün bunlarla sınanmaq olduğunu unutmamalıdır. Quranda əmr edilən gözəl əxlaqı yaşayan kəslər, bu cür hadisələrdə göstərəcəkləri səbrin axirətdə özlərinə bir yaxşılıq olaraq qayıdacağını bilməyin hüzurunu və xoşbəxtliyini yaşayarlar.

# SON SÖZ

# QURAN ƏXLAQINI YAŞAMAĞA DƏVƏT

Kitabın əvvəlindən bəri cahil cəmiyyətlərdə hakim olan bəzi əsas insan xarakterləri araşdırıldı və bu xarakterlərə sahib olan kəslərin istisnasız olaraq hamısının böyük bir **"çətinlik"** və **"ziyan"** içərisində olduqları ortaya qoyuldu. Həmçinin bu xarakterlərdən təkcə birinin belə sabit və dinc bir şəxsiyyət formalaşdıra bilmədiyi, yaşadığı həyatdan həqiqi mənada xoşbəxt ola bilmədiyi müşahidə olundu.

Bütün bu xarakterləri ətraflı şəkildə təhlil etməkdə, öyrənməkdə məqsəd isə cahiliyyə sisteminin meydana gətirdiyi hər fikrin, hər həyatın mütləq **"çıxılmaz vəziyyətdə"** olduğunu konkret nümunələrlə göz qabağına gətirməkdir. Çünki möminlər Quranda bildirilən bu əhəmiyyətli həqiqəti, **"bilməyənlərə"** bildirməklə və onları vaxt olduğu halda haqqa çağırmaqla məsuldurlar.

Bunu əhəmiyyətlə ifadə etmək lazımdır ki, bütün insanlar üçün tək həll, cahil sistemdən tamamilə xilas olub, Quranda bildirilən **mömin əxlaq**ını yaşamaqdır. Ancaq onda Allah onlara olan nemətlərini artıracaq və xoşbəxtliyin yolunu açacaq. Çünki insanı yaradan Allah onun yaşaya biləcəyi ən ideal həyatı, hər şeydən ən çox zövq ala biləcəyi sistemi və xoşbəxtliyin yolunu yenə Quranda bildirmişdir.

Unutmamaq lazımdır ki, bütün bu gözəlliklərin qapısı istisnasız hər insan üçün sonuna qədər açıqdır. İnsanın qarşısında hər an bu nemətləri tutmaq üçün bir fürsət vardır. Bunun üçün nə böyük fədakarlıqlar etmək, nə günlərlə çalışıb yorulmaq, nə də hər hansısa bir çətin bir maneəni aşmaq lazımdır. İnsanın yalnız səmimi olmağa və Allaha sığınmağa niyyət etməsi, bu qapının açılması üçün kifayətdir. Bu isə çox qısa müddətdə reallaşan bir qərardır.

Bu səbəblə də cahilliyin bütün bu səhv xarakterlərindən xilas olmaq istəyən adam bilməlidir ki, bu çox asandır. İnsanın bu sətirləri oxuyarkən belə tək bir niyyətlə Allahın rəhmətini və cənnətini qazandıracaq bir xarakter qazanması mümkündür. Çünki Allah hər insanı eşidir və ürəyindən keçənləri bilir; ona şah damarından daha yaxındır. İnsan niyyətini dəyişdirdiyində Allah bunu həmin an bilir və istəsə o adamın üzərindəki nemətini dəyişdirib etdiyi yaxşılıqları artırar.

Allah səmimi tövbəylə əlaqədar olaraq bir ayəsində belə bildirmişdir:

**Ancaq tövbə edib iman gətirən və saleh əməllər edənlərdən başqa. Allah onların pis əməllərini yaxşı əməllərlə əvəz edər. Allah Bağışlayandır, Rəhmlidir! (Furqan surəsi, 70)**

Məhz bu kitab bu fürsəti əldən vermədən, vaxt olduğu halda cahil sistemin təqdim etdiyi bütün zərərlərdən xilas olmaq, möminlərə vəd edilən nemətlərə qovuşmaq və ən əhəmiyyətlisi də Allahın rizasını qazana bilmək üçün cahil əxlaqını tərk edib **mömin xarakterini** yaşamağa bir dəvətdir.

Quranı insanları yaradan, onların tək hakimi və tək sahibi olan Allah endirmişdir. Bu səbəbdən də insanın bilmədiklərini öyrənməsi və içərisində olduğu cahillikdən xilas olub məlumatlandırılması da ancaq Quranda bildirilən din əxlaqını yaşamasıyla mümkündür. Bu əhəmiyyətli həqiqəti nəzərə almayaraq din əxlaqından uzaq yaşayan kəslər isə "cahil" bir cəmiyyət meydana gətirərlər. Ancaq bu cahillik, bu kəslərin yaradanımız olan Allahı tanımamaları, Onun qüdrətini lazım olduğu kimi təqdir edə bilməmələri, Onun özlərindən nələr gözlədiyini, Onun istədiyi əxlaq və şəxsiyyət quruluşunun necə olmasının lazım olduğunu bilməmələrindən qaynaqlanan bir cahillik növüdür.

Bu əsaslı cəhalət onların həyat tərzlərindən şəxsiyyət quruluşlarına qədər həyatlarının hər anında öz mənfi təsirini göstərir.

Məhz bu kitabın məqsədi də, cahil cəmiyyətin çıxardığı həyat tərzləri və xarakterlərindən bəzi əsas nümunələri araşdıraraq, bu sistemin qəti olaraq "çıxılmaz vəziyyətdə" olduğunu ortaya qoymaqdır. Həmçinin cahil cəmiyyəti meydana gətirən insanların, yaşadıqları klassik xarakterlərlə axtardıqları dinclik və xoşbəxtliyə heç bir şəkildə çata bilmədiklərini göstərməkdir. Bununla yanaşı Quranda bildirilən mömin xarakteri də göstərilərək cahil cəmiyyətdəki insan xarakterləri ilə fərqi ortaya qoyulur.

# TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir. Beləliklə, Allah'ın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

**Darvini məhv edən çətinliklər**

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən "Növlərin mənşəyi" adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allah'ın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı "Nəzəriyyənin qarşısında duran çətinliklər" başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu

kitabında tez-tez bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.

Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.

**Keçilməz ilk pillə: həyatın mənşəyi**

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

**Həyat həyatdan gəlir**

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri “spontane generation” adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərindən əmələ

gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin "Növlərin mənşəyi" adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

"Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür". *(Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)*

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

**XX əsrdəki nəticəsiz səylər**

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

"Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən ən qaranlıq nöqtədən ibarətdir". *(Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)*

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. *("New Evidence on Evolution of Early Atmosphere and Life", Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982,* səh. 1328-1330)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. *(Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)*

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur

geokimyaçı Cefri Bada təkamülçü "Earth" jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

"Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb". *(Jeffrey Bada, Earth, Şubat 1998, səh. 40)*

**Həyatın kompleks quruluşu**

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların bu qədər mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan qaldırır. Ona görə, təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

- **Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.**
- **Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.**
- **Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.**
- **Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.**

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fermentlər də ancaq DNT-dəki

informasiya əsasında sintezlənir. Bir-birlərindən asılı olduqlarına görə, DNT-nin qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü prof. Lesli Orcel "Scientific American" jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

"Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə, insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün olduğu nəticəsinə gəlir". *(Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, c. 271, Ekim 1994, səh. 78)*

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

### Təkamülün xəyali mexanizmləri

Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: "Növlərin mənşəyi, təbii seleksiya yolu ilə..."

Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə, təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və "Növlərin mənşəyi" adlı kitabında: **"Faydalı dəyişikliklər baş vermədikcə təbii seçmə heç bir şey edə bilməz"**, - demək məcburiyyətində qalmışdı. *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)*

### Lamarkın təsiri

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı.

Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, "Növlərin mənşəyi" kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. (B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə "təkbaşına" və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

**Neodarvinizm və mutasiyalar**

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi. Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər. Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

"Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər". *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)*

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

**Fosillər: ara-keçid formalardan əsər-əlamət yoxdur**

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları "ara-keçid forması" adlandırırlar.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin "Növlərin mənşəyi"ndə bunu belə açıqlamışdır:

"Əgər nəzəriyyəm doğrudursa, növləri bir-biri ilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər". *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, "Növlərin mənşəyi" kitabının "Nəzəriyyənin qarşısında duran çətinliklər" (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

"Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?" *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

**Darvinin puç olan ümidləri**

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

"Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük". (Derek A. Ager, "The Nature of the Fossil Record", Proceedings of the British Geological Association, c. 87, 1976, səh. 133)

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə, bu, canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

"Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar". *(Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)*

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni "növlərin mənşəyi" Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

**İnsanın təkamülü nağılı**

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

*Australopithecus*

*Homo habilis*

*Homo erectus*

*Homo sapiens*

Təkamülçülər insanların ilk "meymunabənzər əcdadları"na "cənub meymunu" mənasını verən "australopithecus" adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan iki məşhur anatomun *australopithecus* nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. *(Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, c. 258, səh. 389)*

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də "homo", yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar *australopithecus*lardan daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: "*Homo sapiens*ə uzanan zəncir halqası, əslində, itib", - deyərək bunu qəbul edir. *(J. Rennie, "Darwin's Current Bulldog: Ernst Mayr", Scientific American, Aralık 1992)*

Təkamülçülər "*ausrtalopithecus > homo habilis > homo erectus > homo sapiens*" ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri *australopithecus*, *homo habilis* və *homo erectus*un dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. *(Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, s. 221; M. D. Leakey, Olduvai Gorge, c. 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)*

Habelə, *homo erectus* sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, *homo sapiens neandertalensis* və *homo sapiens sapiens* (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar. *(Time, noyabr 1996)*

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld, təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

"Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər". *(S. J. Gould, Natural History, c. 85, 1976, səh. 30)*

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə *australopithecus* fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın "təkamülü" yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

"Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda qəbul etmələri belə mümkündür". *(Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)*

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

**Darvin formulu!**

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə, bu iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından "Darvin formulu" adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər. Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, **şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər.** Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. **Maddə ancaq Allah'ın üstün yaratması ilə həyat qazanır.** Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi, bu həqiqəti üzə çıxarar.

**Göz və qulaqdakı texnologiya**

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl “Necə görürük?” sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir. Bu məlumatdan sonra düşünək: beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik, bu, o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz. 100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı

vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə, xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır. Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq bütün texnologiyaya və bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün. Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir. Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

**Beyinin içində görən və eşidən şüur kimə aiddir?**

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik impulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-

materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allah'ın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda, düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə $sm^3$-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allah'ı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

**Materialist inanc**

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır. Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əl çəkilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda, qabaqcıl təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

"Bizim materializmə bir inancımız var, bu "a priori" (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan "a priori" bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik". *(Richard Lewontin, "The Demon-Haunted World", The New York Review of Books, 9 Ocak, 1997, səh. 28)*

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər

Allah'ın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdən kənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allah'dır.

**Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir**

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır. Bu səbəbdən, təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur. Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allah'ın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

**Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)**

**... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! (Əraf surəsi, 179)**

Allah "Hicr" surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

**Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər. (Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar. Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

**(Musa:) "Siz atın", - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. (Əraf surəsi, 116)**

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

**Biz də Musaya: "Əsanı tulla!" - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof

olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

**"Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım.** Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar". *(Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43)*

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar "təsadüf"lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

**…Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur!**

**Həqiqətən, Sən bilənsən, müdriksən!**

**(Bəqərə surəsi, 32)**